*Baş redaktor:* **prof. Y.Ş.Kərimov**

*Redaksiya heyəti:*

**Arif Muradov** - *Təhsil Nazirliyi şəhərlər üzrə ümumtəhsil və məktəbəqədər tərbiyə şöbəsinin müdiri*

**Nurlana Əliyeva** - *Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru*

**Ağahüseyn Həsənov** - *Bakı Məktəbəqədər Pedaqoji Texnikumunun direktoru, pedaqoji elmlər doktoru*

**Vidadi Xəlilov** - *Təhsil Problemləri İnstitutunun şöbə müdiri, pedaqoji elmlər doktoru*

**Əlövsət Osmanlı** - *"Pedaqogika" nəşriyyatının direktoru, fizika-riyaziyyat elmləri namizədi*

**Seyidağa Həmidov** - *ADPU-nun kafedra müdiri, pedaqoji elmlər doktoru, professor*

**Ataş Abdullayev** - *AMİ-nin müəllimi pedaqoji elmlər namizədi*

**Oqtay Rəcəbov** - *Təhsil Problemləri İnstitutunun əməkdaşı, pedaqoji elmlər doktoru*

**Ramiz Əliyev** - *Təhsil Problemləri İnstitutunun şöbə müdiri, psixologiya elmləri doktoru*

**Akif Əliyev** - *Təhsil Nazirliyi təhsilin idarə olunmasının məlumat sistemləri şöbəsinin məsləhətçisi*

**Nərminə Alnağıyeva** - *Təhsil Nazirliyi şəhərlər üzrə ümumtəhsil və məktəbəqədər tərbiyə şöbəsinin böyük məsləhətçisi*

**Həqiqət Hacıyeva** - *ADPU-nun dosenti*

**Zemfira Əsədova** - *Bakının Nizami rayonundakı 175 nömrəli körpələr evi uşaq bağçasının müdiri*

**Esmira Ağayeva** - *İ. Əfəndiyev adına Elitar Gimnaziyanın direktor müavini*

**Sevda Abbasova** - *Pedaqoji elmlər namizədi, dosent*
*(məsul katib)*

---

Yığılmağa verilmiş: 28.02.2007. Çapa imzalanmış 12.03.2007.

Kağız formatı: 70x100 $^1/_{16}$. Şərti çap vərəqi 6,0.

Sifariş № 23. Tirajı 600. Qiyməti 2 manat.

Redaksiyanın ünvanı: AZ1010, Bakı, Azərbaycan prospekti 40.
Tel. 493-84-41, 050-370-60-11

---

"RS Poliqraf" MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Ünvan: Bakı ş. A.Məmmədov 113. Tel.: 437-98-20.

# BU NÖMRƏDƏ


*Məktəbəqədər tərbiyə və təlim*

*Cəfərova L., Mirzəzadə R.* Uşaq bağçasında canlı təbiət güşəsinin təşkili............... 4

*Məmmədova X., Həsənova Ə.* Uşaq bağçası ilə məktəb arasında varisliyin təmin olunması........................................................... 8

*Abdullayeva Ş.* Məktəbəqədər tərbiyə müəssisələrində ekoloji tərbiyənin təşkili təcrübəsindən................................ 11

*Babayeva Z.* Kiçik və orta qruplarda musiqi məşğələlərinin təşkili..... 14

*Məmmədova A.* Uşağın məktəbə hazırlanması ümumpedaqoji problem kimi.......................................................................... 18

*Əsədova N.* Davranış mədəniyyətinin bünövrəsi ailədə qoyulur........ 22

*Beloşistaya A.* Natural ədədlər haqqında ilkin təsəvvürlərin formalaşdırılması................................................................ 25

*Fənlərin tədrisi və qabaqcıl təcrübə*

*Abdullayeva G.* Nitq mədəniyyəti və nitqin ifadəliliyi.......................... 34

*İbrahimova T.* Düzgün yazı vərdişlərinin inkişafı vacib məsələdir....... 38

*Abbasov C.* İkidillilik şəraitində şagirdlərin orfoqrafik inkişafını təmin edən şərtlər......................................................... 40

*Əliyev İ.* Riyazi biliklərin verilməsində məsələ həllinin rolu......... 45

*Məmmədov V.* Riyaziyyatın praktik istiqamətinin təlimin keyfiyyətinə təsiri.................................................................... 47

*Alışov M.* Həndəsi biliklərin bünövrəsi ibtidai siniflərdə qoyulur.... 52

*Cəlilova Y.* Naturadan rəsmin şagirdlərin intellektual səviyyəsinə təsiri.................................................................... 56

*Tərbiyə məsələləri*

*Quliyeva K.* Böyüyən nəslin vətənpərvərlik tərbiyəsində Heydər Əliyev irsindən istifadə.............................................. 61

*Cahangirova T.* Sinifdənxaric tədbirlər vasitəsilə kiçikyaşlı məktəblilərin mənəvi tərbiyəsi................................................ 66

*Ümumpedaqoji məsələlər*

*İsmixanov M.* Yeni biliklərin mənimsənilməsinə hazırlıq prosesində şagirdlərin müstəqil işi.............................................. 69

*Şirinova Ş.* Müasir dərsə verilən tələblər........................................... 72

*Mustafayeva N.* Şagirdlərin təlimdə düzgün yüklənmələrinə dair.......... 75

*Psixologiya məsələləri*

*Əlizadə Ə.* İstedadlı uşaqlar problemi................................................ 77

*İsayeva A.* Ailədə psixoloji mühitin valideyn-övlad münasibətlərinə təsiri.................................................................... 82

*Məmmədova A.* Məktəbəqədər yaşlı uşaqlarda diqqətin inkişaf xüsusiyyətləri.............................................................. 86

*Aslanova Z., İbrahimov C.* İnkişafetdirici təlim konsepsiyasının mahiyyəti............. 90

*Bizim iş yoldaşlarımız*

*Abbasova V.* Bacarıqlı metodist........................................................ 95

# UŞAQ BAĞÇASINDA CANLI TƏBİƏT GUŞƏSİNİN TƏŞKİLİ

**Laləzər CƏFƏROVA,**
pedaqoji elmlər namizədi,
**Rüxsarə MİRZƏZADƏ,**
elmi işçi





Bu gün cəmiyyət yetişməkdə olan nəslin təbiətlə düzgün, qarşılıqlı münasibət səraitində tərbiyəsi qayğısına həmişəkindən artıq qalır. Gələcək nəsillər üçün təbii mühiti qorumağa imkan verən ekoloji tərbiyə xeyirxahlıq, başqasının qayğısına qalmaq, açıqürəklilik, əməksevərlik, həssaslıq və s. kimi mənəvi keyfiyyətləri özündə birləşdirir.

Bu keyfiyyətlərin tərbiyəsinin əsasında təbiət haqqında biliklər durur. Bu zaman asılılığın aşağıdakı kimi zənciri yaranır: ilkin biliklər ətraf mühitin obyekt və əşyalarına marağın formalaşdırılmasını müəyyən edir, maraq yeni bilikərin əldə edilməsinə təkan verir, biliklərin əldə edilməsi ilə təbiətə müsbət münasibətin tərbiyəsi eyni zamanda gedir, insanın təbiətdə yeri və təbiətin onun həyatında əhəmiyyətinin dərk edilməsi baş verir. Məktəbəqədər tərbiyə müəssisələrində bu vəzifələri həll edən "ətraf aləmlə tanışliq" məşğələsi keçirilir, məqsədli gəzinti və ekskursiyalar, səhər və axşam fəaliyyətlərində müşahidələr aparılır.

Bu rejim anlarında düzgün aparılan təlim-tərbiyə işi təbiətdə düzgün davranış qaydalarının mənimsənilməsini, bitkilər və heyvanlarla düzgün qarşılıqlı münasibəti, həmçinin uşaqda ətraf mühitə marağı əhəmiyyətli dərəcədə genişləndirir və dərinləşdirir. Uşaqlarda bütün canlılara maraq oyatmaq xüsusilə təsərrüfatçılıq, flora və faunaya qoruyucu münasibətin mürəkkəb mənəvi-estetik hisslərin inkişafı, uşaqların təbii obyektlərə münasibətində fəal mövqenin ***(kömək, müdafiə etmək, qeydinə qalmaq və s.)*** tərbiyəsi üçün vacibdir.

Canlı təbiət-məktəbəqədər yaşlı uşaqlarda dərin və davamlı biliklər yaradan möcüzəli, mürəkkəb və çoxcəhətli aləmdir. Bu aləmdə xüsusi yer heyvanlar aləminə verilir. Heyvanların bütün yer kürəsindəki canlıların 2%-ni təşkil etmələrinə baxmayaraq, onların insanların həyatındakı rolu, mənəvi, emosional və estetik inkişaflarına təsiri çox böyükdür.

Məktəbəqədər yaşlı uşaqların təbiətdə mürəkkəb və ziddiyyətli davranışları hamıya məlumdur. Uşaq ən xeyirxaq məqsədi nəzərdə tutaraq, elə hərəkətlər edə bilər ki, bu da fauna obyektlərinə ziyanla nəticələnər. Belə ki, onların nəzərincə "zərərli" olan böcək və həşəratları məhv edə bilərlər. Canlı təbiət, ilk əvvəl heyvanlar uşaqlarda böyük emosional rəy əmələ gətirir. Fauna obyektlərinə müsbət münasibətin tərbiyə edilməsi üçün təbii, öz-özünə qazanılan biliklərə əsaslanmaq kifayət deyil. Uşaqların heyvanlarla qarşılıqlı münasibətinin onların idrakının inkişafı üçün məktəb olması böyüklərin apardığı işlərin təsirindən çox asılıdır. Bu baxımdan məktəbəqədər tərbiyə müəssisələrinin üzərinə böyük vəzifə düşür.

Tərbiyəçilər heyvanlarla tanışlıq zamanı nəyi diqqət mərkəzində saxlamalıdırlar? Kiçik uşaqlarda faunaya necə maraq oyatmalı və ekoloji tərbiyəni necə inkişaf etdirməlidirlər? Buna görə tərbiyəçilər aşağıdakı cəhətləri nəzərdə saxlamalıdırlar.

1. Kiçik uşaqlarda heyvanlar aləminə maraq oyatmaq, fauna haqqında biliklərini genişləndirmək, müxtəlif növ heyvanlar və onların davranışları haqqında danışmaq.

2. Heyvanlarla davranışda qaydaların yerinə yetirilməsinin zəruriliyinin başa düşülməsini tərbiyə etmək, "canlı" anlayışının mahiyyətinin insanla müqayisə edərək, onların anlaq səviyyələrinə uyğun açmaq: ***heyvanlar da hiss edir, xəstələnir, yemək yeyir, hərəkət edir, yuva qurur, nəsil artırır.***

3. Heyvanlara qulluq məqsədilə iş görmək arzusu tərbiyə etmək, lazım gəldikdə onlara kömək göstərmək bacarığını inkişaf etdirmək, onların yaxşı yaşamaları üçün zəruri şəraitin yaradılması.

Marağın tərbiyə edilməsi uşaqların canlı aləmlə ünsiyyəti, həmçinin onlara praktik fəaliyyəti haqqında biliklərin genişləndirilməsi və formalaşdırılması ilə bilavasitə bağlıdır.

Təbiət guşəsi üçün heyvanların seçilməsi təbii mühitdən, hər bir müəssisənin imkanlarından və uşaq kollektivinin hazırlığından asılıdır. Uşaq bağçasında saxlanılması məsləhət görülən heyvanlardan bir neçəsinə nəzər salaq.

***Ev dovşanı*** bağçanın həyətində hazırlanmış xüsusi yerdə saxlanılır. Dovşan soyuqdan qorxmur. Dovşan üçün xüsusi qəfəs hazırlanır ki, onunda ölçüsü 125 x 65, hündürlüyü isə 67 sm. olmalıdır. Qəfəsin döşəməsi 2 qat olmalıdır. Üst qat xırda damalı, alt qat isə hərəkət edən olmalıdır ki, onu tez-tez götürüb təmizləmək mümkün olsun. Qəfəs həftədə 2 dəfə təmizlənməlidir. Qəfəsdə 2 yem yeri olmalıdır. Böyüyü yaşıl ot, tərəvəz üçün, kiçiyi isə quru yem üçündür. Dovşanları gündə 3 dəfə yemləmək lazımdır. Dovşan il ərzində 6-8 dəfə balalayır. Dovşanın balaları tüksüz, kor doğulur. Gözləri yalnız 10-cu gün açılır. Ana dovşan balalarını bir aya qədər əmizdirir, sonra bala dovşanlar müstəqilləşirlər. Dovşan bütün yaş qrupları üçün məqsədəmüvafiqdir. Qəfəsin təmizlənməsi prosesində uşaqların iştirakını təmin etmək olar.

Dələ. Dələ tullanmağı sevdiyi üçün onun qəfəsi geniş olmalıdır. Qəfəsin içində nisbətən hündür yerdə dələnin yatması üçün yuva olmalıdır. Dələ rütubəti və parlaq işığı sevmir. Dələni fındıq, günəbaxan toxumları, küknar qozaları və s. ilə yemləyirlər. Dələni alma, armud, kök, çörək, bişmiş yumurta, gavalı ilə дя yemləyirlər. Qışda isə ona yaşıl ot verilməsi məsləhətdir. Yemi qəfəsə az-az qoymaq lazımdır ki, dələ qəfəsi zibilləməsin. Dələyə su, hərdən də çiy süd verilir. Dələni gündə iki dəfə səhər və axşam yemləyirlər.

*Kirpi.* Uşaq bağçasında kirpini 50 x 50 x 35 sm. ölçülü qəfəs və ya yeşikdə saxlamaq lazımdır. Kirpi, əsasən, gündüzlər yatır, gecələr gəzir. Ona görə də kirpinin gündüzlər yatması üçün qəfəsin içində sığınacaq lazımdır. Həmin sığınacaq qəfəsin ortasında yerləşdirilməllidir. Kirpini balıqla, böcəklə, alma ilə yemləyirlər. Kirpiyə verilən su gündə dəyişdirilir. Soyuqlar düşəndə kirpilər az yeməyə başlayır, əsasən bir tərəfə çəkilib gizlənirlər. Bu, təxminən mart ayınadək davam edir. Bu dövrdə onu narahat etməmək daha yaxşı olar.

Uşaqları suda-qurda yaşayanlardan qurbağa ilə tanış etmək lazımdır.

***Qurbağa*** terrariumda saxlanılır. Terrariumu köhnə akvariumdan da düzəldirlər. Terrariumun üstü dəmir tor çəkilmiş çərçivə ilə örtülür ki, ona hava daxil olsun. Terrariumun içərisinə torpaq tökülür. Torpağın üstündə qabda su, daşlar qoyulur, torpağa mamır, qıjı əkilir ki, heyvanlar özlərini təbiətdəki kimi hiss etsinlər. Qurbağa suda yaxşı üzür, yerdə də hoppana-hoppana gəzir. Qurbağanın çoxalması kürü vasitəsi ilə olur. Kürüdən qurbağanın əmələ gəlməsi prosesi 2-3 ay çəkir. Ona görə də dərin boşqaba su töküb, kürünü orada saxlayırlar. Əvvəl kürülər şişir, sonra partlayıb içərisindən çömçəquyruqlar çıxır. Çömçəquyruqlar əmələ gəldikdən sonra onları balıqsız akvariuma salmaq lazımdır. Üç həftədən sonra quyruq hissə yox olur və çömçəquyruqdan kiçik qurbağa əmələ gəlir.

***Sürünənlər*** haqqında məlumatlar orta qrupdan başlayır. Onlardan 1-2-ni uşaqlara tanıtmaq lazımdır.

***Kərtənkələ, çanaqlı bağa*** haqqında məlumat verilməsi məsləhət görülür.

Kərtənkələnin bədəni uzunsovdur. Qiyruğu da uzundur. Kərtənkələ çox cəld hərəkətlidir. İnsan üçün təhlükəsizdir. Üzəri bərk sümüyə oxşar dəri ilə örtülüdür. Kərtənkələ qışda torpağın altında gizlənir və qış yuxusuna gedir. O, zərərverici həşəratlarla qidalandığı üçün insanlara xeyir verir. Kərtənkələ yumurta qoymaqla çoxalır.

***Çanaqlı bağanın*** bədəni çanaqla örtülüdür. Çanaqın üst tərəfi hündür, alt hissəsi isə yastıdır, dörd pəncəsi var. Bədəni çanağa yapışmışdır. Təhlükə hiss edən kimi başını, pəncələrini, quyrуğunu çanağın içərisində gizlədir. Göyərti və ziyanverici həşəratlarla qidalanir. Çox ağır hərəkət edir.

***Həşəratlar.*** Uşaq bağçalarında ***arı, qarışqa, kəpənək, parabizən, may böcəyini*** uşaqlara tanıtmaq lazımdır. Uşaqlar həşəratları xarici görkəminə görə tanımalıdırlar. Arı və qarışqa insanlara xeyir verən həşəratlardır. Onları qorumaq lazımdır. Həşəratların altı ayağı olur. Arılar çiçəklərin şirəsi ilə qidalanır, bal hazırlayırlar, qarışqalar ziyanverici tırtılları yeyirlər. Parabizən zərərli bitkilər ilə qidalanır, cırcırama ağcaqanadları yeyir, may böcəyi isə yarpaqla qidalanır.

Həşəratlar *insektaridə* saxlanılır. Ağzı metal tor və ya tənziflə bağlanılır.

***Quşlar.*** Təbiət guşəsində quşları saxlayarkən aşağıdakı tələbləri nəzərə almaq lazımdır. Belə ki, qəfəs həmin quşun tələbatlarına cavab verməlidir.

- qidanın tərkibi təbii qidaya yaxın olmalıdır;
- sadə gigiyenik qaydalara və yemləmə normalarına riayət olunmalıdır.

Qəfəsin seçilməsi zamanı hər bir quşun fərdi növünə uyğunluq nəzərə alınmalıdır. Qəfəslər dördkünc və ya günbəz formalı olmalıdır. Qəfəsin həcmi quşların hərəkətindən və ölçüsündən asılıdır. Ən böyük ölçülü qəfəs 50x50x40 sm. ölçüdə olmalıdır. Qəfəsdə

yem və su qabı yerləşdirilməlidir. Qəfəsin təmiz saxlanması, quşların sağlamlığını qorumaq üçün mühüm şərtlərdən biridir. Qəfəslər hər həftə təmizlənməlidir. Qəfəsdə oxuyan və dekorativ quşlar da saxlanılır. Bunlardan sığırçını, bülbülü və tutuquşunu göstərmək olar.

Qrup otağında quşlar üçün elə yer seçilməlidir ki, uşaqlar onları yaxşı görə, müşahidə edə bilsinlər. Qəfəs həmişə təmiz olmalıdır. Suyu gündə iki dəfə dəyişdirilməlidir. Orta qrupdan başlayaraq, quşlarla tanışlığın məzmunu bir qədər mürəkkəbləşdirilir. Tərbiyəçi uşaqlara quşları böyüklüyünə, rənginə, davranışına görə fərqləndirməyi öyrədir. Quşlara qulluq etmədə uşaqların iştirakı təmin olunur. Bu da onlarda canlı təbiətə qayğıkeş münasibətin yaranmasına, diqqətli olmaq, müşahidəçilik və müqayisə etmək kimi keyfiyyətlərin inkişafına zəmin yaradır.

***Balıqlar.*** Akvarium balıqları müxtəlif formalarda olur. Balıqlar üçün akvariumun dibinə 4-5 sm. qalınlıqda qum tökürlər. Akvariuma gündəlik qayğı tələb olunur. Akvariumu seçərkən əvvəlcə onun ölçüsünü, forma və həcmini nəzərə almaq lazımdır.

Uşaq bağçalarında təbiət guşəsində müşahidə etmək üçün ən maraqlı balıqlar karp, (sazan), karas (dabanbalığı), yelpikquyruq balıq, tülquyruq balıq, qılıncquyruq (merenos), teleskop, xoruz, kometa, kardinal, neon və s. balıqlar saxlanır. Yaxşı düzəldilmiş akvarium uşaqların diqqətini cəlb edir. Kiçik qruplarda balıqlarla ilk tanışlıq üçün şirin sularda yaşayan dabanbalığını götürmək yaxşı olar. Üzən balıqları müşahidə etdikdə tərbiyəçi onların necə üzməsini izah edir.Uşaqların balıqlara olan marağını artırmaq üçün tərbiyəçi akvariuma bir-iki qızıl balıq əlavə edə bilər. Orta qrupda müşahidə üçün qızıl balıq və onun müxtəlif növləri, məsələn, kometa, teleskop, yelpicquyruq balıq əlavə edilir ki, bunların da xarici görünüşləri uşaqların diqqətini cəlb edir. Böyük və məktəbəhazırlıq qruplarında akvariumda quppi, qılınc balıq, teleskop və s. balıqları da saxlamaq olar.

Böyük və məktəbəhazırlıq qrupunun təbiət guşəsində bəzi heyvanların uzun müddət saxlanılması uşaqların davamlı müşahidələrinə imkan yaradır.

**Ədəbiyyat**


1. М.М. Марковская. Уголок природы в детском саду. М., 1989.
2. С. Веретенникова. Ознакомление дошкольников с природой. М., 1980.
3. Воспитание дошкольника в труде. (под ред. В.Г. Нечаевой), М., 1980.


**Uşaq bağçasında canlı təbiət guşəsinin təşkili**

**Резюме**


На сегодняшний день общество еще большей ответственностью относится к воспитанию взаимоотношений подрастающего поколения с природой. Экологическое воспитание дает возможность подрастающему покалению защищать окружающую среду, вырабатывает в них такие качества, как – трудолюбие, чуткость, доброжелательность и т. д. Живая природа всегда является загадочным миром для детей дошкольного возраста , которые постоянно раскрывают для себя глубокие и устойивые знания. В этой среде особое место занимает животный мир.

# UŞAQ BAĞÇASI İLƏ MƏKTƏB ARASINDA VARİSLİYİN TƏMİN OLUNMASI

**Xalidə MƏMMƏDOVA,**
*Azərbaycan TPİ-nin böyük elmi işçisi,*
**Əsbət HƏSƏNOVA,**
307 nömrəli uşaq bağçasının tərbiyəçisi





Varislik cəmiyyətin bəşəri qanunudur. Hər bir nəsil özündən əvvəlki nəslin, ulu babaların, ata-anaların, keçmiş ictimai quruluşun yaxşı cəhətlərinə, adət-ənənələrinə istinad edir, onu qoruyub saxlayır. Bu, yeni cəmiyyətin möhkəm bünövrə üzərində sürətlə, inamlı və məzmunlu inkişafını təmin edir.

Varislik anlayışı elm, tədris və digər sahələrdə işlədilir. Elmi ədəbiyyatda varisliyin mahiyyəti belə müəyyən edilir, «təbiət daim irəliyə doğru hərəkət edir, heç vaxt köhnəni atıb yenidən yapışmır, lakin əvvəl başladığını davam etdirərək onu yeniləşdirir və axıra çatdırır».

Məktəbəqədər və kiçikyaşlı məktəblilərin təlimində bu günün dünənə istinad etməsi və sabahı üçün zəmin yaratması didaktik prinsip kimi mühüm yer tutmalıdır. Yalnız belə bir şəraitdə biz sistem yarada bilərik. Yalnız belə bir fəaliyyət əsasında məktəbəqədər tərbiyə ilə ibtidai təhsil arasında varisliyi təmin edə bilərik. Elə bu cəhət təhsil sisteminin birinci pilləsinin ikinci pillə ilə əlaqəli olduğunu deməyə əsas verir. Uşaq bağçası ibtidai təlim üçün, ibtidai təlim isə orta məktəbdə ayrı-ayrı fənlər üzrə sistematik kursların mənimsənilməsinə hazırlıq mərhələsidir. Deməli, bu üç mərhələ arasında varislik özünü göstərir. Varislik dedikdə, ibtidai siniflərdə təlim-tərbiyənin təşkili zamanı uşaqların məktəbə gələnədək bağçada əldə etdikləri bilik, bacarıq və vərdişlərə istinad olunması nəzərdə tutulur. I sinif müəllimləri dərs ilinin ilk günlərində pedaqoji diaqnostikanın köməyi ilə onların bağçadan hansı səviyyədə gəldiklərini öyrənir və öz fəaliyyətini həmin bünövrə üzərində necə quracağı barədə fikirləşirlər.

Uşaq bağçası və ibtidai sinif arasında varislik müəllimin peşə sistemogenezisinin prinsipi və şərtidir.

Məktəbə hazırlıq qrupundan məktəb təliminə keçid məktəbəqədər yaşlı uşaqların həyatında yeni mərhələnin başlanğıcıdır. «Şagird» statusu alan uşaq biliklər aləminə ilk addımını atır. Bu zaman uşağın başlıca fəaliyyət növü dəyişir, oyun təlimlə əvəz olunur, uşaq yeni həyat tərzinə başlayır, yeni fəaliyyət şəraitinə daxil olur. Cəmiyyətdə yeni mövqe tutur. Uşağın həyatını, inkişafını müəyyən edən sosial mühit dəyişir. Məktəbə daxil olan uşaq böyük, mütəşəkkil uşaq kollektivinin üzvü olur. Bu zaman şagirdlərlə yaşıdları arasında qarşılıqlı münasibətin yeni tipi

yaranır. Məktəbdə təlimin ilk mərhələsində uşaqlara təsviri yadda saxlama, öyrənmə, mənimsəmə kimi tələblər qoyulur. Yeni tələblər uşağın psixikasında yeni keyfiyyətlər formalaşdırır. Əqli tərbiyə dedikdə, bəzilərinin düşündükləri kimi yalnız uşağın yazması, oxuması kimi başa düşülməməlidir. Bu prosesdə uşaqların yazı və oxu texnikasına yiyələnmək üçün ilkin vərdişlərə, sadə riyazi anlayışlarla əlaqədar praktik fəaliyyətə yiyələnirlər. Eyni zamanda onlar müşahidə aparmaq, müqayisə etmək, qruplaşdırmaq, ümumiləşdirmək, əqli nəticə çıxarmaq bacarıqları əldə etməlidirlər. Əqli tərbiyə intellektual bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməyi, təfəkkür və əqli keyfiyyətləri inkişaf etdirməyi, idrak motivlərini formalaşdırmağı nəzərdə tutur. Əqli tərbiyənin əsas vəzifəsi yaradıcı surətdə, elmi şəkildə düşünməyə qabil şəxsiyyətlər yetişdirməkdir.

İstər uşaq bağçası, istərsə də məktəb uşaqlardan «oxumaq» bacarığı, yeni bilik mənimsəmə qabiliyyəti tələb edir. Tərbiyəçi və müəllimin göstərdiyi fikri iş priyomlarına və yollarına yiyələnmək, nəticə əldə etmək bacarığı formalaşdırır.

Uşaq bağçasında və məktəbdə uşaqların davranışına bir sıra ümumi tələblər verilir: tərbiyəçini və yoldaşlarını dinləmək, tərbiyəçinin hərəkətlərini müşahidə etmək, onun göstərişlərini izləmək və onları diqqətlə yerinə yetirmək, aldığı qiymətə fikir vermək, sonra öz işini müstəqil qiymətləndirmək, səhvlərini düzəltmək və s. bütün bunlar diqqəti, təfəkkürü, iradəni, fəaliyyəti, çalışqanlıq səyini tərbiyə edir.

Varislik baxımından göstəricilərin həyata keçirilməsinin müvəffəqiyyətlə həlli üçün məktəbəqədər müəssisələrin məktəbə hazırlıq qrupunun tərbiyəçiləri məktəbə gedən uşaqlarla aprel-may aylarında məktəb haqqında silsilə söhbətlər aparmalıdırlar. Məktəb qaydalarına riayət etmək, şagird- müəllim münasibətləri, müəllimin işi və s. haqqında söhbətlər vasitəsilə uşaqda məktəbə dair məlumat genişlənir, məktəbə oxumağa maraq artır.

Uşaqlarla məktəbə dair aparılan söhbətlərin aşağıdakı suallar ətrafında aparılması mümkündür:

1) Məktəbdə dərslər nə vaxt başlayır?
2)Bu gün hansı gündür və necə adlanır?
3)Məktəbin binasında nələr yerləşir?
4)Məktəbdə oxuyanda sizi necə adlandıracaqlar?
5)Məktəbdə hansı otaqlar var, onlar nə üçündür?
6)Uşaqlara dərs deyən adam necə adlanır?
7)Uşaqların cavablarını kim qiymətləndirir?
8) Nə üçün oxumaq lazımdır?
9) Sən oxumaq istəyirsənmi?
10) Oxuyub hansı peşənin sahibği olmaq istəyirsən?

Belə müsahibə bütün qruplarla dialoq formasında aparılır.

Uşaqlar suallara müstəqil cavab verməyə, yoldaşlarının cavablarına əlavələr etməyə, cavablarını müqayisə edib ümumiləşdirmə aparmağa nail olurlar, lakin bəzi suallara cavab verməkdə çətinlik çəkirlər. «Məktəbə nə vaxt gedirlər? Məktəbin binasında nə yerləşir?» Suallara aydınlıq gətirmək üçün məktəbə, sinfə ekskursiya təşkil etmək, məktəb həyatını əks etdirən şəkillərə baxmaq, bədii əsərlər oxumaq, bir neçə məktəb süjetli oyunu təşkil etməklə məktəb haqqında təsəvvürləri genişləndirmək zəruridir. Bu cür fəaliyyət növlərində sinif müəllimlərinin iştirakı vacib bir məsələ kimi ön plana çəkilməlidir. Sinif müəllimləri məşğələlərdə iştirak etməli, proqramlarla tanış olmalı, hazırlıq qruplarında uşaqların mənim-

sədikləri biliklərin səviyyəsini öyrənməlidir ki, öz işini planlaşdırarkən uyğunluq yarada bilsinlər.

Bundan əlavə sinif müəllimləri bağçalarda keçirilən bayramlara, əyləncələrə, ad günlərinə və digər tədbirlərə dəvət olunmalı, pedaqoji şurada, metodbirləşmədə, iclaslarda iştirak etməli, tərbiyəçilər də öz növbəsində məktəbin ibtidai siniflərində keçirilən tədbirlərdə iştirak etməlidirlər.

Bu cür varisliyin həyata keçirilməsi təlimin məzmunu, formaları, metodları, vasitələri ilə uşaqların tərbiyəsi və inkişafı arasında qarşılıqlı əlaqənin yaranması prinsipini güdür. Bu təlimin keyfiyyətinin maksimal yüksəlməsinə imkan yaradır.

Müasir dövr məktəbəqədər müəssisələrdə və ibtidai siniflərdə təlim tərbiyənin səmərəliliyinin yüksəldilməsi yeni texnologiyaların tətbiqini bir zərurət kimi irəli sürür. Odur ki, bu gün təhsil müəssisələrində yeni interaktiv təlim metodları müvəffəqiyyətlə tətbiq olunur və yaxşı nəticələr əldə edilir.

Bir neçə yeni təlim metodunu açıqlayaq:

**Rollu oyunlar** (səhnələşdirilmiş dialoq). Bu təlim metodu aşağı qruplarda bəsit formada tətbiq edilir. Uşaq üzərinə düşən rol üçün məsuliyyət daşıyır, ona yaradıcı yanaşmaq qabiliyyətini, düşünməyi tələb edir. Rollu oyun əyləncənin sadə cəhətlərini özündə birləşdirir. Uşaq obrazlarla dialoqa girir, onu yamsılayır. Özünü həmin səhnənin qəhrəmanı hesab edir. Bu da onların nitqini, təfəkkürünü inkişaf etdirir.

**Cütlər və qruplar.** Bu metod vasitəsilə uşaqlar suallar və tapşırıqlara əsasən bir-birilə fikir mübadiləsi aparır, əməkdaşlıq edir. Bir-birinin rəyinə qulaq asaraq ümumi qərara gəlirlər. Bu metod uşaqları ümumi işə cəlb edir. Özünə inam yaradır və uşaqları fəallaşdırır. Bu metod əqli gərginlik tələb edən məşğələlərə tətbiq olunur və müvəffəqiyyətli nəticə əldə etməyə kömək göstərməklə zehni qabiliyyətinin inkişafına təkan verir.

**İşgüzar səs-küy metodu** qruplar üzrə məsləhətləşmə, müzakirə fikir mübadiləsi əsasında nəticəyəgəlmə prosesinə xidmət edir. Bu metoddan məşğələlərdə-dərslərdə, məşğələdən və dərsdənkənar vaxtlarda kollektivçiliyi, əməkdaşlığı, uşaqların bir-birinə kömək göstərmələrini təmin etmək məqsədilə istifadə olunur.

**Əqli hücum** uşaqlardan və məktəblilərdən hazırcavablıq tələb edir. Odur ki, sual-cavab gecələrinə, viktorinalara, disputlara, «şən hazırcavablar», «xoşbəxt dairə» və s. kimi intellekt oyunların təşkilinə geniş yer verilməlidir. Bu metod uşaqların intellektini sürətlə inkişaf etdirir.

**Söz assosiasiyasından** istifadə metodundan müxtəlif məşğələlərin və fənlərin öyrədilməsində əvvəlcədən həmin mövzu ətrafında və bildiklərini öyrənmək, yeni mövzunu izah etmək məqsədilə istifadə olunur. Bu metod bütün fəaliyyət növlərinə tətbiq olunur.

Bu təlim metodlarından mövzuya müvafiq ayrı-ayrı məşğələlərdə və dərslərdə istifadə etməkdə tərbiyəçiyə və müəllimə müstəqillik verilir. Belə müstəqillik uşaqları və məktəbliləri fəallaşdırır, onların biliklərini zənginləşdirir, yaradıcılığını, təşəbbüskarlığını artırır, psixi proseslərini inkişaf etdirir.

**Ədəbiyyat**


1. Y.Ş. Kərimov. İbtidai təlim: problemlər, vəzifələr. Bakı, 2000.
2. Y.Ş. Kərimov. Uşaq məktəbə gedir. Bakı, 2000.
3. К проблеме преемсвенности дошкольного образования. «Начальная школа», 2002, №1.

4. О преемственности в работе школе и детских садов. М. 2000.

**О преемственности в работе школе и детских садов**

**Резюме**

В статье освещается взаиммодействие дошкольных учреждений со школой на основе новых путей интерактивного метода обучения, соответствующих требованиям современности.

Главная цель этой стати – помочь воспитателям дошкольных учреждений и учителям начальных классов в организации и проведении занятий и уроков на основе этих методов обучения.

# MƏKTƏBƏQƏDƏR TƏRBİYƏ MÜƏSSİSƏLƏRİNDƏ EKOLOJİ TƏRBİYƏNİN TƏŞKİLİ TƏCRÜBƏSİNDƏN

**Şahnaz ABDULLAYEVA,**
Bakının Sabunçu rayonundakı 3 nömrəli uşaq bağçasının müdiri



«Təbiət bizi geyindirir, yedizdirir, sağlamlığımızı təmin edir, bütün tələblərimizi ödəyir. Yadımızda saxlayaq ki, təbiətin taleyi bizim taleyimizdir. Laqeydliyimiz, soyuqqanlılığımız üzündən təbiət bizdən üz döndərə bilər.

Müstəqil Azərbaycanımızın əsl vətəndaşı olmaq üçün onun hər ağacını, kolunu, çiçəyini sevməliyik, onun hər qarış torpağını göz bəbəyi kimi qorumalıyıq.

*(1998-ci ildə Respublika Uşaq Ekoloji Forumun* ***Azərbaycan xalqına müraciətindən)***

Təbiət dedikdə, bizi əhatə edən mühit, bu mühitdəki canlı və cansız aləm başa düşülür. Bütün həyati proseslər təbiətdə yerin üz qatında – biosferdə gedir ki, onun da tərkib hissəsini canlı aləm: bitkilər, heyvanlar və insanlar təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyasının 39-cu maddəsində deyilir: «Təbiəti qoruyub mühafizə etmək, onu daha da zənginləşdirmək, hamımızın borcudur. Hər bir Azərbaycan vətəndaşını bu ruhda tərbiyə etmək lazımdır».

Uşaqlara doğma təbiəti sevməyi, onun gözəlliklərini görməyi, ondan həzz almağı öyrətməklə onlarda təbiətə məhəbbət və əməksevərlik tərbiyə edirik. Tərbiyəçilərin qarşısında ekoloji tərbiyənin keyfiyyətini yüksəltmək məqsədilə aşağıdakı vəzifələr durur:

➢Tərbiyəçi yaşadığı diyarın bitki örtüyü, heyvanları haqqında dəqiq və geniş məlumata malik olmalıdır.

➢Uşaqlara təbiət və ictimai hadisələr, bitki və heyvanlar haqqında sadə anlayışlar vermək üçün dərin biliyə yiyələnməlidir.

➢Təbiətdə baş verən dəyişikliklərin səbəblərini uşaqlara başa salmaq bacarığına malik olmalıdır.

➢Uşaq bağçasında təbiət guşəsini təşkil edib, ora bəzi bitki və heyvanları yerləşdirməlidir.

➢Bitkilərin inkişafı və çoxalması işində, aqrotexniki qaydalara riayət etməyi bilməlidir.

➢ Heyvanlara qulluq etmək, onların qidalanması və bəslənməsi üçün şərait yaratmağı bacarmalıdır.

➢Təbiəti sevmək, onun gözəlliyindən zövq almaq kimi estetik hissləri tərbiyə etməyi bacarmalıdır.

➢Canlı və cansız aləmlə tanışlıq təbiətin qanunauyğunluqlarını uşaqlara başa salmaqla yanaşı, onlarda vətənpərvərlik, mülayimlik, canıyananlıq, mehribanlıq, tapşırıqlara əməl etmək, təmizkarlıq, qətiyyətlilik, doğruçuluq, dostluq, yoldaşlıq kimi əxlaqi sifətlər tərbiyə etməlidir.

Bağçamızda uşaqların təbiətlə tanışlığının təşkili, məşğələ, gəzinti, ekskursiya, həyatyanı sahədə və təbiət guşəsində iş prosesində davam etdirilir. Həmin prosesdə ətraf mühit barədə məlumatlar və praktik işlərin uşaqların yaş və qavrama səviyyələrinə uyğun olmasına xüsusi diqqət yetirilir. Tərbiyəçilər bu cür iş formalarından alınmış bilikləri tərbiyə işinin effektini artırmaq üçün təbiətdə əmək, növbətçilik barədə müsahibə, məşğələlər aparırlar. Təcrübə göstərir ki, təbiətdə əmək uşaqların əqli və sensor tərbiyəsi üçün böyük əhəmiyyət kəsb edir. bu məqsədlə tərbiyəçi ekskursiyada müşahidə metodundan geniş istifadə edir. Belə müşahidələrin təşkilində bitki və heyvanlar, canlı və cansız təbiət, təbii hadisələr, adamların təbiətdə əməyi, eləcə də əşyalar və hadisələr arasında asılılıq və səbəblər haqqında uşaqların dünyagörüşü genişlənir. Burada «canlı» və «cansız» təbiət, «Yaxşı nədir, pis nədir» mövzusunda tablolardan, quşlar, ev heyvanları, vəhşi heyvanlar haqqında albomlardan istifadə edirlər. Bundan başqa şeirlərdən istifadə edilir.

Qırılmasın bir budaq,
Qırılmasın bir ağac,
Qalmasın bala quşlar,
Meşədə yemə möhtac.

Çiçəkləri, otları,
Böcəklər zay etməsin,
Qoy dələlər, dovşanlar
Küsüb bizdən getməsin.

Bu şeirdə uşaqların bitkilərə qayğı göstərmələri, gül- çiçəyə qulluq etmələri, quşları qorumaları, təbiəti sevmələri göstərilir. Onlar anlayırlar ki, yaxşı nədir, pis nədir. Təcrübədən aşkar olur ki, bu bitkilərin əldə edilməsində yaşlıların əməyi ilə tanışlıq, uşaqların onlarla birlikdə bacardıqları qədər əməyə cəlb edilmələri (torpağı yumşaltmaq, lək düzəltmək, tərəvəz toxumlarını əkmək, şitil basdırmaq və s.) çox əhəmiyyətlidir. Uşaqlara sadə biliklərin verilməsi və əmək vərdişlərinin aşılanması məqsədinə xidmət edən bir məşğələni nəzərdən keçirək. Tərbiyəçi deyir: Baxın bitkini necə sulamaq lazımdır? Susəpən belə tutulmalı (göstərir), onun ucu dibçəyin kənarına söykənməlidir. Suyu tədricən tökmək lazımdır ki, su dibçəyin dibinə qədər hopsun. Yaxud, quşlar üçün dəni dənliyə, suyu ayrıca qaba tökmək lazımdır.

Uşaqlar onun hərəkətlərini təkrarlayırlar. Bağçamızda tez-tez ekskursiyalar təşkil edilir. Uşaqlarla «Nəbatət bağına», heyvanxanaya, Heydər Əliyev parkına gedirik. Bu zaman uşaqlar ətrafda olan ağacları, gülləri, bəzək kollarını, quşları müşahidə edirlər. Tərbiyəçilər şeirlərdən, didaktik oyunlardan, Azərbaycan xalq folkloru nümunələrindən (tapmaca, saymaca, əyləncə, yanıltmac) istifadə edirlər. Uşaqları başa salırıq ki, biz heyvanları qorumalıyıq, onlar təbiətin yaraşığıdır. «Təbiətin nadir heyvanlarını – ceyranı, cüyürü, maralı ovlamaq olmaz» fikri şeirlər, nağıllar vasitəsilə uşağa çatdırılır:

Gün çəkilib batanda,
Gündüzə şər qatanda,
Ovçu əlin qurusun,
Marala ox atanda.

Uşaqlar gəzinti zamanı qarı, yağışı, dolunu, ayın işığını, şimşəyin çaxmasını, göyün gurultusunu, günəşin səhərlər çıxmasını, axşamlar batmasını, qışın soyuq, yayın qızmar keçməsini, yazın yaşıllıq gətirməsini, payızda yarpaqların tökülməsini müşahidə edirlər, Onlarda həmişə «Nə üçün belə olur?» sualına cavab axtarmaq ehtiyacı yaranır. Bu isə yaxşı cəhətdir. Deməli, uşaqlar düşünürlər. İlk növbədə uşağa düşünməyi öyrətmək lazımdır. Təbiətdə gedən bütün proseslər hamısı bir qanuna tabe olduğundan onların öyrənilməsi də inteqrasiya yolu ilə ümumiləşdirilmiş, inkişafetdirici təlim metodlarının tətbiqi tədris prosesinin xeyli intensivləşməsinə səbəb olur. Öyrənmə hər uşaq üçün daha maraqlı fəaliyyət sahəsinə çevrilir, onların fəallığının artmasına zəmin yaradır.

Bahardan danışarkən uşaqların yaz fəsli haqqında bilikləri zənginləşir, söz ehtiyatları artır, nitqləri fəallaşır. Burada bahar fəslini əks etdirən tablodan istifadə olunur. Bundan başqa, riyaziyyat, rəsm, applikasiya və musiqi məşğələlərində də təbiətin təsviri təbliğ olunur. Fəsillərə aid tapmacalar öyrədilir, suallar verilir. Novruz bayramının gəlişi ilə əlaqədar təbiətdə nə baş verir? Təbiəti oyadan günəş bizə nə verir? Hansı quşlar, çiçəklər və ağaclar bahar müjdəçiləridir? Bahar hansı heyvanları qış yuxusundan oyadır?

Bu sualları cavablandıran biliklər uşaqlarda möhkəmlənir və məşğələlər yekunlaşdırılır. Bütün bunlar interaktiv biliyin verilməsi üçün əlverişli şərait yaradır. Bununla ekoloji tərbiyənin təşkilində təlim və tərbiyənin keyfiyyətinin yüksəldilməsinə nail oluruq Uşaqlarda təbiətə məhəbbət hissinin tərbiyə edilməsində ekoloji tərbiyənin təşkilində bağça ilə ailənin sıx əlaqəli işi müsbət nəticə verir.

Bəzi ailələr uşaqların evdə təbiət güşəsində gördüyü işlərə o qədər də əhəmiyyət vermir, buna lazımsız iş kimi baxırlar. Belə ailələrdən gələn uşaqlar səliqəsiz işləyir, gülləri qırır, quşları daşlayırlar. Tərbiyəçi belə validenlərə məsləhət verir, onlarla söhbət aparır. Uşaq bağçasının ümumi valideyn iclasında «Ailədə uşağın əməyi üçün şəraitin yaradılması», «Uşaqlarla ətraf mühitə marağın və təbiətə məhəbbətin tərbiyə edilməsi» və s. mövzularda mühazilələr oxuyur.

**Ədəbiyyat**

1.Səlimxanova X. Məktəbəqədər yaşlı uşaqların ətraf aləm haqqında məlumatların verilməsi üzrə işin təşkili. Bakı, 1977.

2. Məktəbəqədər yaşlı uşaqlar üçün müntəxəbat. Bakı , 2000.

3. Sadıqova T. «Uşaqların məktəb təliminə hazırlanmaları prosesində didaktik oyunlardan istifadənin imkan və yolları» Bakı, 2006.

**Из опыта организации экологического воспитания в учреждениях дошкольного воспитания**

**Резюме**

В статье раскрывается опыт работы по привитию детям дошкольного возраста качесвт воспринимать красоту природы, получить удовольствие от общения с ней. А так же воспитат в них любовь к природе, к трудолюбию. И все это предусматривает повышение качества экологического воспитания в данной сфере. Даются некоторые рекомендации для воспитателей.

# KİÇİK VƏ ORTA QRUPLARDA MUSİQİ MƏŞĞƏLƏLƏRİNİN TƏŞKİLİ

**Zümrüd BABAYEVA,**
ARTPİ-nin məktəbəqədər tərbiyə və təlim şöbəsinin elmi müxbiri



Uşaq bağçalarında musiqi tərbiyəsi, uşaqlarda bədii-estetik zövqün inkişafına, onların mənəvi yüksəlişinə imkan verir. Uşaqların musiqini sevməsi, musiqi qabiliyyətlərini, davranışını və bacarıqlarını genişləndirməkdən ötrü uşaq bağçalarında musiqi tərbiyəsinə, onun ayrı-ayrı bölmələrinin öyrədilməsinə diqqət artır.

Uşaq bağçalarında musiqi tərbiyəsi lap kiçik yaşlarından başlanır. Musiqi rəhbəri uşaqları qruplara bölməklə məşğələyə bənzər yüngül iş aparır.

Kiçikyaşlı uşaqlarla keçirilən musiqi məşğələsində mahnı, rəqs, musiqili oyun ifa edərkən uşaqlar musiqiyə diqqətlə qulaq asırlar, sonra musiqi rəhbərinin işarəsi ilə son frazaları ifa etməyə cəhd göstərirlər. Körpə yaşlı uşaqlarla dəqiq quruluşlu musiqi məşğələləri aparılmır. Bu dövrdə musiqini oyuncaqlarla, gəzinti, yüngül pərakəndəli qaçışla, sadə oyun və rəqs hərəkətləri ilə öyrədirlər.

Kiçik qrupda uşaqlarla həftədə iki dəfə musiqi məşğələsi təşkil olunur. Məşğələ gəzmək, yeriş və yüngül qaçışla başlanır. Birinci aylarda uşaqların hərəkətləri çox zəif olur. Sonralar uşaqlar yavaş-yavaş fəallaşır, onların hərəkətləri dəqiqləşir.

Musiqinin dinlənilməsi uşaqların eşitmə qabiliyyətini, musiqi duyumunu artırır, onlarda emosionallığı gücləndirir. Uşaqlar musiqini dinləyərkən sadə ritmik hərəkətlər etməyi (əl çalmaq, ayağı yerə vurmaq) öyrənirlər. Musiqi dinlənilərkən ona aid oyuncaq, illüsrtativ vasitələrin köməyi ilə uşaqların diqqətini cəlb etmək lazımdır. Musiqi rəhbəri məşğələyə əvvəlcədən hazırlaşmalı, məşğələnin maraqlı olması üçün onu aydın ifa etməlidir. Musiqi dinlənilməsində uşaqlarla aparılan sorğu, uşaqların marağını və söz ehtiyatını artırır.

Uşaqların musiqi savadını, musiqi dünyagörüşünü artırmaqdan ötrü onların musiqi alətləri ilə tanışlığı faydalıdır. Musiqi məşğələlərində fortopiano haqqında məlumat verib, onların musiqi duyumunu artırmaq olar. Sonralar 2-3 məşğələdən bir uşaq musiqi alətləri olan metallafon, baraban, kanon və s. həmçinin simli musiqi alətlərini göstərib səsləndirməklə, uşaqların musiqiyə həvəslərini artırmaq, musiqi hissiyatını genişləndirmək mümkündür.

Mahnı uşaqların ən çox sevdikləri musiqi meyarıdır. Mahnı uşaqların şənlənmələrinə, onların vətənimizə, valideynlərə, təbiətə, dostlara məhəbbətlərinin inkişafına kömək edən bir vasitədir. Musiqi rəhbəri musiqi məşğələsi zamanı, mahnı öyrədilməsinin qaydalarını iki hissəyə ayırır. I hissədə öyrəndiyimiz mahnı ilə tanışlıq işi gedir, II hissədə isə mahnı oxumağın qaydaları öyrədilir. Öyrənilən mahnı ilə tanışlıq əvvəl onun musiqisi, məzmunu, musiqi xarakterinin aydınlaşdırılması, musiqi intonasiyalarına riayət edilməsi, mahnını birlikdə başlayıb birlikdə

qurtarmaq kimi keyfiyyətlərdən ibarətdir. Bu ümumi qaydaları musiqi rəhbəri uşaqlara aydınlaşdıranda mahnının mənimsənilməsi, onun ifası xeyli asanlaşır.

Mahnı oxunuşunun ikinci bölməsinə daxil olan vasitələr isə uşaqların nəfəs almalarının şəraiti ilə başlanır. Bununla belə, mahnı oxuyarkən düzgün nəfəs almaq, uşaqların birlikdə fasilə etmələri musiqi frazalarını birlikdə ifa etmələri mahnının ifasını tənzimləyir.

Uşaq mahnını oxuyarkən, onun üzündə təbəssüm, sevinc hissi olmalıdır ki, mahnıya münasibəti, məhəbbətləri hiss edilsin. Mahnı ifası uşaqların nitqinin inkişafına da öz təsirini göstərir. Mahnı oxunuşu uşaqların nəfəs borusunun inkişafına kömək edir. Mahnı uşaqların gələcək həyat və yaradıcılıqlarının mədəni qurulmasına kömək göstərir.

Mahnı öyrədilməsində mahnı oxunuşundan əvvəl kiçik musiqi terminləri uşaqların səsini açır, bu zaman onlar mahnını daha həvəslə oxuyurlar. Uşaqların öz adlarını musiqi ilə oxumaları, onları daha çox sevindirir. Mahnı öyrətməzdən əvvəl musiqi rəhbəri və tərbiyəçi mahnını aydın və təmiz səslə oxumalıdırlar ki, uşaq mahnının musiqisini və məzmununu başa düşsün. Bu uşaqların musiqi yaddaşlarının inkişafına kömək göstərir.

Musiqi məşğələsində mahnı bölməsindən sonra musiqili-ritmik-hərəkətlərin öyrədilməsi üzrə iş gedir.

Kiçik qrup uşaqları musiqi eşidərkən istər-istəməz öz fəallığını göstərirlər. Məşğələlərin başlandığı ilk aylarda uşaqlar musiqinin sakit, şən xarakterini dərk edə bilirlər. Sonra isə yavaş-yavaş gəzmək və qaçmaq, əl çalmaq, ayağı yerə vurmaq, rəqs etmək kimi musiqili elementlərin icrasını öyrənirlər. Bu hərəkətlərin icrası zamanı tərbiyəçi uşaqlara kömək edir, müxtəlif göstərişlərlə hərəkətləri musiqinin ritminə uyğunlaşdırır. Hərəkətlərin düzgün icrası üçün musiqi rəhbərinin işarələri, musiqi hissələrinin aydın ifası vacibdir. 2-3 yaşlı uşaqlar sıra ilə birbirinini ardınca yeriməyi bacarmalıdırlar. Dairə qurub dairədə bir-birinin ardınca getmək, yüngül musiqili oyunlar (məsələn: «Yaylığı ötür») və yüngül xarakterli cüt rəqslər (məsələn: «Kiçik rəqs») və sadə Azərbaycan rəqsi («Lalə»). Bu kimi şən, yüngül, sadə hərəkətli oyunlar və rəqslər uşaqlara sevinc gətirir, onların fiziki inkişafına kömək edir.

Məşğələnin bu bölməsində nəğməli oyunlar da keçirilir. Musiqi rəhbəri mahnının mövzusuna uyğun hərəkətlər qurur və bu hərəkətlərin mahnının musiqi ritmi ilə paralel olmasını təmin edir. Musiqi rəhbəri oyuna başlamazdan əvvəl onun musiqisi və məzmunu ilə uşaqları tanış etməlidir: məsələn: («Yaxşı otur, yaxşı dur»). Bu cür oyunların keçirilməsi üçün musiqi rəhbərinin aydın ifası, sözlə izahı vacibdir.

Kiçik qruplarda musiqi rəhbəri və tərbiyəçi söz ehtiyatından geniş istifadə etməlidir. Mahnı ilə keçirilən oyunlar zamanı əvvəlcə mahnını musiqi rəhbəri oxuyur, tərbiyəçi isə hərəkətlərin icrasına kömək edir. Sonrakı məşğələlərdə isə yavaş-yavaş uşaqlar daha cəsarətli olurlar. Fəal və təmiz nitqi olan uşaqlar tərbiyəçi ilə birlikdə mahnını da oxuya bilirlər. Musiqili ritmik hərəkətlərdə qrupun bütün uşaqları iştirak etməlidirlər. Utancaq uşaqlara fərdi göstərişlər verilməli, hərəkətləri düzgün icra edən uşaqlar nümunə göstərilməlidir.Bu musiqili oyunlar və rəqslərdə oyuncaqlardan da istifadə etmək olar. Uşaqlar musiqili hərəkətlərin başlanğıc və sonuna diqqətli olmalıdırlar. Ritminə uyğun hərəkətləri dəyişməyi bacarmalı və bir növ hərəkətdən başqa hərəkətə keçməyi öyrənməlidirlər.

İndi isə kiçik qrupda musiqi məşğələsinin təşkilini nəzərinizə yetirək:

**I.«Marş» M.Krasyev.**

***Proqramın məzmunu:*** Bir-birinin ardınca zalı dövrə vuraraq, ritmik yeriş. Yerişi sadələşdirib pəncə üzərində gəzməyə çalışmaq. Yeriş zamanı sıranı pozmamaq, bir-birini itələməmək. Uşaqların yerişlərini musiqinin ritmi ilə tənzimləmək.

***Üsul:*** Musiqi rəhbərinin aydın ifası və tərbiyəçinin köməyi ilə uşaqların yeriş hərəkətlərinin düzgünlüyünə çalışmaq. Musiqi rəhbərinin işarəsi ilə fərdi göstərişlər vermək, uşaqlarda olan bilik və bacarıqları inkişaf etdirmək.

***II. Dinləmə: «Bağçamız» S.Rüstəmov.***

***Proqramın məzmunu.*** Mahnının musiqisi və məzmunu ilə tanış olmaq, onun musiqi xarakterini aydınlaşdırmaq. Mahnını musiqi rəhbərinin ifasında iki dəfə dinləmək. Bağça haqqında təəssüratlarını genişləndirmək.

**Üsul:** Musiqi rəhbərinin aydın ifası, sözələ izahı. Bağçamızdakı oyuncaqlardan istifadə edərək, məşğələni daha da maraqlı aparmaq.

Musiqi savadının artırılması üçün uşaqları uşaq musiqi aləti olan «metallafon» ilə tanış etmək, onu səsləndirmək. Fortopiano ilə fərqini izah etmək. Səsləndirilən musiqi altlərinin adını düz tələffüz etməyi öyrətmək. (Fortopiano, metallafon).

**III. Mahnı «Gəlin» T.Quliyev.**

***Proqramın məzmunu.*** Mahnının musiqisi və onun məzmunu ilə tanış olmaq. Mahnının adını söyləyib, onun uşaqların yadında qalması üçün 2 dəfə ifa etmək. Əvvəlcə musiqi rəhbəri, sonra isə tərbiyəçi ilə oxumaq.

***Üsul.*** Musiqi rəhbərinin aydın ifası və sözlə izahı. Musiqi rəhbərinin məşğələdən qabaq kuklanı uşaqlara göstərmək, mahnının adı və məzmunu haqqındakı təəssüratlarını genişləndirmək. Musiqi rəhbərinin mahnı ifası ilə, tərbiyəçinin isə mahnının sözlərinə uyğun hərəkətlərinə diqqəti artırması. Gələcək məşğələlərdə fəal uşaqlardan kukla ilə birlikdə mahnı oxumasını söyləməklə, uşaqların mahnıya aid olan sevinc və məhəbbətlərini artırmaq.

**IV. Musiqili - ritmik hərəkətlər.** «Yaxşı otur, yaxşı dur». A.Rzayeva.

***Proqramın məzmunu.*** Bu mahnı-oyunun musiqisi, məzmunu və onun keçirilmə qaydaları ilə tanış olmaq. Onun musiqi xarakterini aydınlaşdırmaq. Mahnını musiqi rəhbəri oxuyur, tərbiyəçi uşaqları dairəyə yığır. Mahnının sözlərinə uyğun hərəkətləri tərbiyəçi aydınlaşdırır. Hərəkətləri tələsmədən yavaş-yavaş icra etmək lazımdır.

***Usul.*** Musiqi rəhbərinin aydın ifası və tərbiyəçinin köməyi ilə mahnı-oyunu daha şən keçirmək. Uşaqlarda hərəkətlərin ifası zamanı xoş təəssürat və təbəssüm yaratmaq.

***V.Son yeriş,*** məşğələnin yekunu, musiqi rəhbərinin tərbiyəçiyə uşaqlarla mahnının sözlərinin və mahnı-oyunun hərəkətlərinin öyrədilməsi haqqında fərdi tapşırıqları.

Məşğələni keçirən hər bir musiqi rəhbəri onun daha maraqlı keçməsindən ötrü məşğələyə əlavələr edə bilər. Yaşından asılı olmayaraq bütün qruplarda məşğələlər eyni formada aparılır, lakin, bu məşğələlərin plan sistemi fərqlidir. Bu da uşaqların yaş xüsusiyyətləri ilə bağlıdır. Kiçik qruplarda məşğələnin keçirilmə vaxtı qısa, orta qruplarda nisbətən uzun olur.

Orta qruplarda musiqi məşğələsi həm ritmik musiqi, həm də yüngül ritmli yerişlərlə başlanır. İlk aylarda bu yerişlər zəif olsa da, 8-10 məşğələdən sonra fərqini göstərir. Uşaqlar tərbiyəçinin göstərişinə sərbəst əməl edə, xırda musiqi elementlərini yerinə yetirə bilirlər.

Kiçik qruplardan fərqli olaraq, orta qruplarda musiqi məşğələləri daha məzmunlu keçir və uşaqların musiqi diqqətlərinin inkişaf etməsinə, bilik və bacarıqlarına, davranış qaydalarına təsirini göstərir. Orta qrupda musiqi dinlənilməsi daha şəffaf və ürəyəyatımlıdır. Bu yaş dövründə uşaqların musiqi diqqəti geniş, musiqi həvəsi bir az da artımlı olur. Uşaqlar dinlədikləri musiqi əsərlərinin xarakterini daha tez qavrayır, hər bir musiqinin məzmununu tez başa düşürlər. Bunlar musiqi rəhbərinin apardığı məşğələ formasından, onun metodikasından asılıdır. Orta qrupda xarakter etibarilə fərqli olan (marş, rəqs, mahnı, layla) musiqi əsərlərini tez-tez səsləndirməklə uşaqların musiqi duyumu artır, onlarda şən-əhval ruhiyyə yaranır. Orta qrupda dinləmə ilə mahnı arasında musiqi savadını artırmaq kimi qısa bir musiqi ritmi vermək, həqiqətən uşaqların musiqi qabiliyyətlərini artırır. Bu hissədə uşaqlar uzun-qısa, hündür-alçaq, incə-qalın, hündür-orta-sakit, sakit-uca səs terminlərinin fərqini aydınlaşdıraraq ifa edirlər. Bu məqsədlə həm də qısa musiqi cümlələri ifa etdirmək lazımdır.

Orta qruplarda mahnı oxunuşu nisbətən asanlaşır, çünki bu yaş dövründə mahnı oxumaq qabiliyyəti inkişaf edir, səs möhkəmlənir, nəfəs almaq qabiliyyəti yüngülləşir. Orta qrupda uşaqların səs diapazonu nisbətən uzun olduğu üçün oxunan mahnıların mövzusu, məzmunu da uzanır. Mahnı oxunuşunda, mahnının musiqi və məzmunu ilə tanışlıq, musiqi xarakterini aydınlaşdırmaq, mahnının adına, onun məzmununa aid şəkil və illüstrasiyaların göstərilməsi, müxtəlif metodik priyomlardan istifadə etmək, uşaqların mahnı oxunuşuna diqqəti artıracaq, musiqi yaddaşlarını genişləndirəcəkdir.

Orta qruplarda da mahnı oxunuşundan sonra, musiqili –ritmik hərəkətlər bölməsində uşaqlar nisbətən cəld və çevik olurlar. Musiqi rəhbərinin uşaqlarla apardığı məşğələlərdə ritmik musiqiyə, musiqili oyunlara, mahnı-oyunlara, ümumi xalq rəqslərinə həvəsləri artır, öz milli musiqimizi daha çox sevirlər. Musiqili oyunlar zamanı musiqi rəhbəri oyunun qaydalarını, rəqsin hərəkət formalarını aydınlaşdırır, musiqini ifa edir. Musiqili ritmik hərəkətlərin əsas məzmunu, hərəkətləri, musiqinin ritminə uyğun ifası, ritmik oyunların, mahnı-oyunların məzmunu qaydaları ritmin ahənginə, mahnının sözlərinə uyğun olmalıdır.

**«Marş» Ü.Hacıbəyov, «Kim qaçmaq istəyir» (L.Vişkarev).**

***Proqramın məzmunu.*** Ritmik musiqi sədaları altında musiqi zalına daxil olmaq, bir-birinin ardınca addımlamaq. Addımlayarkən ayaqların və qolların musiqi ritminə uyğun hərəkətinə diqqət yetirmək. Musiqi dəyişməsini musiqi rəhbərinin işarəsi ilə başa düşərək yerişin formasını dəyişmək, pəncə üzərində yerişə keçmək. Zalı dövrə vurub dairə qurmaq, dairədə yerində qaçış, yerində fırlanmaq və oturub-durmaq hərəkətlərini öyrətmək.

***Üsul.*** Musiqi rəhbərinin aydın ifası zamanı, tərbiyəçinin köməyi ilə bu hərəkətləri icra etmək. Tərbiyəçinin fərdi göstərişləri və izahatı uşaqların musiqiyə diqqətini artırır.

**II. Dinləmə:** «İnnabı» Azərbaycan xalq rəqsi.

***Proqramın məzmunu.*** Rəqsin musiqisi ilə tanış olmaq, onun musiqi məzmununu aydınlaşdırmaq, musiqi xarakterini başa salmaq. Rəqsin adını söyləyib onu iki dəfə ifa etmək.

***Üsul.*** Musiqi rəhbərinin aydın ifası, sözlə izahı. Rəqsin Azərbaycan xalq rəqsi olduğunu deyib, onun mülayim xarakterli musiqi olduğunu başa salmaq. Rəqsin ifa tərzinə aid illüstrasiyalar göstərmək, uşaqlarla sorğu aparmaq.

Musiqi savadının artırılması üçün uşaqlara «hündür-orta-alçaq» səslər terminini başa salmaq, onları səslə ifa etmək. Əvvəlcə musiqi rəhbəri fortopianda bu səsləri ifa edir, sonra uşaqlar bu səsləri «ma-me-mo» frazası səs tembri ilə ifa edirlər. Bu həm də mahnının oxunmasına hazırlıqdır.

**III. Mahnı: «Bizim həyət» (F.Əmirov).**

*Proqramın məzmunu:* Mahnının musiqisi və məzmunu ilə tanış olmaq. Mahnının musiqi xarakterini aydınlaşdırmaq. Mahnının adını söyləyib, onu iki dəfə ifa etmək, uşaqların mahnı yaddaşlarını möhkəmləndirmək.

*Üsul.* Musiqi rəhbərinin aydın ifası, sözlə izahı. Mahnının bənd və nəqəratının ayrılığını fərqləndirməyi başa salmaq, mahnı hissələrini ayrı-ayrı oxumaq. Mahnının adına uyğun şəkillər göstərmək. Uşaqların arzusu ilə öyrəndikləri mahnılardan birini təkrar oxumaq. Təkrar mahnıya aid sorğular keçirmək.

**IV.Musiqili - ritmik hərəkətlər. «Dovşanlar» S.Rüstəmov, «mahnı-oyun».**

*Proqramın məzmunu.* Bu mahnı - oyunun musiqisini dinləmək, onun məzmununu aydınlaşdırmaq, musiqi xarakterini başa salmaq. Oyunun qaydalarını söyləmək.

**Üsul.** Musiqi rəhbərinin aydın ifası və sözlə izahı. Tərbiyəçinin köməyi ilə uşaqlar dovşan kimi iki ayağı üzərində hoppana-hoppana bir-birinin ardınca gedib zalın ortasında dairə vururlar. Mahnını oxuyarkən onun sözlərinə uyğun hərəkətlər edirlər. Tərbiyəçinin köməyi əsas vasitə sayılır.

**V.Son yeriş və məşğələnin yekunu.** Musiqi rəhbərinin tərbiyəçiyə fərdi tapşırıqları, uşaqların mahnının məzmununu öyrənmələri üçün vəsaitlərin təşkil olunması.

Məşğələnin sonunda uşaqlar musiqi rəhbəri ilə sağollaşırlar.

## UŞAĞIN MƏKTƏBƏ HAZIRLANMASI ÜMUMPEDAQOJİ PROBLEM KİMİ

**Ayşə MƏMMƏDOVA,**
ADPU-nun müəllimi

Məktəbəqədər dövrdə uşaqların tərbiyəsi və təlimi sahəsində yol verilən kiçik xətalar sonralar çox ciddi, qarşısı alınmaz nöqsanlar kimi özünü büruzə verir. Ona görə də həmin dövrdə heç bir şeyi nəzərdən qaçırmadan fəaliyyət göstərmək, uşaqları müstəqil fəaliyyətə hazırlmaq lazımdır.

Məktəbəqədər tərbiyə müəssisələri təhsil sisteminin ilk pilləsi olmaqla uşaqların tərbiyəsi və təlimi vəzifəsini yerinə yetirir. Bu müəssisələrin son məqsədi uşaqları məktəb təliminə hazırlamaqdır. Uşağın sonralar təhsilinin nə dərəcədə müvəffəqiyyətlə gedəcəyi məhz bu başlanğıcdan asılıdır.

Uzun illərdən bəri uşaqların məktəb təliminə hazırlanmalarının öyrənilməsi göstərir ki, məktəbə hazırlıqlı gələnlərin sayı ildən-ilə artır. Son dövrdə belə uşaqların sayı 22 faizə çatır. Məktəbə hazır gələn uşaqların tərkibi öyrənildikdə məlum olur ki, onların 60 faizə qədəri uşaq bağçalarının hesabınadır. Təcrübə göstərir ki, I sinfə gələnlərin səviyyəsinin müxtəlif olması müəllimin işini xeyli çətinləşdirir, ümumi işi ləngidir. Hazırlıqsız uşaqlarla iş çox vaxt aparır, bu zaman digər uşaqlar dərsdə baxımsız qalırlar.

Uşağın məktəbə hazırlanması özündə iki vəzifəni birləşdirir: uşağın hərtərəfli (fiziki, əqli, mənəvi, estetik) hazırlığı və məktəbdə öyrənəcəyi konkret fənlərin mənimsənilməsinə xüsusi hazırlıq.

Uşağın məkəbə hazırlanması bu gün iki baxımdan xüsusi əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, I sinifdə uşaqların böyük bir qisminin müvəffəqiyyətlə təhsil ala

bilməməsi, sonrakı siniflərdə geridə qalmaları, onların məktəbəqədər dövrü baxımsız keçirmələri, təlimə hazırlıq üzrə ilkin vərdişlərə yiyələnməmələri ilə bağlıdır.

Yaxın keçmişdən fərqli olaraq hazırkı dövrdə I sinfə qəbul 6 yaşdan başlandığından məktəbə hazırlıq yaşı bir il aşağı salınmış, 5 yaşdan olmuşdur. Beşyaşlıların məktəbə hazırlanması artıq hazırlığın məzmunu, formaları, metod və priyomlarında böyük dəyişikliklərin aparılmasını tələb edir. Hazırda beşyaşlıların məktəb təliminə hazırlanmalarında bir sıra çətinliklər qarşıya çıxır. Ən böyük çətinlik bu sahədə düşünülmüş iş sisteminin olmaması ilə bağlıdır. 5 yaşdan təlimə hazırlığın məzmunu işlənməmiş, hər bir fənn üzrə uşaqların bilməli və bacarmalı olduqları şeylərin həcmi və sərhədi müəyyənləşdirilməmiş, tərbiyəçilər və valideynlər üçün metodik göstərişlər, əyani vəsait, didaktik material və s. Hazırlanmamış, məşğələlərin sayı, müddəti, xarakteri (ciddi, oyun və əyləncə şəklində; otaq şəraitində, açıq havada, təbiətin qoynunda və s.), metod və priyomları müəyyən edilməmişdir.

Çətinliklərdən biri, həm də əvvəlkilərdən heç də geri qalmayan beşyaşlıların içtimai tərbiyə tərəfindən əhatə olunmamasıdır. 140.000-dən artıq beşyaşlının yalnız 15-16 faizi uşaq bağçalarına cəlb edilib. Həmin uşaqların bağçaya müntəzəm davam etməmələri, edənlərin isə yalnız 5-6 faizinin proqram tələblərinə müvafiq hazırlıq keçdiklərini nəzərə alsaq, vəziyyətin mənzərəsi aydın olar. Deməli, beşyaşlıların ən yaxşı halda 84-85 faizi içtimai tərbiyə müəssələrindən kənarda qalır. Onların məktəbə hazırlanmaları valideynlərin ixtiyarına buraxılır. Doğrudur, valideynlərin 15-20 faizi övladlarının məktəbə hazırlanmasına erkən yaşlardan başlayır. Onlar məktəbə gedənədək az-çox qənaətbəxş iş görür.

Pedaqoji maarifə cəlb edilməmiş, pedaqoji-psixoloji biliklərdən xəbəri olmayan valideynlərin öhdəsinə buraxılmış bu uşaqlar, şübhəsiz, məktəbə lazımınca hazır gələ bilməzlər. Ailələrdə, həmçinin bəzi uşaq bağçalarında ara-sıra, təsadüfən təlimə hazırlıq xarakterli məşğələlərə cəlb edilən uşaqlar, demək olar ki, bütün parametrlər üzrə hazırlığın tələblərinə cavab verə bilmirlər.

Beşyaşlıların məktəb təliminə hazırlanmaları xüsusi qayğı və məsuliyyət tələb edir. Yaxın keçmişədək yeddiyaşlıların, daha sonralar altıyaşlıların məktəbə hazırlanmaları ilə əlaqədar aparılmış axtarışlar bu gün beşyaşlılarla iş prosesinə eynilə köçürülə bilməz.

Uşağın məktəbə hazırlanması uzun illər Azərbaycanda kortəbii şəkildə getmişdir. 30-cu illərdə azsaylı xalqların uşaqları üçün məktəbə hazırlıq sinifləri yaradılmışsa da, sonralar həmin siniflər fasilələrlə fəaliyyət göstərmişdir. Nəhayət, 1973-cü ildən bu sahədə sistemli işə başlanmışdır. Altıyaşların məktəb, ailə ilə yanaşı bağçada da məktəbə hazırlanması imkanları öyrənilmişdir. 1977-ci ildən yalnız azsaylı xalqların uşaqlarının deyil, azərbaycanlıların da məktəbə hazırlanması məsələsi diqqət mərkəzinə qoyulur. Bütün məktəblərdə hazırlıq qrupları açılır. Uşaq bağçalarında həmin istiqamətdə sistemli işə başlanır.

Uşağın məktəbə hazırlanması bu işlə məşğul olanlar (uşağın valideyinləri, ailənin digər üzvləri, qohumları, tərbiyəçilər, müəllimlər) tərəfindən müxtəlif cür başa düşülür. Bəziləri bunu çox yüngül, sadə, bəziləri isə ağır, mürəkkəb iş hesab edir; bəziləri yalnız uşağın sağlamlığı və normal inkişafı ilə, bəziləri onlara dərs ləvazimatının alınması ilə məhdudlaşırır; Oxumağı, yazmağı və hesablamağı öyrənməyi məsləhət görənlər də var. Bütün bu hallar bir tərəfdən valideynlərin pedaqoji maarifə yiyələnmələrinin, digər tərəfdən pedaqoji tələblərin lazımınca qiymətləndirilməməsinin nəticəsidir.

Uşağın məktəbə hazırlanması ümumpedaqoji problemdir. Bununla biz, problemin əhəmiyyətini iki cəhətdən qiymətləndiririk:

a) Uşağın məktəbə hazırlanmasında bağçada ümumi tərbiyə işinin təşkili mühüm əhəmiyyətə malikdir. Bu dövrdə aparılan ümumi tərbiyə işi uşağın fiziki, əqli, əxlaq və estetik inkişafına istiqamətlənir. Bunlar uşağın məktəbdə müvəffəqiyyətlə təlim alması üçün zəruri olan fiziki, intellektual, mənəvi-iradi keyfiyyətlərə yiyələnməsini təmin edir.

Uşağın məktəbə hazırlanması anlayışına ilk növbədə onun fiziki hazırlığı, sağlamlığı (fiziki tərbiyə), kollektiv fəaliyyətə hazır olması, kollektivin üzvləri ilə münasibətlərə hazır olması, uşağın dünyagörüşünün, ictimai təsəvvürlərinin formalaşması, əməksevərlik, çalışqanlıq, səbirlilik, dözümlülük, mütəşəkkillik, intizamlılıq, məsuliyyətlilik, inadkarlıq və s. iradi keyfiyyətlərə yiyələnməsi (mənəvi tərbiyə, sosial-iradi hazırlıq), ətraf aləmlə (təbiət və cəmiyyətlə) tanışlığı, nitqinin inkişaf etməsi, oxumağa və yazmağa hazırlanması (əqli tərbiyə), nəhayət, uşağın təlimə psixoloji hazırlığı daxildir.

b) Uşağın ümumi tərbiyəsi işinin təşkili, onun ümumpsixoloji hazırlığına yönəldilmiş işlər heç də I sinifdə keçiləcək ayrı-ayrı təlim fənlərinə hazırlığı istisna etmir. Uşaq bağçasının məktəbəhazırlıq qrupunda həftədə 18 məşğələ - o cümlədən, savad təliminə hazırlıq, sadə riyazi təsəvvürlər, ətraf aləmlə tanışlıq, təsviri incəsənət, musiqi və s. məşğələləri təşkil olunur. Bu, həmin sahələr üzrə proqram materialının intensiv mənimsənilməsini təmin edir.

Uşaq məktəbə hazırlanarkən sonralar bütün təlim illərində lazım olacaq aşağıdakı ümumpedaqoji keyfiyyətlərə yiyələnməlidir: həyatın yeni dövrü üçün iş yükünü daşımaq, təlim əməyi əməliyyatlarını yerinə yetirmək, sual vermək, suala müstəqil cavab vermək, dinləmək, anlamaq; müşahidəçilik, müqayisə etmək, tutuşdurmaq, mücərrədləşdirmək, ümumiləşdirmək, əqli nətcə çıxarmaq və s.

Bilikləri öyrənməyə maraq göstərməyən, uşağın dərsdə fəal işləyəcəyinə, öz qüvvəsini, iradəsini səfərbər edə biləcəyinə, biliklərə yiyələnəçəyinə ümid bəsləmək olmaz. Unutmaq olmaz ki, bunlar uşağın əqli tərbiyəsinin vəzifələri ilə (inadkarlıq, səliqəlilik, cəhd göstərmək, məsuliyyətlilik, yaşıdlarına münasibətdə xeyirxahlıq və s.) sıx əlaqədə həll olunmalıdır.

Bunları nəzərə almadan uşağı pasport yaşına əsasən məktəbə qəbul etmək onu kortəbii axının içərisinə buraxmaq deməkdir. Ümumpedaqoji hazırlığın təmin olunması üçün, hər şeydən əvvəl, onu diqqətlə öyrənmək lazımdır. Erkən yaşda körpələr evində tərbiyə alan, sonrakı fəaliyyətini uşaq bağçasında keçirən uşaqların öyrənilməsi asandır. Belə halda tərbiyəçi bir-iki yaşlarında uşaqların fəaliyyətini izləyir, iki yaşı tamam olduqdan sonra bağçanın kiçik qrupundan başlayaraq üç il onunla müntəzəm məşğul olur. Uşaq birdən-birə hazırlıq qrupuna daxil olduqda onu daha diqqətlə öyrənmək lazım gəlir.

Uşaqların məktəbə 6 yaşdan qəbul olunmaları uzun müddət etirazlara səbəb olmuşdur. Vaxtilə məktəbə hazırlıq 6 yaşdan başlandığı halda, indi 5 yaşdan başlanması da bu mübahisələrdən kənarda qalmamışdır.

Uşağın məktəbə hazırlanması problemi tarixən pedaqoq və metodistlərin diqqətini az-çox cəlb etmişdir. Bu sahədə ən ciddi axtarışlar prof. Y.Ş.Kərimovun adı ilə bağlıdır. O, 70-ci illərin əvvəllərindən etibarən uşağın məktəbə hazırlanmasının müxtəlif parametrləri üzrə axtarışlara başlamışdır. Sonralar onun və prof. N.Kazımovun və Y.Ş.Kərimovun başçılığı ilə V.Xəlilov, M.Həsənov, Ə.Şükürov,

Z.Osmanov, H.Cəfərli, H.Ələkbərov, B.Quliyev, A.Rəhimov, S.Məmmədov, O.Abbasov və başqaları bu sahədə tədqiqat aparmışlar. Mətbuatda praktik işçilərin, tərbiyəçilərin məqalələri də dərc olunmuşdur.

Tədqiq etdiyimiz problem psixoloqların da nəzər-diqqətindən kənarda qalmamışdır. Prof. Ə.Qədirov, prof. R.Əliyev, M.Həmzəyev, L.Bağırova bu sahədə fərqlənmişlər. Bu tədqiqatlar bilavasitə bizim tədqiq etdiyimiz problemlə bağlı olmasa da, onun həllinə istiqamət verir.

Respublikamızda beşyaşlıların məktəbə hazırlanmasına həsr olunmuş tədqiqatın, xüsusilə savad təliminə hazırlıq üzrə tədqiqatın aparılmaması, bu sahədə metodik ədəbiyyatın olmaması problemin həllinə marağımızı gücləndirdi. Qarşıya belə bir sual çıxa bilər: nə üçün uşaqların məktəbə hazırlanması deyil, beşyaşlıların məktəbə hazırlanması diqqəti cəlb edib? Doğrudur, tədqiqatı həmin şəkildə də formalaşdırmaq olardı, lakin bu, çox böyük bir dövrü-uşağın beşillik fəaliyyətini əhatə edir. Bu zaman uşağın qığıldamağa başladığı, rəngləri yenicə fərqləndirdiyi dövrdən beş yaşadək olan dövrdə ətraf aləmlə tanışlığı, onda müşahidəçilik qabiliyyətinin, dinləmək və eşitmək, baxmaq və görmək bacarığının inkişafı, nitq səslərini necə tələffüz etməsi, ümumiyyətlə, nitqin səs mədəniyyətinə necə yiyələnməsi, lüğət ehtiyatının necə zənginləşməsi və s. saymağı, sadə hesablama əməliyyatını, rəsm çəkməyi, mahnı oxumağı öyrənməsi əhatə edilməli idi. Bu isə bir məqalənin imkanı xaricindədir. Ona görə də tədqiqatımızı məktəbə hazırlıq yaşı ilə məhdudlaşdırmalı olduq. Şübhəsiz, bu zaman əvvəlki illərdə həmin istiqamətdə görülmüş işlərə ötəri nəzər salmaq zərurəti qarşısında qaldıq.

Tədqiqat üçün məktəbəqədər yaşın həmin mərhələsi bir də ona görə götürüb ki, beşyaşlılar məktəbə, təlimə, oxumağa, öyrənməyə daha böyük təkidlə həvəs göstərdiklərindən onlarda problem baxımından daha rəngarəng və ciddi nöqsanlar özünü büruzə verir. Bağçanın kiçik və orta qruplarında uşaqların məktəbə hazırlanması üzrə işin səviyyəsini dəqiq müəyyənləşdirmək, sərhəd qoymaq mümkün olmur. Tərbiyəçi və tədqiqatçılar bu və ya digər nöqsanın keçici olduğunu və tezliklə düzələcəyini zənn edirlər. Belə güman çox vaxt aldadıcı olur. Məktəbə hazırlıq qrupunda isə artıq uşağın beşillik həyatının «qızıl dövr»ünün nəticələri özünü göstərir. Bu dövrdə məktəbə hazırlıq üzrə işin formalaşması prosesi sürətlə gedir. Hər şey, demək olar ki, artıq göz qabağında olur.

Bu dövrdə tərbiyəçilərin fəaliyyətində də rəngarəng nöqsanlar özünü göstərir. Belə ki, bəzi tərbiyəçilər hər şeyi, hətta yazıb oxumağı öyrətməyə, bəziləri heç bir şey öyrətmədən hər şeyi məktəbin üzərinə atmağa, bəziləri uşaqların nitqini inkişaf etdirməyə, bəziləri yalnız psixoloji cəhətdən hazırlamağa, bəziləri oyun elementlərindən lazımınca istifadə etməyə, bəziləri I sinfin metod və priyomlarını eynilə uşaq bağçasına köçürməyə çalışırlar.

Belə bir sual da qarşıya çıxa bilər. Nə üçün beşyaşlıların bu və ya digər aspektdə – məsələn, savad təliminə hazırlanması, yaxud tibbi, psixoloji cəhətdən məktəbə hazırlanması nitq inkişafı baxımından hazırlanması deyil, bütövlükdə, hərtərəfli hazırlanması götürülüb. Buna səbəb «məktəbə hazırlıq» anlayışının kompleks şəkildə həllinin vacibliyidir. Uşağın fiziki, yaxud psixoloji cəhətdən məktəbə

hazırlığı olmadan yalnız savad təliminə hazırlığına görə (və ya əksinə) onun məktəbə hazırlığından söhbət gedə bilməz.

Hazırda çox zəruri hesab edilən, ümumiyyətlə, beşyaşlıların məktəb təliminə hazırlanmasının xüsusiyyətləri öyrənildikdən sonra gələcəkdə ola bilər ki, problemin ayrı-ayrı sahələri üzrə daha konkret, daha dəqiq tədqiqat aparılsın.

**Ədəbiyyat**

1.Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı, «Nağıl evi», 2000.
2.Altı yaşlı uşaqların məktəbə hazırlanması / N.M. Kazımov, Y.Ş. Kərimovun redaktəsi ilə. Bakı: «Maarif», 1980.
3.Bağırlı L.Ş. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri. Bakı: «Nərgiz», 2003.
4. Bağırlı L.Ş. Məktəbə hazırlığın psixodiaqnostikası. Bakı: «Nərgiz», 2003.
5. Bağırlı L.Ş. Məktəbəqədər yaşlı uşaqların mənəvi keyfiyyətlərinin formalaşmasının psixoloji xüsusiyyətləri. Psixol. elm. nam. dis. Bakı, 2004.
6. Bayramov Ə.S. Şəxsiyyətin tərbiyəsinə diqqəti artırmalı. «Azərbaycan məktəbi», 1988, № 8, s. 9-13.
7.Səlimxanova X.İ. Altıyaşlıların məktəbə hazırlanmasında uşaq bağçası ilə ailənin əlbir işi. «İbtidai məktəb və məktəbəqədər tərbiyə», 1987, № 3, s. 35-39.

**А. Мамедова**

**Подготовка ребенка к школе как общепедагогическая проблема**

**Резюме**

В статье речь идет о подготовке детей к школе в семье и дошкольных учреждениях. Подготовка ребенка к школе рассматривается в качестве общепедагогической проблемы. В подготовке ребенка к школе важное значение имеет правильная организация общей воспитательной работы. Проводимая в этот период воспитательная работа предусматривает физической, умственной и эстетическое развитие. Все это способствует привитию физических, интеллектуальных, духовно-волевых качеств, необходимых для успешного обучения в школе.

## DAVRANIŞ MƏDƏNİYYƏTİNİN BÜNÖVRƏSİ AİLƏDƏ QOYULUR

**Natəvan ƏSƏDOVA,**
Azərbaycan İncəsənət Gimnaziyasının müəllimi

Hər bir cəmiyyətin inkişafı və formalaşmasının əsasında ailə dayanırsa, ailənin təkamül prosesinə söykənən dinamik inkişafı, əxlaqi-mənəvi cəhətdən formalaşmasının əsasında düzgün tərbiyə dayanır. İctimai şüurun bir forması olan tərbiyə isə fəaliyyət prosesində davranışla bağlı olan mənəvi keyfiyyətlərin tənzimlənməsində özünü büruzə verir.

Ailə ənənələri əsasında inkişaf edən və tədricən təkmilləşən mənəvi normalar yalnız ailə üzvlərinin normal davranışı nəticəsində formalaşır. Tərbiyə amili ailənin təkmilləşməsində ən zəruri şərtlərdən biridir.

Tərbiyə şüurlu insan cəmiyyəti yarandığı gündən mövcud olmuşdur. Prof. Əliheydər Həşimov yazır ki, tərbiyənin tarixi insan cəmiyyətinin tarixi qədər qədimdir. İnsan cəmiyyətinin inkişafı tarixində elə bir dövr olmamışdır ki, orada yaşlı nəslin nümayəndələri gənc nəslin tərbiyəsi qayğısına qalmamış olsun, lakin müxtəlif inkişaf mərhələlərində tərbiyənin mahiyyəti, xarakteri və uşaqlara aşılanması yolları eyni səviyyədə olmamışdır. Ən qədim zamanlarda tərbiyə işi sadə tərbiyə məsələləri üzrə bilik, bacarıq və baxışlar məhdud olmuşdur. Zaman keçdikcə insanların biliyi və həyat təcrübəsi artmış, dünyagörüşü genişlənmiş, tərbiyə sahəsindəki biliklər zənginləşirdi. Onu sələflərdən xələflərə vermək işi xüsusi ustalıq, qayda-qanun, adət və ənənə tələb etmişdir. Bu yolla xalq pedaqogikası yaranmışdır.

Tərbiyə nəzəriyyəsinin banisi isə fikrimizcə, Azərbaycan xalqının XIII əsrdə yaşamış böyük mütəfəkkiri Nəsirəddin Tusidir. Nəsirəddin Tusi özünün «Əxlaqi Nasiri» əsərində tərbiyənin bütöv bir sistemini yaratmışdır. Tusi yazır ki, uşaq süddən ayrıldıqdan sonra hələ əxlaqi korlanmağa vaxt tapmamış onu tərbiyə etməyə, nizam - intizama öyrətməyə başlamaq lazımdır. Uşaq, təbiətdə olan fitri nöqsanlara görə, pis adətlərə meyil edə biləcəyindən vaxtından əvvəl onun qarşısını almaq, təbiətini nəzərdə tutmaqla əxlaqını saflaşdırmaq gərəkdir.

Məlum olduğu kimi, məktəbəqədər yaşlı uşaqlarla aparılan tərbiyə işlərinin bünövrəsi ailədən başlanır. Azərbaycan Respublikasının Konstitusiyası uşaqların milli ruhda tərbiyə edilməsindən ötrü ailənin qarşısında mühüm vəzifələr qoyur. Bu vəzifələrin müvəffəqiyyətlə həllindən ötrü mövcud proqram və direktiv sənədlərdə, müvafiq istiqamətlər də göstərilmişdir. Bu sənədlər içərisində ölkəmizdə gedən təhsil islahatı ilə bağlı qərarlar, sərəncamlar tövsiyə və məsləhətlər xüsusi yer tutur. Həmin sənədlərdə ailədə uşaqların fiziki cəhətdən sağlam, mənəvi cəhətdən nümunəvi olmaları üçün hər cür qayğı ilə əhatə olunmaları və onlara pedaqoji cəhətdən düzgün yanaşılması zəruri hesab edilmişdir.

İslam dəyərlərində, şifahi xalq yaradıcılığı materiallarında ailədə uşaqların tərbiyəsinə dair çox faydalı kəlamlar var. Bu baxımdan etnopedaqoji materiallar içərisində laylaları, nazlamaları, öyüdləri, nəsihətləri, xüsusi qeyd etmək lazımdır.

Laylay beşiyim laylay,
Evim eşiyim laylay.
Sən get şirin yuxuya,
Çəkim keşiyin laylay.

Bunu deyən nənələrimiz uşaqların böyümələri və tərbiyə almaları üçün daim sayıq olduqlarını göstərmişlər. Yaxud «Ailə xoşbəxtliyin açarıdır», «Uşaq evin yaraşığıdır», «Dörd göz bir övlad üçündür», «Ata evi tərbiyə ocağıdır», «Evdə qonaq olanda uşağa acıqlanmazlar», «Övladım əziz, tərbiyəsi ondan da əzizdir» kimi atalar sözlərində uşaqların ailədə tərbiyəsi üçün ən mühüm pedaqoji örnək xarakteri daşıyır.

Ailədə uşaqların tərbiyəsi dedikdə, onlara adqoyma mərasimindən başlayaraq fiziki cəhətdən sağlam böyümələri, mənəvi cəhətdən nümunəvi olmaları, vətənə məhəbbət ruhunda böyümələri, hər cür bədii zövqə malik olmaları, milli adət-ənənələri bilmələri, öz ölkəsinin təbiətini öyrənmələri şifahi xalq yaradıcılığı nümunələri ilə tanış olmaları, onları mütəəssir edən oyunlar oynamağı bacarmaları üçün planlı və mütəşəkkil yanaşılması nəzərdə tutulur. Bu zaman uşaqlar ən zəruri

biliklər əldə edir, ən vacib bacarıq və vərdişlər qazınırlar ki, bu da onların gələcək həyata hazırlanmalarında böyük əhəmiyyət kəsb edir.

Müstəqillik qazandığımız hazırki şəraitdə ailədə uşaqların yuxarıda qeyd etdiyimiz keyfiyyətlərə malik olmaları ilə yanaşı, onların milli koloritə uyğun böyüməələri də məqsədəmüvafiq sayılır. Zaman-zaman Azərbaycan ailələrində valideynlər bir çox hallarda uşaqlarını mövhumatın, dini xurafatın tələblərinə uyğun böyütmüş, onları öz fanatik düşüncələrinə istinad edərək tərbiyələndirməyə çalışmışlar.

Bəs bu gün müstəqil respublikamızın ailələrində uşaqların tərbiyəsi hansı zəmin üzərində qurulur?

Müşahidələr göstərir ki, bir qisim valideynlər hələ də uşaqların adlarının seçilməsində Azərbaycançılığı, Türkçülüyü, milli əxlaqi və mənəvi normaları özündə əks etdirməyən təsadüfi adlara üstünlük verirlər. Nəticədə bu gün də ailələrdə Məstan, Qaya, Qambay, Sentyabr, Oktaybr, Yanvar, Aprel, Valodiya, Edison, Minaş, Vəkil, Sevgili, Məşuqə, Marlen, Maksim, Şəmi, Məmi və s. kimi adlara rast gəlmək olur. Unutmaq olmaz ki, Dədə Qorqud dastanında göstərildiyi kimi xalqımız həmişə uşaqlara onların mənəvi keyfiyyətlərinə uyğun adların seçilməsinə üstünlük vermişlər. Uşaqlara münasib olmayan adların verilməsi onların normal fəaliyyəti üçün əngələ çevrilir.

Təcrübə göstərir ki, məktəbəqədər yaşlı uşaqların ailədə tərbiyəsi öz məzmununa, mahiyyətinə, xarakterik cəhətinə, milli xüsusiyyətlərinə və xüsusi psixoloji xarakteristikasına görə bir-birindən ciddi sürətdə fərqlənir. Qeyd etmək vacibdir ki, şəhər ailələrində tərbiyə işinin təşkili kənd ailələrində qurulan tərbiyə işindən köklü sürətdə fərqlənir.

Elmi-pedaqogikanın tələblərinə görə valideynlər ayrı-ayrı yaş dövrlərində uşaqlara yaşlarına uyğun vərdişlər aşılamalı, onları yaş dövrlərinə müvafiq oyuncaqlarla, təsviri incəsənət ləvazimatları ilə, müvafiq musiqi alətləri ilə təmin etməlidirlər. Şəhər ailələrində valideynlər bunu qismən nəzərə alsalar da, rayonlarda, xüsusilə kəndlərdə bu işə valideynlərin münasibəti heç də qaneedici deyil.

Deməli, insanın tərbiyəsi davranış prosesində yaranan mənəvi keyfiyyətlərdən yoğrulur. Bu mənəvi keyfiyyətlər məktəbəqədər yaş dövründən başlayaraq uşağın gündəlik həyat normasına çevrilir.

Təcrübə və müşahidələrə istinadən deməliyik ki, uşaqlar bütün mənəvi keyfiyyətləri, o cümlədən düz danışmağı, doğruçuluğu, əlitəmizliyi, paklığı, halallığı, humanistliyi, əməksevərliyi, nikbinliyi, səmimiliyi, xoşrəftarlılığı, əliaçıqlılığı və bunların əksi olan keyfiyyətləri, əxlaqa zidd normaları o, cümlədən yalançılığı, adam aldatmağı, oğurluğu, riyakarlığı, harama meyl etməyi, tənbəlliyi, bədbinliyi, satqınlığı, bədrəftarlılığı, xəsisliyi valideynlərindən öyrənirlər. Bu keyfiyyətləri qızlar, əsasən, anasından, oğlanlar isə atasından əxz edirlər. Bəzi hallarda uşaqlar ata himayəsindən kənarda qaldıqları üçün analarını daha çox təlqin edirlər. Bu isə çox hallarda atanın olmaması, yaxud ananın mövsümi işlərdə çalışması, növbəli ağır işlərdə işləməsi, iş dalınca ölkədən kənara gedərək uzun müddət ailədən uzaqlaşması, həbsxanaya düşməsi və s. bu kimi səbəblər ücbatından yaranır. Ona görə də çalışmaq lazımdır ki, uşaqların gələcək həyatının stimullaşmasına xidmət edən ən yüksək mənəvi keyfiyyətlərin formalaşması üçün onlara aşağıdakı istiqamətlər üzrə mənəvi keyfiyyətlər aşılansın:

1. Məktəbəqədər yaş dövründən başlayaraq valideynlər uşaqlara örnək xarakterli mənəvi keyfiyyətlərin planlı və mütəşəkkil şəkildə aşılanmasını təmin etməlidirlər.

2. Valideynlər uşaqlara mütəmadi şəkildə nümunəvi davanışla, əxlaqi normalarla, milli-mənəvi dəyərlərimizlə səsləşən etnopedaqoji nümunələrin öyrədilməsini mümkün qədər ardıcıllıqla həyata keçirməlidirlər. Demoqrafiq prinsiplərə uyğun olaraq bu nümunələrin nənələr, babalar və ya onları əvəz edənlər tərəfindən həyata keçirilməsi daha məqsədəuyğun olardı.

3. Uşaqlara təlqin edilən və davranışla bağlı mənəvi keyfiyyətlərin onlara incəsənət əsərləri, bədii yaradıcılıq nümunələri vasitəsilə öyrədilməsinin yolları düzgün müəyyənləşdirilməlidir.

4. Uşaqların yanında yalan danışmaq, ikiüzlülük, oğurluq, yaltaqlıq etmək onlarda yenicə yaranan mənəvi keyfiyyətlərin bünövrəsini dağıtmaq deməkdir.

**Ədəbiyyat**

1.Kazımov N.M., Həşimov Ə.Ş. Pedaqogika. B., «Maarif», 1996.
2.Sadıqov F.B. Pedaqoji düşüncələr. B., «Ünsiyyət», 1999.
3.Həşimov Ə.Ş. Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə. B., «Maarif», 1991.
4.Həşimov Ə.Ş., Sadıqov F.B. Pedaqogika (tərbiyə nəzəriyyəsinə dair mülahizələr), B., «Təbib», 1995.
5.Həşimov Ə.Ş., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası antologiyası. B., ADPU - nun nəşri, 1993.

**Асадова Н.**

**Основы культуры поведения закладывается с семье**

**Резюме**

Основы воспитательной рабты с детьми дошкольного возраста закладываются в семье. Говоря о воспитании детей в семье подразуемевается период присвоения ему имени и продолжается по мере его роста. Сембя должна воспитывать физически здорового ребенка, духовно и нравственно целостного, любящего свою Родину, знающего свою страну, свой народ, устное народное творчество.

## NATURAL ƏDƏDLƏR HAQQINDA İLKİN TƏSƏVVÜRLƏRİN FORMALAŞDIRILMASI (davamı)

### Kiçik məktəbəqədər yaş

**«Rəqəm» anlayışının formalaşdırılmasına hazırlıq.**

**Proqram vəzifələri.** Müqayisə etməyi öyrətmək.

Əşyaları müxtəlif əlamətləri üzrə; çoxlu əşyaların qarşılıqlı birmənalı uyğunluğunun müəyyənləşdirilməsi, əşya çoxluğu, üzrə: daha çox, az, bərabər; o qədər çox, o qədər az; müxtəlif üsullarla çoxluqların bərabərliyini öyrətmək.

Natural sıra ədədlərinin quruluşunu, natural ədədlər çoxluğunun sonsuz olması, «ədəd» və «rəqəm» anlayışlarında «sıra» və «miqdar» saylarının əsaslandırılması (10 dairəsində).

Aşağıda göstərilən məşğələ nümunələrinə proqram vəzifələri üzərində iş, paylama materialı kimi sadə didaktik dəstdən istifadə, dairələr, üçbucuqlar və s. daxildir. Applikasiya və şəkilləri hazırlamaq məqsədilə praktik işlər üçün plastik çərçivə – şablon yarayır. Onun üzərində kəsilmiş həndəsi fiqurlar olur. Çərçivə çox asanlıqla plastikdən və ya kartondan hazırlanır.

**Məşğələ.**

«Çoxluqların kəmiyyət əlamətlərinə görə müqayisəsi. Çoxluqların bərabərləşdirilməsi».

**Məqsəd.** Bərabər cəmliklər, onların əmələ gəlmə yolları haqqında anlayışların formalaşdırılması, qarşılıqlı birmənalı uyğunluq, yenidən hesablanma.

**Məşğələnin gedişi**



**Çalışma 1.**

**Material.** Zərfin içində flaneleqraf, üçbucaq dəsti, kvadrat və dairələr.

**Tərbiyəçi.** Yadınızdadırmı N.Nosovun «Neznaykanın macaraları» və onun qəhrəmanları? Xatırladım ki, Neznayka və Qunka əfsanəvi Gül şəhərində yaşayırdı.

Flaneleqrafda iki hissədən bir evcik, sonra digəri yığılır.

-Bu Neznaykanın, o isə Qunkanın evidir.

Flaneleqrafın üzərinə dağınış şəkildə 5-6 kvadrat qoyulur.

**Tərbiyəçi.** Bu Neznaykanın, bu isə doktor Pilyulkinanın, bu Vintciyin, bu isə Şputikin evidir. Deyin, evlərdə nə çatmır? Doğrudur, onların damı yoxdur. Bəs neçə ev üçün bizə dam lazımdır? (Cavab

Kim bu üçbucaqlar vasitəsilə evləri tamamlaya bilər? (qırmızı rəngli üçbucaqlar evlərin sayından çox ola bilər). Necə etmək lazımdır ki, ev alınsın? Əlbəttə, hər evin üstünə bir dam qoymaq lazımdır? Neçə ev alındı? (Cavab)

Adətən, uşaqlar tapşırığı yerinə yetirərkən əşyaları yenidən sayaraq, boş qalan evlərə dam qoyurlar.

**Çalışma 2.**

**Tərbiyəçi** (qalan damları ortaya qoyaraq):

- Nə etmək lazımdır ki, ev alınsın? Doğrudur, hər bir dama dörbucaq əlavə etmək lazımdır ki, evcik alınsın. Deyin görüm, zərfdən neçə dördbucaq götürmək lazımdır? Bunun üçün artıq damları saymaq lazımdır. Onlar dörd dənədir. Deməli, dörd dördbucaq lazımdır. (Tərbiyəçi zərfi uşaqlara verir və onların hərəkətlərini izləyir. Qrup uşağın hərəkətlərini izləyir, uşağın vəzifəsi isə deyilən sayda dördbucaq götürmək və onları damın altına qoymaqdan ibarətdir).

**Çalışma 3.**

Flaneleqrafın bir tərəfində 9 yaşıl uçbucaq, digər tərəfinə isə 10 evcik qoyulub.



**Tərbiyəçi:**
- Şən, balaca adamlar qərara gəldilər ki, evlərin qarşısında yaşıl kolluq salsınlar. (Flaneleqrafda onları yaşıl üçbucaqlar əvəz edir). Neznayka hesab edir ki, bu şayda hissələr kifayətdir, Qunka isə bununla razı deyil. Necə bilirsiniz, hər bir evin qarşısında bir yaşıl kol əkmək üçün bəs edərmi? (Uşaqlar hansısa məsələni hesablama yolu ilə həll edə bilər, lakin qarşıya çətinlik çıxır). Necə bilək ki, kim haqlıdır? Neznayka, yoxsa Qunka? (Cavab) Əlbəttə, hər evin qarşısında bir yaşıl kol əkmək lazımdır. Deyin görüm, tapşırığın öhdəsindən gəldikmi? Hər evin qarşısında bir kol əkmisinizmi? (Cavab) Doğrudur, işin öhdəsindən gələ bilmədik? Nə üçün? Gəlin aydınlaşdıraq: Evciklərin və yolların sayı eynidirmi? Hansı azdır? (Cavab) Nə qədər azdır? Doğrudur, bir kol azdır.

Model flaneleqrafın üzərindən götürülür.

**Çalışma 4.**

**Material**. Hər bir uşaq üçün didaktik dəst.

**Tərbiyəçi** (flaneleqrafın üzərinə 5 dairə qoyaraq):

- Qutudan mənim əlimdə olan dairələrin sayı qədər kvadrat götürün. Məndə neçə dairə var? Neçə kvadrat var? Doğrudur 5 dairə, 5 kvadrat. Bunlar damsız evciklər olacaq. Bu evlər üçün neçə dam lazım olacaq? (Cavab). Qutudan lazım olan qədər dam götürün. Onları ovcunuza qoyun, mən yoxlayım. İndi isə hər bir evin qarşısında bir (yolka) şam ağacı əkin. Neçə evciyimiz var? (Cavab: 5). Neçə şam ağacı lazımdır? (Cavab: 5). Bir şam ağacı üçün neçə üçbucaq götürək? Doğrudur 2. Ovcunuza 2 uçbucaq qoyun. İki üçbucaqdan neçə şam ağacı alınar? Doğrudur. 1 dənə. Ovcunuza daha iki üçbucaq qoyun. İndi neçə yolka əmələ gəlir? Doğrudur 2. Bu iki yolkanı da evlərin qarşısında əkin. Daha neçə yolka əkmək lazımdır? Doğrudur 3. Ovcunuza o qədər üçbucaq qoyun ki, onlar 3 yolka quraşdırmağa çatsın. Göstərin, görüm.

(Uşaqları müşahidə edən tərbiyəçi istiqamətverici suallarla tapşırığı başa düşməyən uşaqlara kömək edir. Demək olarmı ki, evlərin sayı qədər yolkalar vardır? (Cavab). Yolka ilə evlərin sayı eynidirmi? və s.).

**Çalışma 5.**

**Material.** Hər hansı bir şəkil seçilir, onların üzərində oxşarlıq axtarılır. (Üç stulda üç ayı oturmuşdur, yəni ayıların sayı stulların sayı qədərdir)

Tərbiyəçi təklif edir ki, uşaqlar şəklə baxıb, onların uyğunluğunu müəyyənləşdirsinlər.

**Çalışma** 6.

**Material**. Qunkanın təsviri ilə applikasiya və ya şəkil.



**Tərbiyəçi** (şəkli göstərərək):

- Qunkanın raketlə uçduğu bu şəklə baxın.

O neçə kvadrat və üçbucaqdan ibarətdir?

Deyə bilərikmi kvadratların sayı üçbucaqların sayı qədərdir? (Cavablar)

Şəkildə olan sayda kvadrat götürün. Onları ovcunuza qoyaraq mənə göstərin. Onları şəkildə olduğu kimi düzün. Tələb olunan qədər üçbucaq götürüb ovcunuza qoyun. Neçə dənə götürdünüz? (Cavab) Raketi quraşdırın.

**Çalışma 7.**

**Material.** Hər uşağa albom vərəqləri, karandaşlar, flamasterlər, plasmasdan çərçivə-şablon verilir.

Tərbiyəçi ştrix metodu ilə çərçivənin köməyi ilə raket çəkməyi təklif edir.

Çərçivəni lazımi şəkildə çəkə bilməyən uşaqlara fərdi şəkildə kömək göstərilir.

### «Çoxluqların bərabərləşdrilməsi» mövzusu üzrə məşğələ



**Məqsəd.** Müxtəlif üsullarla çoxluqların bərabərləşdirilməsini öyrətmək.

**Məşğələnin gedişi**

**Çalışma 1.**

**Material.** Flaneleqraf, iki kukla (applikasiya), iki zəmbil (qutular) dairələr (meyvələr).

Flaneleqrafda hesablamanı çətinləşdirmək üçün eyni dairələrin 8 və 10 sayda iki qrupu ortaya qoyulur.

**Tərbiyəçi.** Bir dəfə Neznayka və Qunka mübahisə etdilər ki, kim daha çox meyvə yığa bilər? Yoxlamaq istədilər, lakin necə? İki zənbil götürdülər və meyvələri ora düzməyə başladılar.

Tərbiyəçi eyni vaxtda kukla və zəmbillər götürür və meyvələri zəmbillərə bölüşdürür. (Diqqəti cəlb etmək üçün uşaqlardan birini Qunka roluna dəvət edir).

**Tərbiyəçi.** Neznaykada iki meyvə qalıb. Qunkada isə heç nə qalmayıb. Qunka Neznaykdan onda neçə meyvə qaldığını soruşur. Neznayka saymadığını deyir.

–Bəs siz uşaqlar saydınızmı?

Müvafiq tapşırıq almayan uşaqların cavabları mənfi olacaq.

**Tərbiyəçi.** Uşaqlar, Qunka çox bikef oldu və Neznaykadan nə üçün onda iki meyvə çox olduğunu soruşdu. Sən ki, meyvələri saymamısan, hardan bilirsən çoxdur?

Uşaqlar siz necə bilirsiniz Neznayka niyə bu qərara gəldi?

Müqayisə üsulu ilə şərh edilir: hər bir zəmbilə eyni vaxtda bir meyvə qoyulmuşdu. Deməli, onlarda meyvələr bərabərdir. Qalan iki meyvə onu göstərir ki, bir topa meyvənin sayı o birindən çoxdur, çünki onların cütü yoxdur.

**Tarşırıq 2.**

**Material.** Hər uşağa dairələrdən didaktik dəst.



Qunka Neznaykaya inanmadığı üçün tərbiyəçi uşaqlardan xahiş edir ki, dairələri elə düzsünlər ki, Neznaykada çox meyvə olduğuna Qunkanı inandıra bilsinlər.

**Tərbiyəçi.** Siz dairələri necə düzərdiniz? Bir-birinin altında? Cüt-cüt? Hansı cərgədə dairə çox, hansı cərgədə azdır? Yuxarı cərgədə necə dairə çoxdur? Bəs aşağı cərgədə neçə dairə azdır?

**Çalışma 3.**

–Nə etmək lazımdır ki, dairələrin sayı eyni olsun?

–Elə etmək lazımdır ki, Qunka inciməsin. Yuxarı cərgəyə iki dairə əlavə edək? Yoxsa aşağı cərgədən iki dairə götürək? Bəlkə yuxarıdan bir dairə götürüb aşağıya qoyaq?

Məsələnin həlli variantını uşaqlar təklif edir, tərbiyəçi isə onları «Bəs başqa necə etmək olar?» sualı ilə fəallaşdırır.

**Çalışma 4.**

**Material.** Hər uşağa flaneleqraf, kvadratlar, üsbucaqlar, dörd yarımdairə.

**Tərbiyəçi.** Qutudan əvvəlcə 5 kvadrat çıxarıb, cərgə ilə düzün. İndi onlara kvadratdan 2 dənə az üçbucaq əlavə edin. Üçbucaq qədər də yarımdairə götürün.

Əgər uşaqlar bu tapşırığın yerinə yetirilməsində çətinlik çəkirlərsə, məsələnin həlli flaneleqraf üzərində birlikdə icra edilir.

**Qeyd.** Dörd yarımdairəni qalın kartondan hazırlamaq və ya onu iki bərabər hissəyə bölmək olar.

**Çalışma** 5.



**Tərbiyəçi.** Bu fiqurdan Qunka üçün belə bir təyyarə düzəltmək olar. O hava şarında uçub gedən Neznaykanı axtarmağa getməlidir.

Burda hansı fiqurlar bərabər saydadır? (Cavablar) Hansı çoxdur üçbucaqlar ya kvadratlar?

**Çalışma 6.**

**Tərbiyəçi.** Qunkanın təyyarəsini yenidən qurmaq olar. Qunka belə də etdi. Aya çatanda o belə bir qayıqla çayda üzməyə başladı.



Siz də belə qayıq quraşdırın.

-Sizdə artıq fiqurlar qaldımı? Hansılar? Doğrudur. Üç yarımdairə və iki kvadrat. Onları qutuya qoyun.

Öz qayığınıza diqqətlə baxın və hansı fiqurların bu sayda olduğunu deyin. Doğrudur, kvadratların sayı üçbucaqların sayı qədərdir.

**Çalışma 7.**

**Material.** Hər uşaq üçün albom vərəqləri, flamasterlər, plastmas çərçivə-şablon. Çərçivədən istifadə edərək uşaqlar gəmini ştrixlə çəkirlər.

**«1-dən 10-na qədər natural cərgənin hissələri» mövzusu üzrə məşğələ**

**Məqsəd.** Uşaqları natural cərgənin quruluşunun dərk edilməsinə hazırlıq.

**Məşğələnin gedişi**

**Çalışma 1.** «Güzgü» oyunu.

Uşaqlar tərbiyəçidən sonra yavaş sürətlə öz əkslərini güzgüdən görürlərmiş kimi hərəkət edirlər. İlk mərhələdə bu sağ və sol əlin sinxron hərəkəti kimi yerinə yetirilir. Uşaqlar lazımi sürəti gözlədikdə tapşırığı dəqiq, gecikmədən təkrar etməyi öyrənirlər. Sonra əllərin qeyri-sinxron hərəkətləri tapşırığa əlavə edilir. Bu hərəkətlər həm kordinasiyanı, həm diqqəti, həm də barmaqların motorikasını inkişaf etdirməyə kömək göstərir. Sağ əli ilə böyük dairə çəkir, sol əl ilə stolu döyəcləyir. Əgər tapşırığı iki nəfər icra edirsə, rolları dəyişə bilər. Kiçik böyüyün səhvini tutur. Qruplarda uşaqlar bir-birini əvəz edərək «aparıcı» rolunu icra edə bilərlər.

**Çalışma** 2.

**Tərbiyçi.** Xahiş edirəm həmin sayda barmaqlarınızı göstərin (Rəqəmlərin adını demədən, tərbiyəçi əli ilə 2, 3,1,5 sayını göstərir). Siz barmağınızla neçə göstərirsiniz? (Cavab) Bir əldə neçə barmaq var? (Cavab). Məndə, Səlimdə, Nərgizdə hesablayaq. Hamıda eyni saydadır? (Cavab).

İki əldə neçə barmaq var? Məndə hesablayaq Eyni saydadır? (Cavab). Kim saya bilər qrupda neçə uşaq var? (Yarımqrupda, adətən, 10 uşaqdan çox olmur).

Daha kim saya bilər? Kim deyər 10 rəqəmindən sonra hansı rəqəm gəlir? Bəs 11 rəqəmindən sonra? Bəs 12 rəqəmindən sonra? (Uşaqlar düzgün cavab verənə qədər suallar verilir).

**Çalışma 3.**

**Material**. 1-dən 10-a qədər olan rəqəmlər yazılmış kartoçkalar.

**Tərbiyəçi** (rəqəmlər yazılmış kartoçkaları stolun üstünə qoyaraq:

-Mənim əlimdə rəqəmlər üzərində yazılmış kartoçkalar var, lakin onlar ardıcıl yox, qarışıqdır. Kim onları ardıcıl düzə bilər?

Uşaqlar növbə ilə stola yaxınlaşıb, rəqəmləri ardıcıl düzür və hərə öz seçimini şərh edir: Əvvəlcə 1 rəqəmi gəlir, birdən sonra 2 rəqəmi gəlir və s.).

**Çalışma 4.**

Üzərində rəqəmlər yazılmış kartoçkalar düzüldükdən sonra söhbət aparılır.

**Tərbiyəçi:**

- Rəqəmlərdən hansı kiçikdir? Ən böyüyü hansıdır? Hesablama vaxtı hansı rəqəm əvvəl gəlir- 3 yoxsa, 4;7; yoxsa 8; 5 yoxsa 3; 4 yoxsa 7 və ya 9?

Uşaqlar rəqəmlərin cərgəsinə baxaraq cavab verirlər. Yazı taxtasına zəif cavab verən uşaq çağırılır.

- 1-dən kiçik rəqəm varmı? Biz bilirik ki, 1 ən kiçik rəqəmdir, ona görə də birinci gəlir, lakin hesablamalı heç nə olmadıqda biz «sıfır» deyirik. Sıfır 1-in qarşısına qoyulur.

Tərbiyəçi uşaqlara deyir:

- Ən az miqdar 1-dir, birdən az «heç nədir» .

**Çalışma 5.**

**Tərbiyəçi.** Bəs 10-dan böyük rəqəm varmı? Nə qədər? Çoxmu? Nə qədər çoxdur? (Cavab). Düz deyirsiniz. Rəqəm o qədərdir ki, onları saymaq mümkün deyil. Ona görə də deyirik ki, çoxdur, lap çoxdur, sonsuz sayda çoxdur. Təbiətdə elə şeylər var ki, onları saymaq olmur. Göydəki ulduzlar, meşələrdəki ağaclar, yarpaqlar, dənizdəki balıqlar, çəmənlikdəki otlar, səhradakı qumlar... hamısını sadalamaq mümkün deyil.

**Çalışma 6.**

**Material.** Hər uşağa böyük kağız vərəqi üzərində çəkilmiş ornamentlər, üzərində dairələr çəkilmiş albom vərəqləri, qayçı, plastmas çərçivə-şablon.



Tərbiyəçi (ornamentləri göstərərək):

– Bu fiqurları sayın. Üzərində ornament olan vərəqi yazı taxtasından asıram. Siz ona baxaraq xoşunuza gələn bəzəyi çəkin.

**«Ədəd və çoxluq» mövzusu üzrə məşğələ**

**Məqsəd.** Uşaqları məsələlərin təsnif etmək həlli ilə ədəd və çoxluqların uzlaşdırılması anlayışı ilə tanış etmək.

**Məşğələnin gedişi**

**Çalışma 1.**

**Material**. Hər bir uşaq üçün flaneleqraf, didaktik dəst, albom vərəqləri, flamaster, plastmas çərçivə, şablon.

Flaneleqrafın üzərində iki ölçüdə eyni rəngli kvadratlar. Tərbiyəçi onları iki qrupa bölməyi təklif edir. Kvadratlar eyni rəngdə olduğu üçün onları ölçülərinə görə ayırmaq mümkündür.



**Çalışma 2.**

**Material.** 1-dən 10-na qədər rəqəmlər yazılmış kartoçkalar.

**Tərbiyəçi.** Verilmiş rəqəmlərdən eləsini seçin ki, o kvadratların hər birinə uyğun olsun və öz seçiminizi izah edin. (Cavablar). Doğrudur, bizə 4 rəqəmi lazımdır. Necə fikirləşirsiniz, hər kvadratı daha necə adlandırmaq olar? (Cavablar). Hər kvadratın neçə bucağı var? Düzdür, dörd. Deməli, kvadrata dördbucaqlı da demək olar. İndi mən kvadratları birləşdirirəm. Kvadratın çoxluğuna hansı ədəd uyğun gəlir. Düzdür 8.

**Çalışma** 3.

Tərbiyəçi uşaqların tanıdıqları fiqurları flaneleqrafın üzərinə düzür. Fiqurlar çərçivənin köməyi ilə çəkilir və ştrixlənir.



**Çalışma 4.** «Şəkilləri quraşdır» oyunu.

**Material.** Hər uşağa 9 hissəyə bölünmüş şəkillər və ya hər hansı süjetli kubiklər.

Bu tapşırığı təklif edən tərbiyəçi uşaqların onu hansı sürətlə yerinə yetirəcəyini nəzərə almalıdır.

Əgər tapşırıq həvəslə, yüksək sürətlə yerinə yetirilirsə, ona mane olmaq lazım deyil. Çətinlik çəkən varsa onu aradan qaldırmaq lazımdır. Əgər uşaq çətinlik çəkirsə, onu aramla və düzgün icra edən uşağın yanında oturtmaq lazımdır və ya ehtiyat hissələrdən nümunə göstərmək olar.

**«Natural rəqəm cərgəsinin quruluş prinsipi» mövzusu üzrə məşğələ**

**Məqsəd.** «Sonrakı və əvvəlki rəqəm» anlayışının öyrədilməsi.

**Məşğələnin gedişi**

**Çalışma 1.**

**Material.** Hər uşaq üçün üçün karandaş dəsti.

Barmaqlar və bilək üçün məşq.

- Karandaşı sağ və sol əldə tutaraq özünə tərəf və əksinə hərəkət etdirmək, bir əldən o birinə vermək.
- Dirsəyi stolun üstünə qoyaraq, stoldan ayırmadan tərbiyəçinin göstərişi ilə biləklə havada böyük, kiçik, dördbucaqlı, üçbucaqlı, tanış hərf, rəqəm çəkmək.

Tapşırıq əvvəl işlək əllə (sağ), sonra sol əllə, solaxaylar solla, solaxay olmayanlar sağ əllə işləyirlər.

**Çalışma 2.**

**Material.** Hər uşağa flaneleqraf, tüklü kağız hissələri, 1-dən 10-na qədər rəqəm yazılmış kartoçkalar, üç üçbucaq, dörd müxtəlif formalı dördbucaqlı, içərisində hesablama çöpləri olan qutu.

**Tərbiyəçi** (3 və 4 rəqəmləri yazılmış kartoçkanı göstərərk):

- Bu rəqəmlərdən hansı əvvəl, hansı sonra gəlir? (cavablar)

Rəqəm yazılmış kartoçkalar flaneleqrafın üzərinə bərkidilir. 3 -dən əvvəl gələn rəqəmin adını deyin (Cavab). Bu rəqəmlər 3-dən azdır yoxsa çoxdur? (Cavab). 3-dən əvvəl hansı rəqəmi qoymaq olar? 2 rəqəmini 3 rəqəminin qonşusu adlandırmaq olar. Deyin görüm, 2 öz qonşusu 3-dən çoxdur yoxsa azdır? Bəs hansı rəqəmi 3-dən sonra böyük qonşu adlandıra bilərik? (Cavab). Flaneleqraf üzərində 4 rəqəmini hara qoyaq? Üç-dən əvvəl ya sonra? (Müstəvi üzərinə 2,3,4 rəqəmləri qoyulur). 1 rəqəminin yeri haradır? (Faneleqrafda göstərir.) 2 rəqəmindən əvvəl yoxsa sonra?

Sonra flaneleqrafda 10-na qədər rəqəmlər cərgə ilə düzülür ki, uşaqlar fikri obrazlarla işləyə bilsinlər.

1 2 3 4

**Tərbiyəçi** (6 rəqəmi yazılmış örtülü kartoçkanı göstərərək):

- Bu hansı rəqəmdir?

- Düzdür 6. Niyə belə fikirləşirsiniz? Əlbəttə, 4 rəqəmindən sonra 5, 5-dən sonra 6 gəlir. Kim 2-dən başlayaraq 6-ya qədər bütün rəqəmləri deyə bilər? (Sonuncu 4 kartoçka çevrilir.

Uşaqlar hər bir kartoçkanı göstərərək rəqəmləri adlandırırlar. Bəzilərini «görək düzmü deyirsən» deyə 6,7 sayında saxlamaq olar. «Bəli, doğrudur, 7 yazılmış kartoçkadır». Sonra kartoçka yenidən çevrilir.

**Çalışma 3**. (Davamı)

**Tərbiyəçi.** Bu rəqəmləri əks istiqamətdə adlandıraq. Səhv etməmək üçün gəlin birlikdə deyək.

Sonra tapşırıq uşaqların arzusu ilə yerinə yetirilir. Tərbiyəçi uşaqların cavabını əvvəlki qayda üzrə yoxlayır, seçmə yolu ilə rəqəm olan kartoçkaları çevrilir.

**Çalışma 4.**

Flaneleqrafın üzərində yalnız 3 və 4 rəqəmləri yazılmış kartoçkalar saxlanılır.



**Tərbiyəçi.**

–Mən sizə fiqurlar göstərəcəyəm. Deyin görüm, onları hansı rəqəmin 3 və ya 4-ün qarşısına qoymaq lazımdır və nə üçün? (Üçbucuq göstərilir). Üçbucağı hansı rəqəmin yanına qoyaq? Doğrudur, 3 rəqəminin yanına, çünki üçbucağın 3 bucağı var. Bəs dördbucaqlını hansı rəqəmin yanına qoyaq? (Cavab).

Kim fikir verdi, bizim dəstdə neçə fiqur var?

Əgər uşaqlar üçbucaqların sayını 3, dördbucaqlıların sayını isə 4 rəqəminə uyğun olduğunu desələr, bu yaxşı hal hesab olunur.

**Çalışma 5.**

Üzərində rəqəm olan kartoçkalar götürülür.

**Tərbiyəçi:**

- Çərçivələri götürün və mən flaneleqrafda düzdüyüm kimi bu fiqurları çəkin.

Uşaqlar çərçivədən istifadə edərək işə başlayırlar.

**Çalışma 6.**

**Tərbiyəçi.** İçərisində çöplər olan qutunu açın və mənim danışdığım nağıla qulaq asın.

Süjetin açılmasına müvafiq olaraq tərbiyəçi flaneleqrafın üzərində nazik çöplərdən olan fiqurları düzür. Uşaqlar çöplərlə fiqurları quraşdırırlar.

**Tərbiyəçi.**

–Bonifasi adlı bir şir var idi. (Yaxşı olar ki, balaca şir şəkli flaneleqrafa bərkidsin). Sirkdə tətil olandan Bonifasi Afrikaya nənəsinin yanına getdi. Afrika uzaq bir ölkədir və dənizin o tayında yerləşir. Ona görə də Bonifasi qayığa mindi. Nümuə üzrə qayığı quraşdırın. Bonifasi dənizdə üzür, günəş şuaları onu qaraldır, Ona görə qərara alır ki, çətirini açsın. (Uşaqlar nümunə əsasında çətiri quraşdırırar).

Bonifasi Afrikanın sahillərinə çatdı. Nənə nəvəsini görüb çox sevindi. Stolun üstünə alma ilə dolu vazaya qoydu. Siz də nümunəyə baxaraq vazanı quraşdırın.

Uşaqlar işləyərək qayıq və çətir götürür. Onların yerini böyük bir konfet tutur.

**Tərbiyəçi:**

– Nənə Bonifasini konfetə qonaq etdi. Siz də konfet quraşdırın.

Bonifasi çox sevindi. Məşğələ zamanı bütün uşaqların fəaliyyəti, hətta çətinlik çəkən uşaqların da işi müsbət qiymətləndirildi. ❐

**A. Beloşistaya,**
«Дошкольная воспитание» jurnalının
2002-ci il 10-cu nömrəsindən tərcümə olunmuşdur.

## *SİZİN KİTAB RƏFİNİZ*

*Fərrux Ağasıbəyli.* Müəllim. «Kövsər», Bakı, 2006.
Bakıdakı 21 nömrəli orta məktəbin direktoru F.Ağasıbəylinin bu kitabında müxtəlif nəsildən olan müəllimlərin həyat və təcrübəsindən nümunələr verilmişdir.

*Tamilla Dadaşova.* «Pedaqoji-psixoloji düşüncələr». «Nurlan, Bakı, 2006.
Kitabda ümumtəhsil məktəbində pedaqoji prosesin müxtəlif mərhələləri, ali məktəbin müasir problemləri, təlim-tərbiyə ilə bağlı psixooji düşüncələr, pedaqoji rəy və mülahizələr öz əksini tapmışdır.

*Fərahim Zeynalov.* «İbtidai siniflərdə təsviri sənətin digər fənlərlə əlaqəli tədrisi». Bakı, 2006.
Kitabda ibtidai siniflərdə təsviri incəsənətin digər fənlərlə əlaqəli tədrisinin mahiyyəti, xüsusiyyətləri araşdırılır., problem baxımından işin imkanları və yolları şərh edilir.

*Məmmədəli Ağayev.* «Kiçikyaşlı məktəblilərin tərbiyəsi» Bakı, 2006.
Kitabda kiçikyaşlı məktəblilərin yoldaşlıq və dostluq, qayğıkeşlik, vətənpərvərlik, hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin imkanları və yolları araşdırılır.

*Pirəli Əliyev.* Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi» Bakı, 2006.
Kitabda milli-mənəvi dəyərlərin mahiyyəti, məktəbdə bu işin təşkilinin pedaqoji əsasları, bu problemin həlli istiqamətində məktəbin ailə və ictimaiyyətlə əlaqəsi əhatə olunur.

# NİTQ MƏDƏNİYYƏTİ VƏ NİTQİN İFADƏLİLİYİ

**Gültəkin ABDULLAYEVA,**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi



Müstəqil Azərbaycan Respublikasında və xalqımızın həyatında milli, mədəni, siyasi, sosial və s. sahələrdə baş verən hadisələr ana dilimizin sürətlə inkişaf edib zənginləşməsinə imkan yaratmışdır. Dövlətimizin dil və təhsil siyasətində mənəvi tərbiyənin üstün sahə təşkil etməsi, gənc nəslin nitq mədəniyyətinin də yüksəlməsinə müsbət təsir göstərmişdir. Belə ki, başlıca məqsəd ana dilimizin təhsilləndirici, tərbiyəedici və inkişafetdirici funksiyasını düzgün istiqamətləndirməkdən və gənc nəsli zəngin nitq mədəniyyəti imkanlarına, o cümlədən ifadəli danışmaq vərdişlərinə yiyələndirməkdən, təhsilimizin elmi-pedaqoji xəttini həyata keçirməkdən ibarət olmalıdır.

Bu bir həqiqətdir ki, şagirdlərin nitqinin ifadəlilik baxımından qaydaya salınması, zənginləşdirilməsi onların təfəkkürünü dərinləşdirir, dünyagörüşünü genişləndirir. Şagirdlərin nitq mədəniyyətinin formalaşmasında, o, cümlədən onların nitqinin ifadəliliyi sahəsində ana dili dərslərinin tədrisi mühüm rol oynayır. Təcrübə və müşahidələr göstərir ki, ibtidai sinif müəllimlərinin əksəriyyəti bu məsələyə lazımi əhəmiyyət vermir. Onlar əsas diqqəti oxu texnikasına, oxunun sürətinə, oxunan materialın məzmununun mənimsənilməsinə yetirir, şagirdlərin nitqinin ifadəliliyi, obrazlılığı məsələlərini bir növ «arxa plana» keçirirlər. Nəticədə şagirdlərin nitqi sönük, təsirsiz olmaqla dinləyiciyə xoş təsir bağışlamır. Bunun əsas səbəblərindən biri də müəllimlərin nəzəri hazırlığının zəifliyi, onların nitqin ifadəliliyi ilə bağlı zəruri məlumatlara malik olmamalarıdır. Bunları nəzərə alaraq nitqin ifadəliliyi ilə bağlı bəzi məsələləri şərh etməyə ehtiyac duyduq.

«Nitqin ifadəliliyi» inteqrativ anlayışdır və təbiidir ki, həmin anlayışda «nitq» və «ifadəlilik» ehtiva olunmuşdur. Deməli, komponentlərin ayrı -ayrılıqda məna və məzmun tutumunu dəqiqliklə müəyyən etmək, eyni zamanda, onlardan hər birinin əlaqədar olduğu elm sahələrini təhlil müstəvisinə gətirmək lazımdır. Məsələnin mahiyyətini böyük slavyan pedaqoqu Y.A.Komenskinin «Bütün anlayışları əlaqə və vəhdətdə götürmək» tələbi ilə yanaşmaqla açmaq olar.

Dil nədir? Dil cəmiyyətin varlığı, onun təşəkkülü və inkişafı üçün çox zəruri olan bir vasitədir. İnsanlar düşündüklərini və dərk etdiklərini dil vasitəsilə ifadə edirlər. Dil fikrin ifadə aləti kimi təzahür etdiyinə görə beynin fəaliyyəti olan təfəkkürlə sıx əlaqədardır. Dil ilə təfəkkür, yaxud nitq və təfəkkür dialektikası mərhum prof. A.Abdullayev tərəfindən çox dəqiqliklə şərh olunmuşdur: «İnsanın

zehnində söz və ifadəsiz dil materialı olmayan çılpaq fikirlər yoxdur. İnsanda hansı bir fikir əmələ gəlirsə, o, müəyyən bir söz və ifadə əsasında meydana çıxır».

Bəs nitq nədir? Nitq prosesdə olan dildir. Dilin milliliyi də nitqdə izah olunur. Nitqin – dil, danışıq, söz, ifadə, cümlə, kəlmə, söz birləşməsi və s. kimi nisbi sinonimləri vardır. Nitqin bir sinonimi də dildir, çünki «mənim dilim», «mənim nitqim» mənasında da işlənir, lakin «ana dili» əvəzinə «ana nitqi» deyə bilmirik. Dil mədəniyyətindən söhbət açarkən «nitq mədəniyyəti» ifadəsindən istifadə edirik. Bununla belə, «Dil mədəniyyəti» başlığı altında, əsasən, dilin normalarının tədiqindən, normativ aktlardan, tədqiqatların nəticələrindən, bir sözlə, ana dilinin inişafı yolunda aparılan uğurlu nailiyyətlərdən söhbət gedirsə, nitq mədəniyyəti dedikdə, yaradıcı insanların: şair və yazıçıların dilimizə yeni sözlər, ifadələr, üslub tərzi gətirməklə xalqın nitq mədəniyyətini zənginləşdirmələrindən, natiqlərin məharətli çıxışları ilə dilimizə məxsus rəvanlıq, sərrastlıq, aydınlıq, ifadəlilik gətirələrindən bəhs olunur. Eyni zamanda, dildə, yəni ana dilində bir xalqa, millətə məxsus psixologizmlər varsa, nitqdə, yəni bir nəfərin nitqində həm ana dilinə, həm də fərin özüə psixoloji özünəməxsusluqlar ifadə olunur. Füzulinin əsərləri onun yazılı nitidir və o da bu əsərlərini ana dilində–Azərbaycan dilində yazmışdır. Məhz söz və ifadələrin seçiminə görə onun nitqi digər həməsrlərinin nitqindən fərqlənmiş olur.

Paradoksallıq orasındadır ki, biz «Füzulinin dil və üslub xüsusiyyətləri» deyərkən «dil» sözünü nitq mənasında işlətməyə adət etmişik. Axı hər bir şairin öz dili olmaz, onun öz sözləri və ya nitqi olar. «Dil və üslub» şairin ana dilindən necə məharətlə istifadə etmək, qiymətli sözlərin içərisindən ən qiymətlisini seçmək, hadisələri mənalandırmaq, məcazlar qalereyasına baş vurmaq, təzadlar yaratmaq, eyni səslərdən assonans, alliterasiya, ellipsis, təkrir növlərindən məharətlə istifadə etmək bacarığıdır ki, bunu nitq mədəniyyətinin zənginləşməsi, habelə intonasiya çalarlarının yüksəlməsi kimi başa düşmək lazımdır. Ancaq nəzəri cəhətdən bu, belə olsa da, «Səməd Vurğunun dili rəvandır» ifadəsinin mənasını belə başa düşürük: «Səməd Vurğunun doğma ana dilindən bəhrələnərək özünəməxsus danışığı, nitqi, üslubu olduqca rəvandır».

Buradan da aydın olur ki, nitq bizim hər birimizin yazılı və şifahi danışığımızdır. Biz öz nitqimizi ədəbi dilin orfoepik, orfoqrafik, qrammatik və üslubi normalarına uyğun qursaq da, «prosesdə olan dilimiz», yəni nitqimiz tənəffüs, ton, tembr, fasilə, vurğu, sintaqm, orfoepiya və s. vasitələrin köməyi ilə yaranır ki, bu da nitqin ifadəliliyinin psixolinqvistik vasitələri sayılır.

İfadəlilik - nitqin bütün digər normalarından daha genişdir, çünki düzgünlük, dəqiqlik, aydınlıq, səlislik, axıcılıq, rəvanlıq, məntiqilik, orijinallıq və s. həm yazılı, həm də şifahi nitqdə (həm məntiqi, həm də ifadəli oxuda) özünü göstərir. Nəzərə alsaq ki, sözün hər bir səsinin axıra qədər məxrəcinə uyğun dəqiq səslənməsi düzgünlük norması kimi ifadəlilik yaradırsa, yaxud da məntiqi oxu prosesində mənanın çatdırılmasında frazemlər, aforizmlər, atalar sözlərinin və s. rolu nəzərə alınırsa, deməli, səssiz oxuda da ifadəlilik ünsürlərindən istifadə olunur.

İfadəlilik xüsusi elm sahəsidir. Onu təkcə dil və nitqin atributları kimi deyil, həm də ana dilinin təzahürü kimi öyrənmək lazımdır. Ana dili isə əlifba, oxu, hüsnxət, Azərbaycan dili və ədəbiyyatla birlikdə təsəvvür olunan təlim dilidir. Həmin ifadəli dillə insan ətraf aləmi – dünyanı, mühiti, o cümlədən konkret olmayan anlayışları dərk edir, beynində müvafiq məfhumları formalaşdırmalı olur. Məhz

elə buna görə də nitqin ifadəliliyindən danışarkən ailədə təzə dil açan uşaqlarla məşqlərdən və ya onların böyükləri yamsılamalarından başlamaq lazımdır.

Nitqin ifadəliliyində inteqrativlik dedikdə, üslub baxımından ən müvafiq, ən uğurlu dil vasitəsini tapıb işlətmək başa düşülür. Ancaq nitqin ifadəliliyini onun düzgünlüyü və dəqiqliyindən fərqləndirmək o qədər də asan deyil: məsələn, «O, ömrünü, boş-boşuna keçirdi» cümləsi həm düzgündür, həm də dəqiqdir, ancaq ifadəli deyil. «O, ömrünü yelə verdi» daha ifadəlidir, gözəldir. Yaxud: «Bizim eşqimiz xalq arasında məşhurdur», «Bizim eşqimiz dillərə düşüb» demək olar. Ancaq S.Vurğun daha gözəl, ifadəli deyib: «Bizim eşqimiz bir el nağılıdır».

Nitqin düzgünlüyü hamıdan tələb olunur. Nitqin dəqiqliyinə də hamı çalışmalıdır, nitqin ifadəliliyi isə, ilk növbədə, söz sənətkarlarına məxsusdur. Onlar ifadəlilikdə də dəqiqlik axtarırlar ki, bu da çox vacib məsələdir. Yaradıcı insanlar heç vaxt *qoçaq* və *igid*, *gözəl* və *qəşəng*, *ahu* və *maral*, *şeytan* və *iblis*, *yaş* və *rütubətli* sinonimlərini necə gəldi işlətmirlər. Onlar «Eyvana əyilən budaqda» deməklə kifayətlənmir - «Eyvana əyilən çarpaz budaqda» deməklə çox təsirli ifadə işlədir, beləliklə, konkret mənzərəni təssəvvürlərdə canlandırmağa nail olurlar. A.Səhhət quşcuğazlardan bəhs edərkən onlara «A xoşbəxtlər» ifadəsi ilə deyil, «A bəxtəvərlər» ifadəsi ilə müraciət edir, çünki «Bəxtəvərlər» daha ifadəli səslənir. Yaxud, şair başqa bir şerində «Dayanmaram, ay oğlan» deyil, daha doğmalıq və mehribanlıq bildirən «A qardaş» ifadəsini işlədir. Bununla da ifadəlilikdə daha təsirli, daha dəqiq intonasiya çalarları tapmaq nitqin poetik ruhunu yüksəldir.

Nitqin ifadəliliyi nitq inkişafı, natiqlik sənəti, təfəkkür mədəniyyəti və s. kimi məsələlərlə bir sıra elm sahələri ilə bilavasitə və bilvasitə bağlıdır. Xüsusən də natiqlik sənətində ifadəlilik neçə min illər əvvəllərə gedən qədim tarixə malikdir.

Azərbaycan renessansını yetişdirən XII-XIII əsr Nizami mühitində bu sənətə xüsusi diqqət yetirilmişdir. Nizami Gəncəvi Məhəmməd Peyğəmbəri dünyada ən ecazkar təsirli danışan şəxs hesab edir, onu mənaların meracı, möhtacların ilhamı, əqlin sultanı, mənaların qaynağı, rəqiblərlə belə aydın dil tapan, duzlu və şirin danışmağı bacaran böyük şəxsiyyət hesab edir. İfadəli danışığın insanın həyatında, tərbiyəsində əhəmiyyətini və rolunu dahi şairdən gətirdiyi iqtibaslarla şərh edən prof. Zahid Qaralov milli pedaqogikanın mahiyyətini açmağa nail olmuşdur. Dahi Nizami «dillərində atəş», «kəlamlarında günəş hərarəti» olan natiqləri ürəkdən sevdiyini, onların istedad və fəaliyyətini təqdir etdiyini bildirərmiş və belə natiqlərdə alim uzaqgörənliyi, dərin hikmət xəzinəsi tapdığından fəxrlə söhbət açarmış, «Elə natiqlər ki, dilləri atəş, heyrandı onlara səmada günəş» deyərmiş.

Natiqlikdə ifadəlilik vasitəsinin təntənəsini «Qurani–Kərimdən» sonra Nizami dühasında görənlərin arqumetlərinin hamısını şərh edib qurtarmaq mümkün deyil. Təkcə bir fakta nəzər yetirsək kifayət edər ki, «İsgəndərnamə» əsərindəki təsvirlərlə natiqliyin ecazkar təsir gücünün canlı obrazı yaranmışdır. Belə ki, İsgəndər qatı düşmənə rast gələndə, yəni işləri bərkə düşəndə qızılı işə salarmış, qızıl iş görməyəndə qılınca əl atarmış, qılınc iş görməyəndə bu işi əfsunçulara tapşırarmış. Şair yazır:

***Bir iş görməsəydi onlar da əgər,***
***Köməyə gələrdi onda natiqlər.***

Deməli, böyük fateh olan İsgəndər də bu vasitəni sınaqlardan keçirmiş və bilmişdir ki, çətinə düşəndə çarə qızıldan qiymətli, qılıncdan kəsərli, əfsundan təsiredici sözə məxsusdur, hökmdarların bayrağı sözlə dalğalanır, sülh bayrağı insanların qəlbinə sərinlik gətirir.

*Sülh ilə, kin ilə dövr etmiş zaman,*
*Sülhdən xeyir görmüş, kindənsə ziyan.*

Ümumiyyətlə, əxlaqa, mənəviyyata, mədəniyyət və nitq mədəniyyəti probleminə aid olan bu məsələ zaman-zaman dünyanın ən görkəmli dilşünaslarının, mədəniyyət xadimlərinin, filosoflarının, habelə nəzəriyyəçi və təcrübi natiqlərin fikrini məşğul etmiş, bir sözlə, həmişə aktual məsələ olmuş və indi xüsusilə böyük aktuallıq kəsb etmişdir. Ona görə ki, suveren dövlətimizin milli ideologiyasını, daxili və xarici siyasətini əsaslandırmaq və təbliğ etmək işində bütün növdən olan natiqlərin (siyası, hüquqi, akademik və s.), ideya təşkilatçılarının müstəqilliyimizi möhkəmləndirmək, qorumaq və əbədi etmək vəzifələrini həyata keçirməkdə ifadəli nitq güclü vasitə olmalıdır. Bu işdə əsas vəzifə akademik natiq sayılan müəllimlərin üzərinə düşür. Antik yunan filosofu Aristotelin «Poetika», «Məntiq», «Ritorika», roma natiqi Sisseronun «Natiqlik sənəti», Azərbaycan alimi Tusinin «Əxlaqi – Nasiri», «Natiqlik sənəti» əsərlərində bu problemin nəzəri əsaslarına aid qiymətli fikirlər söylənmiş, A.Lunaçarski, M.Rəfili, C.Xəndan, Ş.Qurbanov və başqaları nitqin ifadəliliyi normalarının təcrübi nümunələrini yaratmışlar.

Natiqlik sənətinin nəzəriyyəçiləri ifadəliliyi natiqlik sənətinin əsas tərkib hissəsi kimi qəbul edirlərsə, dilçilər belə hesab edirlər ki, ifadəliliyi nitqin ən dərin qatlarında: dil nitq dil zəncirini bir-birilə bağlayan ana dilinə hansı səviyyədə yiyələnməkdə axtarmaq lazımdır.

Ümumiyyətlə, ifadəlilik nitq gözəlliyi, nitq ifadəliliyi nitq seqmenti olaraq ruha qida, ağıla kamillik gətirir. Buna görə də şagirdlərin nitqinin ifadəliliyi sahəsində iş ana dilinin saflığı və inkişafı uğrunda aparılan mübarizənin tərkib hissəsidir. Nitqin ifadəliliyi nitq mədəniyyətinin əsas normalarından biri kimi qəbul edildiyinə görə, onun nəzəri və təcrübi məsələlərindən ibtidai sinif müəllimləri baş çıxarmalı, bu sahədə elmi və metodik səviyyələrini yüksəltmək qayğısına qalmalıdırlar.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Prezidentinin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında 18 iyun 2001-ci il tarixli Fərmanı. «Azərbaycan müəllimi» qəz. 2001, 21-27 iyul.

2. Mərdanov M. Dövlətimizin dil siyasəti. «Azərbaycan müəllimi» qəz., 2003, 14-18 mart.

3. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1985, 408 s.

4.Quliyeva A. Soltanov M. Məktəblinin orfoqrafiya–orfoepiya lüğəti. Bakı, Nurlan, 2004, 123 s.

**Г. Абдуллаева**

**Речевая культура и выразительность речи**

Говоря о языковой культуре, мы используем также выражение речевая культура. Под языковой культурой мы имеем в виду внедрение языковых норм, нормативных актов, достижений на пути развития языка, говоря речевая культура имеем в виду обогащение речевой культуры народа творческими людьми: поэтами и писателями, которые используя в своей творчестве новые слова, выражения, стилевых оттенки обогащают нашу речь, придаваяей ясность, четкость и выразительность.

# DÜZGÜN YAZI VƏRDİŞLƏRİNİN İNKİŞAFI VACİB MƏSƏLƏDİR

**Turan İBRAHİMOVA,**
Respublika Humanitar Fənlər Gimnaziyasının müəllimi



Müstəqil respublikamızın elmi tərəqqisi sosial və iqtisadi inkişafı indiki gənc nəslin düzgün təlim və tərbiyəsindən çox asılıdır. Düzgün təlimin əsası ibtidai təhsil mərhələsində qoyulur. Bu bir sıra problemləri həll etməyimizi zəruriləşdirir. Təbii ki, bu problemlərin önündə şagirdlərin şifahi və yazılı inkişaf etdirilməsi durur.

Bu yazıda şagirdlərin savadlı yazı vərdişlərinin inkişaf etdirilməsində rast gəldiyimiz bəzi xarakterik məsələlərdən, çətinliklərdən, onların aradan qaldırılması üçün gördüyümüz işlərdən danışacağam.

Məlumdur ki, düzgün, savadlı yazı vərdişinin yaradılmasında qrammatikanı, düzgün yazı qaydalarını möhkəm və şüurlu mənimsətmək əsas şərtdir. Başqa sözlə, əvvəlcə sözün leksik mənası öyrədilməli, sonra qrammatik və orfoqrafik cəhətdən mənimsədilməsi üzrə iş aparılmalıdır. Y.Kərimovun qeyd etdiyi kimi III sinifdə Azərbaycan dilinin tədrisi morfologiya və sintaksisdən başqa fonetika, orfoepiya, orfoqrafiya, leksika, söz yaradıcılığı, üslubiyyat üzrə praktik vərdişlərin verilməsini də əhatə edir ki, bütün bunlar bütövlükdə şagirdlərin yazılı nitq mədəniyyətini zənginləşdirir.

İstər III sinifdə «Azərbaycan dili dərsləri» metodik vəsaitində, istərsə də, «Azərbaycan dili» dərsliyində şagirdlərin yazılı nitqini düzgün istiqamətləndirmək üçün kifayət qədər material verilmişdir. Bunları qruplaşdırmaq, şagirdlərə əlavə çalışmalar vermək, onların düzgün yazı vərdişlərinə yiyələnmələrinə kömək edir. Müəllim şagirdlərin heca anlayışına dair biliklərini möhkəmləndirir və bu zəmində sözlərin hecalara düzgün bölünməsi, sətirdən-sətrə düzgün keçirilməsi sahəsində müntəzəm və sistemli çalışmalar verir.

Yazı mədəniyyətini inkişaf etdirmək üçün təbii ki, şagirdlərin yazı işlərini dəqiq öyrənib təhlil etmək, nəzərə çarpan xarakterik səhvləri qruplaşdırmaq vacibdir:

1.Yazılışı çətin olan qoşasaitli, qoşasamitli sözlərin yazılışında yol verilən səhvlər.

2.Mürəkkəb sözlərin yazılışında buraxılan səhvlər.

3.Bəzi şəkilçi və bağlayıcıların yazılışında buraxılan səhvlər.

4.Cümlədə yeni fikrə keçilməsini, durğu işarələrinin yerini bilməməkdən irəli gələn səhvlər.

5.Hecanı, sətirdən-sətrə düzgün keçirməyi bilməməkdən irəli gələn səhvlər.

6. Fikrin dəqiq ifadə olunması üçün sözü düzgün seçə bilməməklə əlaqədar səhvlər.

İbtidai sinif müəllimlərinin istifadəsində olan dərslik və yardımçı vəsaitlərdə düzgün yazı vərdişlərini istiqamətləndirən kifayət qədər material olsa da, onlardan

həmişə düzgün istifadə etməmək şagirdlərin yazılı nitq mədəniyyətinin aşağı səviyyədə olmasına gətirib çıxarır.

İbtidai siniflər üçün «İmla mətnləri məcmuəsi»ndə II sinifdə il boyu öyrənilməli olan 64, III sinifdə 160, IV sinifdə 86 söz və onların əksəriyyətinin istifadə olunduğu müxtəlif növ imla mətnləri verilmişdir. Bunların hamısı üzrə iş göstərilən səviyyədə aparılarsa, əlbəttə, şagirdlər düzgün yazı vərdişlərinə yiyələnərlər. Təəssüf ki, yalnız yoxlama imlalar üçün nəzərdə tutulan mətnlərlə məhdudlaşırıq, digər imla növlərinə əhəmiyyət vermirik. Buna görə də, yoxlama imlalarda şagirdlər hər cür orfoqrafik səhv buraxırlar.

Mən, istər II, III siniflərdə, istərsə də IV sinifdə lüğət üzrə, görmə, seçmə, izahlı, xəbərdarlıqlı və yaradıcı imlaları yazdırarkən şagirdlərin sinifdənxaric oxu prosesində rast gəldikləri sözlər üzrə də iş aparıram.

Təcrübə göstərir ki, şagirdələr deyilişi ilə yazılışı fərqli olan qoşasamitli və qoşasaitli sözlərdə, həmçinin alınma sözlərdə daha çox orfoqrafik səhvlərə yol verirlər.

III sinifdə şagirdlərlə lazımı iş aparılmadıqda çox zaman başqa xarakterli səhvər də buraxırlar: ***dəfdər, dəsdə, həfdə, bıçax, bənöşə, dokquz, aftamobil, məllim, kənt, maş, qanat, tokqa, tokku, igit, iyit; ağajdələn, Baxdiyar, azarrı, ayilə, aşbaz, pütöv, tükan, bitgi, dayirə, qəhraman, kansert*** və s. Göründüyü kimi, onlar orfoqrafik normaları orfoepik normalarla qarışdırırlar. Yazılarında yerli şivə səhvlərinə, dialektizmlərə yol verənlər, bitişik defislə və ayrı yazılan mürəkkəb isimlərin yazılışında səhvə yol verənlər də çoxdur.

Şagirdlərlə oxşar orfoqramlı, qoşa saitli və qoşa samitli sözlərin yazılışı üzrə iş aparmaq yazı mədəniyyətinin inkişafında böyük əhəmiyyət kəsb edir. Buna görə də mən belə sözlərə dair cədvəllər tərtib edir, onların yazılışı üzrə uşaqlarla müntəzəm iş aparıram.

| | | | |
|---|---|---|---|
| təfəkkür | cəmiyyət | toqqa | millət |
| səkkiz | kəmiyyət | haqq | çəllək |
| sikkə | əhəmiyyət | şaqqa | dəllək |
| şəkk | qalibiyyət | saqqal | güllə |
| həkk | keyfiyyət | çaqqal | qüllə |
| məkkə | mədəniyyət | naqqal | kəllə |
| mürəkkəb | əziyyət | şıqqıltı | məhəllə |
| təşəkkül | ətriyyat | tıqqıltı | dilli |
| mütəkkə | nəşriyyat | pıqqıltı | güllü |
| sikkə | şirniyyat | laqqırtı | gözəllik |
| hikkə | təyyarə | rəqqasə | şitillik |

Belə cədvəl üzrə iş şagirdlərin ümumiləşdirmə, qabiliyyətini inkişaf etdirir və onlar orfoqramların bənzərliyini yada salmaqla səhvlərini asanlıqla düzəldirlər. Yeri gəldikdə onların özlərinin də belə qruplaşdırma aparmalarını tələb edirəm. Şagirdlər *saat, maaş, camaat, inşaat; amma, mükəmməl, ümman, yumma, Məhəmməd* və s. eyni orfoqramlı sözlər tapırlar.

Şagirdlərin yaradıcı fəaliyyətə qoşulmaları, müstəqilliyi onların savadlı yazma vərdişlərinə yiyələnmələrini sürətləndirir.

Ədəbiyyat
1.Kərimov Y.Ş. III sinifdə Azərbaycan dili dərsləri. Bakı, «Nasir» 2002.
2.Kərimov Y.Ş. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası Bakı, «Nasir», 2004.
1. Y.Ş.Kərimov. II sinifdə Azərbaycan dili dərsləri. (Metodik vəsait) Bakı, Nasir,2000.
2. Y.Ş. Kərimov III sinifdə Azərbaycan dili dərsləri. (Metodik vəsait), Bakı, Nasir, 2001.
3. Y.Ş.Kərimov, N.M. Xudiyev. Azərbaycan dili. III sinif üçün dərslik.Bakı, 2002.
4. Kərimov Y.Ş. IV sinifdə Azərbaycan dili dərsləri. (Metodik göstəriş) Nasir, 2003.

**Т. Ибрагимова**

**Развитие правильных навыков письма важный вопрос**

**Резюме**

В привитии правильных письменных навыков основным условием является прочное и осознанное усвоение правил правописания. Естественно, что в основе этих проблем стоит выработка у учащихся необходимых устных и письменных навыков. В статье рассматриваются некоторые характерные вопросы, трудности, с которыми сталкиваются учитель в развитии грамотных навыков письма, и о том, как можно усранить возникающие трудности.

# İKİDİLLİLİK ŞƏRAİTİNDƏ ŞAGİRDLƏRİN ORFOQRAFİK İNKİŞAFINI TƏMİN EDƏN ŞƏRTLƏR

**Cavanşir ABBASOV,**
Lənkəran Dövlət Universitetinin müəllimi



İkidillilik şəraitində ibtidai sinif şagirdlərinin orfoqrafik vərdişlərinin inkişaf etdirilməsi üzrə işin təşkili üçün əlverişli şəraitin yaradılması vacibdir. Belə bir şərait olmadan praktik işlərin təşkilində lazımi nəticə əldə etmək çətindir. İkidillilik şəraitində orfoqrafik vərdişləri təmin edən ümumi şərtlər bunlardır:

a) Şagirdlərin nitqinin təmizliyi.

Müşahidələr göstərir ki, ikidillilik şəraitində şagirdlərin buraxdıqları orfoepik səhvlərin böyük bir qismi onların şifahi nitqindəki şivə xüsusiyyətləri ilə əlaqədardır.

Ailədə, ətraf mühitdə şagirdlərin nitqlərinə daxil olan yerli şivə xüsusiyyətləri təlimin ilk günlərindən şagirdin Azərbaycan ədəbi dilinin yaxşı mənimsəmələrinə mane olur. Məlumdur ki, ibtidai sinif şagirdləri necə danışırlarsa, o cür də yazmağa çalışırlar.

İkidillilik şəraitində ibtidai sinif şagirdlərinin yerli şivə xüsusiyyətləri çox rəngarəng olduğu kimi, onları törədən səbəblər də müxtəlifdir. Yerli şivə xüsusiyyətlərinin bir qismi ailə üzvlərinin danışığı, digər qismi uşağın böyüdüyü mikromühitlə əlaqədar olur. Müşahidələr göstərir ki, ailədə yaranan şivə xüsusiyyətləri daha çox məişətə aid olan sözlərdən ibarətdir. Mikromühitlə əlaqədar olan şivə xüsusiyyətləri isə uşağın böyüdüyü şəraitdəki işlək, xüsusilə oyun və əyləncələrə aid

sözlərlə əlaqədar olur. İkidillilik şəraitində uşağın nitqinin nöqsanlı olmasının, Azərbaycan dili dərslərində müvəffəqiyyət qazana bilməməsinin səbəbi onun ailədə iki dildə danışığının qarşılıqlı təsirinin olmasıdır.

b) Müəllimin nitqinin təmizliyi.

İkidillilik şəraitində müəllimlərin nitqlərində də şivə xüsusiyyətləri çox olur. Onların nitqi ədəbi dil normalarının tələblərini ödəmir. Elə ona görə də həmin şəraitdə işləyən müəllimlərin çoxu şagirdlərin nitqindəki şivə xüsusiyyətlərini görmür, bəzən görsə də, əhəmiyyət vermir, yerli şivənin təsiri ilə əlaqədar buraxılmış orfoqrafik səhvlərin hesabını aparmır.

Müəllimin öz nitqində şivə xüsusiyyətləri olduğundan o, yazı təlimində orfoqrafiya ilə orfoepiya arasındakı münasibəti lazımınca nəzərə ala bilmir. Yazı qaydaları şagirdlərə ədəbi tələffüz qaydalarından təcrid edilmiş şəkildə öyrədilir. Bir çox sözün və qrammatik formanın yazılışı ilə düzgün tələffüz arasındakı fərqi onların dərk etmələri üçün şərait yaradılmır.

Professor A.V.Tekuçev rus məktəblərində müəllimin hərfi tələffüz vərdişlərinin təsiri nəticəsində şagirdlərin orfoqrafik vərdişlərinin inkişafına mənfi təsirini tənqid edərək yazırdı: «Şagirdlərin orfoqrafik tələffüzlə danışmalarına ona görə səy göstərilir ki, onlar yazıda daha az səhv buraxsınlar. Bunun nəticəsində sinifdə elə bir vəziyyət yaranır ki, müəllim də, şagirdlər də həyatda, başqa bir yerdə mövcud olmayan süni bir dildə danışırlar. Nə şagirdlər, nə də müəllim sinifdən xaricdə həmin dildən istifadə etmirlər; belə ki, şagird dərs qurtaran kimi yenə öz dialektində, müəllim isə, adətən, ədəbi dildə danışır. Beləliklə, yerli dialekt və şagirdlərin hələ mənimsəmədikləri ədəbi tələffüzlə yanaşı, məktəbdə üçüncü bir tələffüz də tətbiq edilir; bu tələffüzü şagirdlər, demək olar ki, ədəbi tələffüzdən daha asan mənimsəyirlər. Axı belə halda şagirdlərdən, sadəcə olaraq, bir-birinin yanında düzülmüş hərfləri bütöv bir şəkildə oxumaq tələb olunur. Məktəb şəraitində belə bir vəziyyətə qətiyyən yol verilməməlidir».

A.V.Tekuçevin fikrindən məlum olur ki, yazılı dil orfoqrafik tələffüz vərdişlərinin yaranması və möhkəmlənməsi üçün əsas mənbədir. Bu mənbənin təsir obyektləri isə a) qiraət, b) orfoqrafiya üzrə işlər, c) müəllimin nitqidir.

Deməli, ikidillilik şəraitində orfoqrafik səhvlərin yaranmaması üçün müəllimin nitqi əsas şərtdir. Ona görə ikidillilik şəraitində ana dilinin tədrisində müəllimin nitqi Azərbaycan ədəbi danışıq dilinin normalarına uyğun olmalıdır.

c) Orfoqrafik normaları mənimsəmək və sözlərin deyilişi ilə yazılışını müqayisə etmək.

Müşahidə və təcrübələrdən aydın olur ki, yerli şivə xüsusiyyətlərinə malik orfoqrafiya normalarına əməl edilməsi orfoepik normaların mənimsənilməsinə əngəl törədir, bu prosesi ləngidir.

Orfoepik normalara əməl olunmaması, ədəbi tələffüz normalarının pozulmasının bir neçə cəhətini qeyd edə bilərik:

1) Ədəbi dildəki sözlərin yerli şivə xüsusiyyətlərinə müvafiq şəkildə tələffüz edilməsi: *babə-baba, berdən-birdən, bəle-bəli, əzob-əzab* və s.

2) Ədəbi dildəki sözlərin bir cəhətdən yerli şivə xüsusiyyətlərinə, digər cəhətdən ədəbi tələffüz normalarına müvafiq tələffüz olunması. Belə hal şüurlu olmayıb, yerli şivə xüsusiyyətlərinin təsiri altında baş verir: məsələn, talış şivəsi şəraitində şagirdlərin nitqində çox vaxt *istirohət-istirahət, mırəkkəb-mürəkkəb, səhlənkorr-səhlənkar* və s. şəklində səhvlərə yol verilir.

3) Ədəbi dildəki sözlərin ədəbi tələffüzdən, yerli şivədən və orfoqrafik tələffüzdən fərqli tələffüz olunması. Belə tələffüz çox az diqqəti cəlb edən nöqsanlardır: məsələn, *tapmaca* sözü ikidillilik şəraitində *tapmacə -tappaca-tapmaca* və s. şəkildə tələffüz olunur. Bu həm ədəbi danışıq dilinin normalarını pozur, həm də orfoqrafik vərdişlərin inkişafının qarşısını alır.

Göstərilən orfoepik noqsanları aradan qaldırmaq üçün ikidillilik şəraitində sözlərin deyilişi ilə yazılışını müqayisə etmək əsas metodlardan biridr.

İkidillilik şəraitində orfoqrafik səhvlərin aradan qaldırılması məqsədilə aşağıdakı şəkillərdə cədvəllər tərtib etmək olar:

| Belə yazılır | Belə deyilməlidir | Talış dilində belə deyilir |
|---|---|---|
| pomidor | pamidor | pamədor |
| aşıq | aşıx | aşığ |
| bağça | baxça | boxçə |
| qaçaq | qaçax | qoçəğ |
| əgər | əyər | əqər |
| zavod, | zavot | zəvod |
| karton, | kardon | kərbon |
| konfet | kanfet | kənfet |
| gonbul | gombul | qombul |
| məqsəd | məxsəd | məgsəd |
| mürəkkəb | murəkgəb | murəkqəb |
| ağac | ağaç | ağəc |
| doqquz | dokquz | dokqoz |
| bıçaq | bıçax | piçağ |
| vurmaq | vurmax | üməq |
| qanad | qanat | qənət |
| toqqa | tokqa | tokqə |
| əxlaq | əxlak | əxlağ |
| canlı | cannı | canli |
| hüquq | hüquk | hüqüq |
| taxta | taxda | taxtə |
| saqqal | sakqal | səkqal |
| parovoz | paravoz | parəvoz |

İkidillilik şəraitində belə səhvlər üzərində daha geniş təhlil aparmaq məqsədəuyğundur

ç) Proqram və dərsliklərdə orfoepik normaların mənimsənilməsinə əməl olunması.

İbtidai siniflərdə ana dilinin tədrisinin əsas məqsədi I sinifdə savad təliminə hazırlıq dövründən başlayaraq istər ikidillilik, istərsə də adi şəraitdə şagirdlərin orfoepik tələffüz vərdişlərinin inkişaf etdirilməsidir. Proqramın tələblərinə əsasən dərsliklərdə buna əməl olunması üçün kifayət qədər tapşırıqlar var. Əlifba təlimi dövründən başlayaraq isə şagirdlərə nitqin səs mədəniyyətinin gözlənilməsi (nitq eşitmə qabiliyyətinin inkişaf etdirilməsi, nitq prosesində tələffüz üzərində işin qaydaya salınması, ünsiyyət şəraitinə görə səs gücünün tənzimlənməsi, nitq səs-

lərinin düzgün tələffüzü, nitqin sürətinin gözlənilməsi nitqin intonasiya ifadəliliyi və s.), şifahi və yazılı nitq haqqında ümumi məlumat verilir. Şagirdlərin nitqindəki fonetik,dialekt və şivə xüsusiyyətlərinin aradan qaldırılması üçün işin təşkil olunması üzərində müəyyən işlər görülür. Bu da gələcəkdə orfoqrafik səhvlərin qarşısını almaq üçün əsas şərtdir.

II sinfin Azərbaycan və talış dili proqram və dərsliklərinin əsas məqsədi: savad təlimi dövründə səs və hərf üzrə praktik vərdişlərin aşkara çıxarılması, səs və hərf haqqında anlayışların verilməsi, onlar arasında fərqin olması, dildə səsin hərfdən çox olması, talış dilində *ü* foneminin tələffüzünə görə Azərbaycan dilindəki *ü* və *u* fonemlərinin fərqi, *ı* foneminin qısalığı, sözlərdə *k* samitinin kar qarışığı, talış dilində *k* və *q* samitlərinin *u* və *e* saitlərindən əvvəl işlənməsi prosesində yaranan foetik hadisə, talış dilində vurğunun Azərbaycan dilində olduğu kimi çox vaxt sözün axırında düşməsi kimi qaydalara əməl etməkdir. Bu da ikidillilik şəraitində orfoepik normalara əməl olunması üçün şərait yaratmaqla orfoqrafik səhvləri azaldır.

III sinif Azərbaycan və talış dili proqram və dərsliklərinin əsas məqsədi həmin sinifdə orfoepik vərdişləri inkişaf etdirmək üçün Azərbaycan və talış dillərindəki sait və samitlərin fərqi, ahəng qanununun mahiyyəti, sözlərin düzgün tələffüz edilməsi, kar və cingiltili samitlərin fərqi, nitq hissələri haqqında qaydaları mənimsətməkdir. Bu da onlarda yerli şəraitə uyğun olaraq yaranan orfoqrafik səhvlərin qarşısını alır.

IV sinif Azərbaycan və talış dili proqramlarının tələblərinə əsasən dərsliklərdə orfoepik normalara əməl olunması üçün kök və şəkilçi, eyniköklü sözlər, sözüzəldici və sözdəyişdirici şəkilçilər, nitq hissələri öyrədərkən hər iki dildə bir-birinə yaxın talış və Azərbaycan sözlərinin seçilməsi və onlar üzərində müəyyən işlərin aparılması üçün materiallar verilmişdir. Həmin materiallar ikidillilik şəraitində oroqrafik səhvlərin azalması üçün əsas şərtdir.

Beləliklə, ibtidai sinfin Azərbaycan və talış dili proqramlarının tələblərinə əsasən dərsliklərdə ikidillilik şəraitində orfoepiyanın təsiri ilə yaranan orfoqrafik səhvərin qarşısını almaq üçün tapşırıqlara yer verilir, lakin bunlar kifayət qədər deyil.

d) Müəllimin nəzəri və metodik hazırlığınının səviyyəsi.

Müşahidələr göstərir ki, talış tərkibli məktəblərdə bir çox qabaqcıl sinif müəlimləri proqram, dərslik, pedaqoji və psixoloji ədəbiyyata yaradıcı münasibət bəsləyir, özünün nəzəri və metodik hazırlığınının səviyyəsinin yüksəldilməsi üçün xüsusi çalışmalar tərtib edirlər. Onlar tələffüz üzrə məşğələlərə xüsusi yer verir, kiçikyaşlı məktəblilərin şifahi nitq vərdişlərini inkişaf etdirirlər. Bu da ikidillilik şəraitində orfoqrafik səhvlərin qarşısını almaq üçün əsas şərtlərdəndir.

Müəllimlərin bəziləri ana dili dərslərində şagirdlərin düzgün tələffüz vərdişərinə yiyələnmələri üzrə müntəzəm iş aparmır, şagirdlərin diqqətini Azərbaycan və talış dilləri üzrə oxşar və fərqli sözlərə yönəltmirlər. Onlar adi şəraitə uyğun tapırığın şərtini, tələbləri nəzərə alaraq öz işlərini tamamlanmış hesab edirlər. Səs və sözləri nə dərəcədə düzgün tələffüz etdiklərinə diqqət yetirmirlər. Sözlərin deyilişi ilə yazılışı arasında müqayisə üçün müəyyən cədvəllər tərtib etmirlər. İkidillilik şəraitində fonetikanın tədrisi zamanı fonetik və orfoepik nöqsanları araan qalırmaq üçün hansı təcrübi çalışmalar aparmağın lazım olduğunu bilmirlər, düzgün tələffüzlə bağlı fonetik hadisə və qanunları (uyuşma, səs artımı, səs düşümü, yerəyişmə və s.) nəzərdən qaçırırlar. Nəticədə ikidillilik (talış) şəraitində şagirdərin nitqində orfoepik qüsurlar yaranır. Bu da öz növbəsində orfoqrafik səhvlərin yaranmasına səbəb olur.

e) Şagirdlərin dili öyrənməyə marağı.

Təcrübə və müşahidələr göstərir ki, bir dildən başqa dilə (talış və Azərbaycan) keçmək üçün kiçik məktəb yaşlı şagirdlərdən müəyyən dərəcədə bacarıq (qabiliyyət) tələb olunur. Bu qabiliyyətlərdən səmərəli istifadə etmək üçün dil haqqında anlayış və hadısələri dərk etməkdən ötrü kiçikyaşlı uşağın öz ana dilinin bütün fonetik, orfoepik və orfoqrafik qaydaları bilməsi daha vacibdir, çünki doğma dilinin qrammatik qaydalarını bilməyən ikinci dili öyrənməkdə çətinlik çəkir.

Q.İ.Boqin tədqiqatlarında göstərir: «Ana dilinin tərkibində mənimsənilmiş münasibətlər sistemi başqa bir dili öyrənərkən hər iki dilin strukturunu, əsasən eyniləşdirməyə xidmət edir: məsələn, xarici dilin tərkibinə görə oxşar elementləri yada sala bilmək qabiliyyəti, müvafiq əməliyyatları ana dlində apara bilmək bacarığı ilə əlaqədardır. Milli məktəblərdə dilin öyrənilməsi üçün müəyyən bir keçid əlaqələrinin olması, üçüncü dilin öyrənilməsi işini xeyli yüngülləşdirir.

Belə ki, ikinci dili öyrənmək üçün eyni, oxşar və fərqli məfhumları qrupaşdırmaqla şagirdlərdə ikinci dilə yiyələnmək sahəsində kifayət qədər maraq yaratmaq olar»

İkidillilik şəraitində son on illərdə bu sahədə bir sıra təqdirəlayiq işlər görülür.

q) Məktəbin maddi bazası.

Müşahidələr göstərir ki, kidillilik şəraitində fəaliyyət göstərən məktəblərdə maddi texniki baza bir o qədər də qüvvətli deyil. Məktəblərdə, əsasən, əyani vəsaitlərdən, ən çox cədvəllərdən, rabitəli nitqi inkişaf etdirmək üçün şəkil üzrə inşaya aid şəkillərdən istifadə olunur. Təlimin texniki vasitələri: linqafon, valçalıran, maqnitafon və başqa texniki vasitələrdən az istifadə olunur. Halbuki, ikiillilik şəraitində orfoqrafik səhvləri yaradan düzgün olmayan tələffüzdür. Düzgün tələffüzü linqafonda eşitmək valçaldıranla ədəbi danışığa, maqnitafonla hər iki dildə öyrədilən yeni sözə qulaq asmaqla mənimsəmək olur.

Beləliklə, ikidillilik şəraitində orfoqrafik vərdişlərin inkişafı üçün lazım olan şərait yaratmaq mümkündür.

### Ədəbiyyat

1. Текучев А.В.. Методика преподования русского языка в средней школе. М., 1958, с. 210.

2. Богин О.И. Психологические вопросы учебного периода перевода. «Вопросы психологии», 1965, №1.

**Дж. Аббасов**

## Условия, обеспечивающие орфографическое развитие учащихся в условиях двуязчия

Одним из условий развития у учащихся начальных классов орфографических навыков в условиях двуязычия это развитие навыков устной речи. Обшие условия, обеспечивающие орфографические навыки следующие: чистота речи учащихся; чистота речи учителя; усвоение орфографических норм и сравнение произношения и правописания слов; соблюдение усвоения орфографических норм в программах и учебниках; уровень теоретической и методической подготовки учителей; интерес учащихся к изучению языка; материальная база школы.

# RİYAZİ BİLİKLƏRİN VERİLMƏSİNDƏ MƏSƏLƏ HƏLLİNİN ROLU

**İdris ƏLİYEV,**
ADPU-nun riyaziyyat və onun orta məktəbdə
tədrisi metodikası kafedrasının dosenti



Təcrübə göstərir ki, şagirdlərin riyazi hazırlığında, onların riyaziyyatı mənimsəmələrində, təfəkkürlərinin inkişafında məsələ həlli geniş yer tutmaqla, böyük əhəmiyyətə malikdir. Məsələ həlli ibtidai siniflərdən başlayaraq şagirdlərin zehni inkişafına güclü təsir göstərir.

İnsanlar yaşamaq üçün gündəlik həyatda bazar, ticarət, təsərrüfat, ialə təminatında çoxlu təcrübi məzmunla məsələlər həll etməli olurlar. Bunu yaşayışın təminatı tələb edir. Bu baxımdan ibtidai siniflərdən başlayaraq şagirdlərə təcrübi xarakterli, haq-hesab məsələ məsələlərini həll etməyi öyrətmək lazımdır.

Məsələ həllinin əsas məqsədi ədədlər üzərində əməllərə aid hesablama vərdişlərinin inkişaf etdirilməsi, gündəlik həyatda çox işlənən kəmiyyətlərlə, onlar arasındakı münasibətlərlə tanışlıq, sadə həndəsi təsəvvürlər formalaşdırmaq və bilikləri məsələ həlli və hesablamalara tətbiq etməyi öyrətməkdir.

Nəzərə almaq lazımdır ki, şagirdlərin ibtidai siniflərdə hesab məsələlərinin həllinə və onların tətbiqinə aid əldə etdikləri bilik və bacarıqlar yuxarı siniflərdə riyaziyatın və bir sıra qonşu fənlərin (fizika, kimya, coğrafiya və s.) mənimsənilməsində əhəmiyyətli rol oynayır.

Göründüyü kimi, məsələ həlli şagirdlərin riyazi bilikləri mənimsəmələri ilə yanaşı, onların politexnik hazırlığında da xüsusi əhəmiyyətə malikdir. Deməli, məsələlərin ancaq riyaziyyatı öyrənməkdə deyil, ümumiyyətlə, həyatda rolu böyükdür. Məsələ həllinin ən böyük rolu onun şagirdlərin əqli fəaliyyətini inkişaf etdirməsidir. Məsələ həlli prosesində şagirdlər şüurlu düşünmə qabiliyyətinə yiyələnirlər. Bu isə riyaziyyatın tədrisi qarşısında qoyulan əsas vəzifədir.

Zehni inkişaf etdirmək üçün məsələ həllinin rolu çox böyükdür. Pedaqoji ədəbiyyatda qeyd edildiyi kimi, riyaziyyat əqlin gimnastikasıdır. Təcrübə göstərir ki, bu gimnastikada (məşqdə) məsələ həlli mühüm rol oynayır.

İbtidai siniflərdə tədris vaxtının çox hissəsi məsələ həllinə sərf edilir. Müəllim bu vaxtdan müvafiq məsələlərin həlli vasitəsilə səmərəli istifadə etməlidir. Şagirdlərə qüvvələri və istedadlarına uyğun məsələlər həll etdirilməlidir. Məsələ elə seçilməlidir ki, şagirdlərdə riyazi düşüncənin, təsəvvür etmək, tez mənimsəmək qabiliyyətinin inkişafına, riyaziyyatı öyrənəmyə maraq formalaşmasına kömək göstərsin.

Məsələ həll edərkən şagirdlər məsələnin şərtində ifadə olunan gizli asılılıqları başa düşmək, məsələdə verilən və axtarılan kəmiyyətlər arasındakı qarşılıqlı asılılığı müəyyənləşdirmək və uyğun hesab əməlini seçmək bacarığına yiyələnirlər.

Bütün bunlar isə şagirdlərin zehnini, məntiqi düşünmək, fikrini düzgün ifadə etmək qabiliyyətini və nitqini inkişaf etdirir.

Məsələ həllinin öyrənilməsinə aid bir neçə nümunə:

**Məsələ 1.** Yolka ağacından 12 yaşıl və bundan 3 dənə çox qırmızı lampa asılmışdır. Yolka ağacında cəmi neçə lampa asılmışdı?

Həlli:

M. –Məsələdə tələb olunanı tapmaq üçün əvvəlcə nəyi tapmalıyıq?
Ş. – Yolka ağacından neçə qırmızı lampa asıldığını tapmalıyıq.
M. – Bunu necə tapaq?
Ş. – Bundan ötrü yaşıl lampaların sayına 8 əlavə edək. 12+8=20 lampa
M. – Yolka ağacından cəmi necə lampa asıldığını necə tapmaq olar?
Ş. – Burada 20 ilə 12-nin yerini dəyişsək cəm dəyişərmi?
Ş. – Yox. 20+12=32
M. – Bu, toplamanın hansı xassəsidir?
Ş. – Yerdəyişmə. Toplananların yerini dəyişdikdə cəm dəyişmir.

**Məsələ 2.** Dərzi 5 köynək tikdi. Köynəklərin hər birinə 3 metr parça işləndi. Köynəklərin hamısına neçə metr parça işləndi?

Həlli:

M. – Dərzi neçə köynək tikdi?
Ş. – Beş.
M. – Bir köynəyə neçə metr parça işlənib?
Ş. – Üç metr.
M. – Beş köynəyə neçə metr parça işləndiyini tapmaq üçün nə etməliyik?
Ş. – Bir köynəyə işlənən parçanın metrləri sayını göstərən ədədi beşə vurmalıyıq. 3 m · 5=15 m.
M. – Toplama əməlindən istifadə etməklə bunu necə tapmaq olar?
Ş. – Bundan ötrü üç metri beş dəfə toplamalıyıq.3m+3m+3m+3m+3m=15 m

**Məsələ 3.** Anbarda 986 s kartof var idi. Bir mağazaya 455 s, ikinci mağazaya isə birincidən 127 s az kartof göndərildi. Anbarda neçə sentner kartof qaldı?

Həlli:

Məsələnin məzmunu yazı taxtasında aşağıdakı kimi qeyd edilir:
Anbarda 986 s kartof var.
Göndərildi:
I mağazaya 455 s. kartof
II mağazaya I-dən 127 s az
Anbarda neçə sentner kartof qaldı?

$$\begin{array}{r} 455 \\ - \\ 217 \\ \hline 238\ \text{c} \end{array}$$

Şagirdlər məsələnin məzmununu danışırlar.
M. – Məsələnin sualına birbaşa cavab verə bilərsinizmi?
Ş. – Yox. Ona görə ki, biz bilmirik ki, ikinci mağazaya neçə sentner kartof göndərilmişdir.
M. – İkinci mağazaya neçə sentner kartof göndərildiyini necə tapmaq olar?
Ş. – Bundan ötrü 455-s-dən (birinci mağazaya göndərilən kartofdan) 217 sentner çıxırıq.

$$\begin{array}{r} 455 \\ + \\ 238 \\ \hline 793\ \text{c} \end{array}$$

İkinci mağazaya 238s kartof göndərilib.
M. – İki mağazaya birlikdə neçə s. kartof göndərilmişdir?
Şagirdlər tapırlar:
Anbarda neçə s. kartof qalmalıdır?
Cavab: 193 s.

$$\begin{array}{r} 986 \\ - \\ 793 \\ \hline 193\ \text{c} \end{array}$$

Müəllim verilənlərə əsasən şagirdlər tərəfindən sadə məsələlərin tərtib oluaraq həll edilməsinə də nail olmalıdır.

# RİYAZİYYATIN PRAKTİK İSTİQAMƏTİNİN TƏLİMİN KEYFİYYƏTİNƏ TƏSİRİ

**Valeh MƏMMƏDOV,**
Azərbaycan Müəllimlər İnstitutunun baş müəllimi



İnsanların təcrübədən əldə etdiklərinə nisbətən nəzəriyyədən əldə olunanlar az yadda qalır. Təcrübə göstərir ki, çalışmaların yerinə yetirilməsi prosesində biliklərin əlli faizi yadda qalır, əldə edilən yeni biliklərin tətbiqi prosesində isə mənimsəmə xeyli artır.

Nəzəri materialın praktika ilə əlaqələndirilməsi idrak nəzəriyyəsinin ən aktual məsələlərindəndir. Bu, hər bir müəllimi düşündürür, çünki nəzəriyyənin praktikaya tətbiqi, riyazi anlayışı düşünülmüş şəkildə mənimsəməyə şərait yaradır. Hesab materialının öyrədilməsində həndəsə materiallarından geniş istifadə olunur.

2+ 3 = 5 misalını aşağıdakı kimi izah etmək olar:







Müəllim, şagirdlərin biliklərinə istinadən toplamanın yerdəyişmə qanununu da şərh edə bilir. Belə ki, $2+3=5$; $3+2=5$ və $a+b=b+a$ nəticəsinə gəlirlər. Daha sonra vurmanın yerdəyişmə qanununu düzbucaqlını xanalara (kvadratlara) bölməklə izah etmək mümkündür. Hər iki halda müəllim şagirdlərin əvvəlki biliklərindən istifadə edir. Şagirdlər dərsin mərhələlərində fəal iştirak edirlər. Müəllim nəzərdə tutduğu məsələləri mənimsədə bildiyindən şagirdlər çalışmaların həllində çətinlik çəkmirlər.

İbtidai siniflərdə kəmiyyətlərin öyrədilməsindən məqsəd:

1) şagirdlərin əldə etdikləri riyazi bilikləri həyatla əlaqələndirmək;

2) kəmiyyətləri öyrətməklə, şagirdlərdə fəza təsəvvürləri inkişaf etdirmək, onları təhsilin sonrakı mərhələsinə hazırlamaq;

3) kəmiyyətləri ölçməyi öyrətməklə, şagirdlərin həyatda zəruri olan biliklər qazanmalarını təmin etmək;

4) kəmiyyətləri öyrətməklə onların ədəd, hesab əməlləri, həndəsi fiqurlar haqqındakı təsəvvürlərini genişləndirmək.

«Kəmiyyətlər» proqramda və dərslikdə ayrıca deyil, digər mövzularla birlikdə öyrədilir. Burada əsas çətinlik müəllimin üzərinə düşür, çünki bəzən müəllim dərslikdəki materialla kifayətləndiyi halda, bəzən əlavə vəsaitlərdən də istifadə edə bilər. Bu zaman o, seçdiyi materialın şagirdlərin bilik səviyyəsinə uyğun olduğunu nəzərə alır. Müəllim şagirdlərə «miqdar», «qiymət», «dəyər», «gedilən yol», «sürət», «zaman» anlayışlarını, eləcə də kütlə vahidlərini öyrədərkən adlı ədədlərin xırdalanması, çevrilməsi üzərində də iş aparmalı olur. Şagirdlərin bilik səviyyəsini nəzərə alaraq müəllim işi aşağıdakı şəkildə təşkil edə bilər.

Müəllim dialoq təşkil edir:

– Zəhra və Mehriban yeni il şənliyi üçün ulduz hazırlamaq tapşırılmışdır. Zəhra 2 saata 32 ulduz, Mehriban 3 saata 45 ulduz hazırladı. Qızlardan hansı tez işləyirdi?

Şagirdlər Zəhranın az ulduz hazırladığını görüb, onun az işlədiyini söyləyirlər. Müəllimin istiqamətverici sualı əsasında kimin sürətlə və ya ləng işlədiyini bilmək üçün, 1 saat ərzində hansı qızın neçə ulduz hazırladığını bilməyin vacib olduğunu yəqin edirlər. Zəhranın 1 saatda *32:2=16* (ulduz), Mehribanın 1 saatda *45:3=15* (ulduz) hazırladığını tapırlar. Buradan aydın oldu ki, Zəhra sürətlə işləyirmiş, çünki o, bir saatda 16 ulduz, Mehriban isə 15 ulduz hazırlamışdır.

Bu məsələnin həllindən alınan nəticəni müəllim «işin sürətinin tapılması», «məhsuldarlıq» adlandığını söyləyir. Şagirdlərə başa salır ki, həll etdikləri məsələdə Zəhranın məhsuldarlığı isə saatda 16 ulduz, Mehribanın məhsuldarlığı 15 ulduzdur.

Şagirdlərdə bir qədər çaşqınlıq yaranır, lakin müəllimin ustalığı bu gərginliyi aradan qaldırır. O qeyd edir ki, *məhsuldarlıq - vahid zamanda yerinə yetirilən işdir*. Elə ona görə də yerinə yetirilən işi - $A$ hərfi, məhsuldarlığı - $V$ hərfi, işin yerinə yetirilmə vaxtını - $t$ hərfi ilə işarə edirlər. Deməli, $A = V \cdot t$ yaza bilərik. Bu ifadənin düstur (bərabərlik) olduğunu bilirsiniz. Buna işin düsturu deyilir. Düsturun mənası belə ifadə olunur: «İş, əmək məhsuldarlığı ilə işin yerinə yetirilməsi vaxtının hasilinə bərabərdir».

Bu düsturdan məchul vuruğun tapılması qaydasına əsaslanaraq $V$ və $t$ kəmiyyətlərini də tapmaq olar. Şagirdlər müəllimin rəhbərliyi ilə $V = A:t$ yazırlar.

«Məhsuldarlıq işin, işin yerinə yetirilməsi vaxtına bölünməsindən alınan qismətə bərabərdir». Bu ifadəni digər şagird yazır: $t = A:V$.

| | |
|---|---|
| A= V · t | iş=məhsuldarlıq · zaman |
| t=A:V | məhsuldarlıq= iş : zaman |
| V=A:t | zaman =iş : məhsuldarlıq |

Daha sonra müəllim ümumiləşdirmə aparmaqla «İşin yerinə yetirilməsi vaxtı, işin məhsuldarlığa bölünməsindən alınan qismətə bərabərdir» deyir və bilikləri yekunlaşdırır.

Nəzəri materialın şərhindən sonra müəllim biliklərin möhkəmləndirilməsi məqsədilə çalışmalar həllinə başlayır.

Çalışmalar aşağıdakı məzmunda ola bilər.

Verilmiş cümlələrdəki məzmunu izah edin:

1. İradə kompyuterdə dəqiqədə 120 işarə çap etmək məhsuldarlığı ilə işləyir.
2. Jalə ayda 5 don tikmək məhsuldarlığı ilə işləyir.
3. Əli saatda 3 vedrə kartof yığmaq məhsuldarlığı ilə işləyir.
4. Fəhlə bir saatda 8 detal hazırlayır. O, 2 saatda, 4 saatda, 6 saatda, 7 saatda, 9 saatda neçə detal hazırlayır?

Bu məzmunlu məsələlərin həllinə uyğun şagirdlər cədvəl tərtib etməklə fəhlənin əmək məhsuldarlığını tapa bilirlər. Təlimin həyatla əlaqəsini və biliklərin tətbiqini artırmaq məqsədilə dərsdə belə məsələlərə üstünlük verilməlidir. Məsələlərin həlli riyaziyyatın şagirdlərin nəzəri biliklərinin praktik tətbiqini göstərməyə imkan verir. Məsələlərin məzmunundan asılı olaraq, şagirdlər sərbəst düşünə bilir, axtarış aparmaqda sərbəstlik, həlli sona çatdırmaq üçün inadkarlıq göstərirlər, həllin düzgün cavabını tapdıqda sevinirlər, nəyisə «kəşf» etdiklərini dərk edirlər. Beləliklə, onların inamı artır, qazandıqları biliklərin gərəkli olduğunu hiss edirlər. Sonrakı dərslərdə öyrənilən hər yeni materialın mənimsənilməsi üçün əsas zəmin yaranır. Bunlarla yanaşı, şagirdlər şəxsi fikirlərini sərbəst söyləyə bilir, yoldaşlarının tənqidi mülahizələrinə müstəqil yanaşır, düzgün nəticə çıxarmağı bacarırlar. Bununla bir daha «riyaziyyat əqlin gimnastikasıdır» fikri təsdiqlənir.

Riyaziyyat dərslərində müəllimlər qeyd etdiyimiz bu fikirləri əsas tutaraq aşağıdakı məzmunlu məsələlərin də həllini şagirdlərə öyrədə bilirlər.

1. "Usta saatda 8 detal yonur. O, 2 saata, 4 saata, 6 saata, 7 saata, 9 saata, $t$ saata neçə detal yona bilər? Cədvəli doldurun və $t$ vaxtından asılı olaraq ustanın gördüyü $A$ işin düsturunu yazın".

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| $t$ saat | | | | | | |
| $A$ detal | | | | | | |

$V$ = 8 detal / saat

$A = \ldots$

Bu məsələnin həlli şagirdlər üçün çətinlik yaratmır, çünki onlar hərəkətə aid məsələlər həllində buna oxşar tapşırıqlar icra etmişlər, lakin müəllim bu məsələnin məqsədini açmalıdır. Məsələnin həllinin yerinə yetirilməsi, şagirdləri gələcəkdə funksional asılılığın öyrədilməsinə hazırlıqdır.

Şagirdlər məsələnin həllinə işin düsturunun yazılışı ilə başlayır. $A = V \cdot t$ yazmaqla cədvəli doldururlar. Şagirdlər üçün nisbətən çətin olan sonuncu hesablamanı " $A = 8 \cdot t$ kimi yazmaqla" izah etmək kifayət edir.

2. Jalə 36 boşqab yumalıdır. O, dəqiqədə 2 boşqab yuyursa, 3 boşqabı, 4 boşqabı, 6 boşqabı, 9 boşqabı, $V$ boşqabı nə qədər vaxta yuya bilər? Cədvəli doldurun. $t$ - zamanında görülən işin $V$ məhsuldarlıqdan asılı olan düsturunu yazın.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| $V$ boşq/dəq. | 2 | 3 | 4 | 6 | 9 | $t$ |
| $t$ - zaman | | | | | | |

$A$ = 36 boşqab; $t = \ldots$

3. Vasif bostanı 3 saata suvara bilər. O, saatda 4 vedrə, 6 vedrə, 8 vedrə, 9 vedrə m vedrə su gətirərsə, neçə vedrə su gətirər? Cədvəli doldurun, həmçinin vedrələrin ümumi sayından asılı olan $A$ işinin $V$ məhsuldarlığından asılı olan düsturunu yazın.

| $V$ vedrə /saat | 4 | 6 | 8 | 6 | 9 | $V$ |
|---|---|---|---|---|---|---|
| $A$ vedrə | | | | | | |

$t = 3$ saat

$A = \ldots$

4. Zavod gündə 208 avtomobil istehsal edir. Bir ildə (365 gündə) zavod nə qədər maşın istehsal edər?

5. Bir operator kompyuterdə 5 saata 60 səhifə, digəri 7 saata 63 səhifə əlyazması yığa bilir. Operatorlardan hansının məhsuldarlığı çoxdur?

6. Tikiş sexi 6 günə 1926 kostyum tikdi. Sex bu məhsuldarlıqla işləyərsə, bir ildə (365 gün) neçə kostyum tikə bilər?

7. Ekskavator 1 saatda 18 m kanal qazır. Kanallardan birini 7 saata, digərini 19 saata qazarsa, keçən vaxt ərzində ekskavator neçə m kanal qazmışdır? (Əvvəlcə 7 saatda neçə m, sonra 19 saatda neçə m kanal qazıldığını tapmaqla, yekunu cəmləməklə məsələnin sualına cavab vermək olar).

| | $A$ | $V$ | $t$ |
|---|---|---|---|
| I | 18 | 126 | 7 |
| II | | | |

8. İki dost kitabxanadan eyni kitablar aldılar. Dostlardan biri gündə 8 səhifə, digəri 9 səhifə oxuyurdu. Kitabın 360 səhifəsi olarsa, onlardan hansı bu kitabı tez və nə qədər vaxt tez oxuyar?

| | $A$ | $V$ | $t$ |
|---|---|---|---|
| I | 360 | 8 | 45 |
| II | 360 | 9 | 40 |

Göstəriş:

1) 360 : 8 = 45 (saat)

2) 360 : 9 = 40 (saat)

3) 45 - 40 = 5 (saat).

9. Ülviyyənin 24 qəpiyi var. O, bu pula 3 marka və ya 4 açıqca ala bilər. Açıqca markadan nə qədər ucuzdur?

Bu məsələnin həllinə şagirdlərin «qiymət», «miqdar», «dəyər» haqqındakı biliklərini təkrar etməklə başlamaq daha münasibdir, çünki şagirdlər, məsələnin məzmununu dərk etməklə əvvəlcə: 1) 24:3=8 (qəp.); 2) 24:4=6 (qəp.) tapacaqlar, yəni bir markanın 8 qəp., 1 açıqcanın 6 qəp. olduğunu deyəcəklər.

Məsələnin sualına cavab vermək üçün (8-6=2 (qəp.)) yazmaqla 2 qəpik ucuz olduğunu deyəcəklər.

10. Tornaçı 3 günə 240 detal yonur, şagird bu işi 4 günə görə bilir. Tornaçının məhsuldarlığı şagirddən nə qədər çoxdur?

Göstərilən məsələlərin hamısı nəzəri materialın dərindən mənimsənilməsinə imkan yaradır, şagirdlərin dərslikdə şərh olunan tədris materialını asanlıqla mənimsəmələrinə kömək edir, biliklərini elmi əsaslandırmağa hazırlayır,bu biliklərə ehtiyac olduğunu dərk etdirir, alınan biliklərin tətbiqinə imkan yaradır, müstəqil fikir yüyütməyi təmin edir.

Bir sözlə, riyaziyyatın praktik istiqamətinin artırılması üçün, şagirdlərdə aşağıdakı bilik və bacarıqların formalaşdırılmasına diqqət yetirilməlidir:

- şagirdlərin bilik səviyyəsinə uyğun real məsələlərin riyazi modelinin qurulması və araşdırılması;
- məsələlərin həlli üçün lazım olan verilənlərin seçilməsi, nəticələrin doğruluğunun dəqiqliyi;
- uyğun bölməyə aid biliklərin sistemə salınması;
- nəticənin alınması üçün praktik üsulun həll üçün seçilməsi;
- istifadə edilən kəmiyyətlərin ardıcıllığı;
- müxtəlif kəmiyyətlər üzərində əməllərin aparılması;
- həllin doğruluğuna nəzarət metodunun seçilməsi və s.

**Ədəbiyyat**

1. Актуальные проблемы методики обучения математика в начальных классах. М., Педагогика, 1977.

2. Фридман А.М. Психолого- педагогические основы обучения математике и школе. М., 1983.

3. Махмутов М.И. Современный урок. Дидактика. М., 1985.

4. Истомина Н.Б. Методика обучения математике в ачальных клаасах. Учебное пособие, М., 2002.

5. Həmidov S.S. İbtidai siniflərdə riyaziyyatın tədrisi metodikası. Bakı, 2004.

6. Mehrabov A.O. və b. Pedaqoji texnlogiyalar. Bakı, 2006.

7. Ağayev Ə. A. Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2006.

**Воздействие повышения практической направленности обучения математике на качество обучения**

**Резюме**

В статье рассматриваются вопросы, связанне с повышением практической направленности обучения математике в начальных классах и воздействие этого подхода на качество знаний учашихся. Для достижения указанной цели в статье даны соответствующие примеры решения задач, связанных в основном, с повышением производительности труда в современных условиях. Рассматриваются также вопросы математического моделирования в процессе решения предложенных задач.

# HƏNDƏSİ BİLİKLƏRİN BÜNÖVRƏSİ İBTİDAİ SİNİFLƏRDƏ QOYULUR

**Mönsüm ALIŞOV,**
pedaqoji elmlər namizədi,
Sumqayıt Özəl Orta İxtisas Kollecinin direktoru



Təcrübə göstərir ki, orta məktəbdə öyrədilən fənlərdən şagirdlər üçün nisbətən çətin olanı riyaziyyat fənnidir. Bü fənnin hesab, cəbr, həndəsə və analizin başlanğıcları kimi bölmələri var. Həndəsənin müstəqil fənn kimi tədrisi əyani-illüstrativ materiallarla müşayiət olunmasına baxmayaraq, şagirdlər tərəfindən çətin mənimsənilir. Qarşıya çıxan çətinliyin səbəblərinin aşağıdakı faktlarla əlaqəli olduğu qənaətinə gəlmişik:

1.Həndəsənin deduktiv elm, şagirdlərin təfəkkur tərzlərinin isə daha çox induktiv mühakimə formasına meylli olması.

2.Həndəsi materialların tədrisinin yüksək səviyyədə aparılması.

3.Riyazi biliklərin mahiyyətcə eyni həqiqətlərə aid olub, müxtəlif şəkillərdə ifadə olunması ideyasının aşkar edilməsi.

4.Həndəsə materialının tədrisi prosesində siniflərarası varisliyin lazımi səviyyədə reallaşdırılmaması.

5.Tədris-metodik vasitələrin didaktik keyfiyyətinin lazımi səviyyədə olmaması.

Mövcud tədris planına əsasən, I-VI siniflərdə həndəsənin hazırlıq kursu, VII-XI siniflərdə isə sistematik kursu öyrənilir. Həndəsənin hazırlıq kursu şərti olaraq, I-IV siniflər üzrə və V-VI siniflər üzrə olmaqla iki mərhələdən ibarətdir. Hər iki mərhələdə həndəsə materialı hesab və cəbr materialları ilə əlaqəli şəkildə tədris olunaraq, şagirdlərin ədəd, hesab əməli və fəza formaları haqqında təsəvvürlərini formalaşdırmaq və anlayış səviyyəsinə çatdırmaq vəzifəsini daşıyır.

Uşaqlarda fəza təsəvvürlərinin yaradılması hələ bağça yaşlarından başlayır. I-IV siniflərdə isə şagirdlərdə onların həyat təcrübəsi və ətraf mühitdəki müşahidələri əsasında ilkin fəza təsəvvürləri formalaşdırılır. Məhz həndəsi materialın tədrisi ilə uşaqlarda forma, ölçü, nəhayət, ədəd anlayışı haqqında intuitiv biliklər yaradılır. Bu da real aləm haqqında obyektiv dünyagörüşün formalaşmasına kömək edir, çünki həndəsə -real aləmin fəza formalarını modelləşdirən elmdir. Riyaziyyata verilən klassik tərifdə «Riyaziyyat-real aləmin fəza formaları və miqdarı münasibətləri haqqında elmdir» aydın görünür ki, fəza formaları kəmiyyətlərlə bilavasitə bağlı olub, ölçməni zəruri edir. Kəmiyyəti ölçmə nəticəsi isə ədədlə ifadə olunur. Bu prinsip I-VI siniflərin riyaziyyat kursunda öz tətbiqini tapmışdır. Həndəsi fiqurların təlimi ədəd anlayışı və hesab əməlləri ilə əlaqələndirilir. İbtidai siniflərdə şagirdlər fəza formaları kimi, stereometriya fiqurlarından kub, düzbucaqlı paralelopiped və kürə ilə də tanış olurlar. Bu fiqurlar haqqında əldə edilən biliklər onların xarici forması ilə bağlıdır.

I-IV siniflərdə öyrənilən həndəsə materialı (Həndəsi anlayışlar: düz xətt, düz xətt parçası, çoxbucaqlı və onun növləri, bücaq, parçanın uzunluğu, çevrə, dairə, fiqurun sahəsi, uzunluq və sahənin ölçülməsi, onların qiymətlərinin hesablanması və s.) genişləndirilmiş və dərinləşdirilmiş şəkildə V-VI siniflərdə hesab və cəbr materialı ilə üzvi əlaqədə öyrənilir.

I-VI siniflərin riyaziyyat kursunda həndəsə materialının bu şəkildə qoyuluşu VII-XI siniflərdə həndəsənin sistematik kursunu öyrənməyə xidmət edir. Bu yanaşmanı reallaşdırmaq üçün ibtidai siniflərdə həndəsə materialının tədrisi xüsusiyyətlərini nəzərə almaq lazımdır.

I-IV siniflərdə həndəsə materialının öyrədilməsi vəzifələri aşağıdakılarla müəyyən olunur:

1. Uşaqlarda həndəsi fiqurlar: nöqtə, düz xətt, düz xətt parçası, bucaq, üçbucaqlı, kvadrat, çoxucaqlı, düzbucaqlı və s. haqqında düzgün və aydın təəvürlərin formalaşdırılması.

2. Həndəsi fiqurları çertyoj alətləri ilə və onlarsız qurmaq üçün praktik bacarıq və vərdişlərin formalaşdırılması.

3. Şagirdlərin fəza təsəvvürlərinin formalaşdırılması.

Bütün bü vəzifələrin həyata keçirilməsi üç mərhələdə aparılır.

I mərhələdə – həndəsi fiqurlarla praktik iş əsasında şagirdlərdə həndəsi fiurlar haqqında ümumi təsəvvürlərin aşkar edilməsi və dəqiqləşdirilməsi.

II mərhələdə – fiqurlarla praktik iş əsasında şagirdlərdə fəza təsəvvürlərinin formalaşdırılması.

III mərhələdə – xüsusi seçilmiş məsələ və misallar əsasında həndəsi fiqurların kağız və kartondan hazırlanması, çertyoj alətlərilə sadə qurmaların yerinə yetirilməsi.

Həndəsi kəmiyyətlərin ölçülməsi işi də həndəsi bacarıq və vərdişlərə aid edilir. Belə ki, gözəyarı ölçmə və həm də alətlər vasitəsilə ölçmə öyrədilir.

İbtidai siniflərdə şagirdlər çevrə və dairə ilə tanış olur, çevrənin pərgar vasitəsilə qurulması vərdişini qazanırlar.

Ümumiyyətlə, ibtidai siniflərin riyaziyyat kursunda nəzərdə tutulan həndəsi materiallara dair şagirdlər əldə etdikləri bilik, bacarıq və vərdişlərlə V sinfə keçirlər. Məhz V sinifdə dərs deyən riyaziyyat müəllimi həmin biliklərin hansı dərəcədə əsaslı olub-olmadığını müəyyən edir.

Təcrübə göstərir ki, V-VI siniflərdə şagirdlərin həndəsi bilik və vərdişlərində bir sıra nöqsanlar mövcud olur ki, onlar da I-IV siniflərdə əldə edilən biliklərlə əlaqədardır. Bü nöqsanları aradan qaldırmadan V-VI siniflərdə şagirdlərin həndəsi biliklərini genişləndirmək və dərinləşdirmək olmaz. İndi xarakterik olan həmin nöqsanları və onların aradan qaldırılması yollarını göstərək.

I-IV siniflərdə riyaziyyatdan aparılmış yoxlamalar tədris proqramı əsasında olmaqla, aşağıdakı məqsədləri daşımışdır:

1) şagirdlər həndəsi fiqurları bir-birindən ayırd etməyi, onları təsvir etməyi (çəkməyi) bacarırlarmı?

2) Hansı kəmiyyətləri tanıyırlar və onları ölçməyi (düz xətt parçasını, müəyyən məsafəni addımla və gözəyarı ölçməyi) bacarırlar?

3) Çoxbucaqlının növlərini, elementlərini göstərməyi bacarırlarmı?

4) Çoxbucaqlının perimetrini və düzbucaqlı fiqurların sahələrini hesablamağı bacarırlarmı?

5) Hərəkətə aid və digər məzmunlu məsələlər həllində məsələnin məzmununa uyğun «şərti vahid» qəbul etməklə sxem və ya diaqram (şəkil) çəkə bilirlərmi?

6) Ən sadə həndəsi qurmaları (xətkeş pərgar vasitəsilə) bacarırlarmı?

7)Uzunluq və sahə vahidlərini, onlar arasındakı asılılıqları bilirlərmi?

Qeyd edilən sualların hər biri müvafiq siniflərin şagirdlərinə verilmişdir. Şagirdlərin cavablarını minimum səviyyədə qaneedici kimi qəbul etsək də, xeyli nöqsan və çatışmazlıqlar üzə çıxdı. Bunlar təsadüfi xarakter daşımır. Birinci səbəbi-müəlimin tətbiq etdiyi tədris metodikası ilə bağlıdır. Belə ki, müəllimlərin bir qrupu həndəsə materialının tədrisinə ciddi əhəmiyyət vermir, digər qrupu isə proqram tələblərini artırırlar. Birinci halda şagirdlərə verilən həndəsi məzmunlu çalışmalarda həndəsi fiqurların sadə xassələri, sadə qurmalar tətbiq olunmur. Şagirdlər hər bir həndəsi fiqura sanki bir şəkil kimi baxır və onun həndəsi mənasını dərk etmir, məsələlərin həllində əyani-illustrativ materialdan, müəyyən qədər dəqiq ölçülərə malik sxem və ya şəkillərdən faydalanmırlar. Əslində məsələ həlli prosesinin əyaniləşdirilməsi şagirdlərin həndəsi biliklərinin inkişafına böyük təsir göstərir. İkinci qrup müəllimlər həndəsə materialının tədrisində proqram tələblərinin artırmaqla, çox vaxt fiqurların formal təriflərindən, proqrama daxil olmayan anlayışlarından («Düz xətt parçası nəyə deyilir?», «Düzbucaqlı nəyə deyilir?») istifadə edirlər.

Bu iki yanaşmanın yaranmasına səbəb – I-IV siniflərin riyaziyyat kursunda həndəsə materialından hansının təsəvvür, hansının anlayış səviyyəsində verilməsini müəllimlərin ayırd edə bilməmələridir.

Belə yanaşmalar V-VI siniflərdə həndəsə materialının tədrisində də özünü göstərir.

Deməli, I-IV siniflərdə həndəsə materialının metodik cəhətdən düzgün tədris edilməsi V-VI siniflərdə onun səmərəli tədrisinə imkan yaradır. Bunu nəzərə alaraq sinif müəllimi:

1) dərsliklərdə həndəsi məzmunlu çalışmaları seçməli və əlavə mənbələr hesabına onların sayını artırmalıdır;

2) əyləncəli həndəsi çalışmalardan istifadə etməlidir;

3) fiqurun hissələrə ayrılması və müxtəlif fiqurlardan bir fiqurun düzəldilməsinə aid çalışmalardan istifadə etməlidir;

4) məsələ məzmunlu əyaniləşdirməyə xidmət edən həndəsi fiqurlardan istifadə etməlidir;

5) sadə həndəsi qurmalara aid çalışmalardan istifadə etməlidir.

Tədris prosesində həndəsi məzmunlu çalışmalar hesab və cəbr materialları ilə əlaqələndirilməlidir.

Şagirdlər çox vaxt xətkeş və ya ölçü lenti vasitəsilə hər hansı parçanın uzunluğunu ölçərkən səhvə yol verirlər: xətkeşin, ölçü lentinin başlanğıc «0» nöqtəsini nəzərə almayıb, «1» nöqtəsini başlanğıc kimi qəbul edirlər.

Bucağın, düz bucağın, düzbucaqlının qurulmasında, parçanın bərabər hissələrə bölünməsində şagirdlər çertyoj alətlərindən istifadə etməyi, demək olar ki, bacarmırlar. Bu işə IV sinifdə daha çox diqqət yetirmək lazımdır. Çertyoj alətləri vasitəsilə sadə həndəsi qurmaların yerinə yetirilməsi üç məqsədə xidmət edir:

a) Həndəsi fiqurların qurulması-fəza təsəvvürlərinin dinamik formalaşması təmin olunur;

b) Şagirdlər V-VI siniflərdə həndəsədən konstruktiv işlərin yerinə yetirilməsinə hazırlanırlar.

c) Fəza təsəvvürlərinin formalaşmasında şagirdin hissi və hərəki orqanları fəal iştirak etməklə, konstruktiv qurma vərdişləri yaranır.

Məhz buna görə də həndəsə materialına aid dərsdə praktik işlərə xüsusi yer vermək lazımdır. Həmin işlərin məzmununa – kağızdan, məftildən və digər materialdan həndəsi fiqurların hazırlanması, həndəsi fiqurlardan yeni fiqurun hazırlanması, modellərlə iş daxil edilmişdir. Bu məzmunda bir qədər mürəkkəbləşdirilmiş işlər V-VI siniflərdə davam etdirilir.

İbtidai sinif şagirdlərinə tanış olan həndəsi fiqurların ətraf aləmdə «tapılmalı», kombinasiyalı şəkillərdə həndəsi fiqurların ayırd edilməsinə aid çalışmalara vaxtaşırı yer vermək lazımdır.

IV sinif şagirdləri bir sıra hallarda «perimetr» və «sahə» anlayışlarını qarışdırırlar. Bunun səbəbini elmi-metodik ədəbiyyatda müstəvi fiqurların həm məhdud müstəvi hissəsi kimi və həm də xətti qapalı kontur şəklində verilməsində görürük. Həqiqətən, müstəvi sonsuz hamar səth mənasında işlədilir. Müstəvi fiqur isə müstəvinin məhdud hissəsi olduğundan, perimetrə və sahəyə malikdir. Deməli, müstəvi fiqurun birinci şəkildə intuitiv tərifi daha doğrudur. İkinci tərifi ciddi və dəqiq hesab etmək olmaz, çünki məftildən hazırlanmış düzbucaqlı (kontur) ilə kağızdan kəsilmiş düzbucaqlı şagirdlərdə həmin fiqur haqqında müxtəlif fikirlər yaradır. Əgər yuxarıda qeyd etdiyimiz hər iki fiquru düzbucaqlı hesab etsək, onda çevrə ilə dairənin heç bir fərqi olmamalıdır. Ona görə də hesab edirik ki, orta məktəbin həndəsə kursunda, həm də həndəsənin hazırlıq kursunda həndəsi fiqurlar bir formalı və birmənalı şəkildə şagirdlərə çatdırılmalıdır.

IV sinif şagirdlərinin yol verdikləri səhvlərdən biri-sahəni uzunluq ölçü vahidləri ilə ifadə etmələridir.

Riyaziyyat dərslərində terminoloji məsələlərə ciddi fikir verilməli və həndəsə məzmunlu məsələlərin həllində həm perimetrin və həm də sahənin hesablanması tələblərinə yer verməklə kəmiyyətlərin qiymətləri adlı ədədlərlə ifadə edilməlidir.

V-VI siniflərdə şagirdlərin həndəsi biliklərinin inkişafına nail olmaq üçün onların I-IV siniflərdə tanış olduqları həndəsi anlayışlarının siyahısını tərtib etmək lazımdır.

**Ədəbiyyat**


1. İbtidai siniflərin riyaziyyat proqramı, Bakı 2003.
2. Orta ümumtəhsil məktəblərinin riyaziyyat proqramı, Bakı, 2003.
3. Qaralov Z.İ. və b. «Riyaziyyat-1», «Riyaziyyat-2», «Riyaziyyat-3», «Riyaziyyat-4», Bakı 2005
4. Həmidov S.S., I-IV siniflərdə riyaziyyatın tədrisi metodikası, Bakı, 2004.
5. Mərdanov M. və b. «Riyaziyyat-5», Bakı, 2005.
6. Mərdanov M. və b. «Riyaziyyat-6», Bakı, 2005

**Основа геометрических знаний закладывается в начальных классах**
**Резюме**
Создание у детей пространственных представлений начинается с детского сада. А в I-IV классах у учащихся формируются первичные пространственные представления. В этих классах знания о прямой, многоугольника, длине отрезка, круге, площади фигуры и пр. изучаются в тесной связи с материалами математики и геометрии. Эти вопросы и рассматриваются в статье.

# NATURADAN RƏSMİN ŞAGİRDLƏRİN İNTELLEKTUAL SƏVİYYƏSİNƏ TƏSİRİ

**Yeganə CƏLİLOVA,**
*Sumqayıt Özəl Orta İxtisas Kollecinin müəllimi*



Təsviri incəsənət dərslərində naturadan rəsmin şagirdlərin intellektual inkişafına böyük təsiri var. Naturadan rəsm gerçəkliyin dərk edilməsinin effektli yolu olub, şagirdlərin intellektual səviyyəsinə təsir edir. O təkcə rəssamlar hazırlayan təhsil müəssələrində deyil, ümumtəhsil məktəblərində təsviri incəsənətin tədrisində də gərəklidir. Akademik məktəb keçmiş məşhur qrafiklər və boyakarlar tabloların yaradılması prosesində mürəkkəb yaradıcılıq məsələlərini həll edərkən nisbətən sadə işlər üçün də (məsələn, papağın, kürkün, qılınc üzərindəki ornamentin, camın, əlin darağının və s. təsvirində) daim naturaya müraciət etmişlər.

Bu bir daha naturadan rəsmin gerçəkliyin, xüsusilə onun estetik xüsusiyyətlərinin rəssam tərəfindən dərki üçün əhəmiyyətindən xəbər verir.

Şagirdlər naturadan rəsm zamanı əşyaların formasını, quruluşunu, mütənasibliyini, fəzada yerləşməsini, rəng çalarlarını daha effektli, hərtərəfli, dərindən və dəqiq qəbul etməyi öyrənirlər. Onlar müxtəlif real əşyaları naturadan çəkərkən, onların forma ahəngdarlığını müşahidə edərkən təbiətin gözəlliyini də görürlər. Bütün bunlar emosiya və hissləri inkişaf etdirir, təbiətə məhəbbət yaradır, şagirdlərin estetik zövqünü tərbiyə edir. Uşaqların təbiətdə müşahidə etdikləri, onlarda sevinc hissi yaradan gözəllik, rənglərin ahəngdarlığı uzun müddət onların yaddaşında qalır. Naturadan mənzərə, ağacların yarpaqlarını, budaqlarını, çiçəklərini çəkərkən, şagirdlər onları əhatə edən təbiətlə, onun forma və rənglərinin zənginliyi və rəngarəngliyi ilə maraqlanmağa başlayırlar. Bütün bunlar həm də tədris prosesində inteqrasiyaya xidmət edir.

Naturadan rəsm əyani tədris məşğələsi olub, adi karandaşla, akvarel boyalarla, qara tuşla yerinə yetirilir. Rəsmetmənin bütün qaydalarını şagirdlər naturadan rəsm dərsində öyrənirlər: məsələn, naturadan rəsm çəkərkən şagird formanın xüsusiyyətlərini, konstruksiyasını, təsvir olunan əşyanın səthinin fakturasını, onun fəza vəziyyətini, formanın perspektiv ixtisarını və işıq-kölgənin onun səthində paylanmasını, əşyanın rəng çalarlarını öyrənir. Yəni obyektin xarici görünüşünü və

texniki quruluşunu, fəza vəziyyətini, beləliklə də, real dünyanın əşyalarının vacib əlamətlərini ifadə edirlər, lakin bununla şagirdlər tərəfindən əşyaların gözlənilən xassə və keyfiyyətlərinin dərk olunması məhdudlaşmır. Naturanın bilavasitə qavranılması və onun vizual təhlili prosesindən qazandığı görmə təəssüratlarını şagird realist sənətin prinsiplərinin tələb etdiyi kimi maksimal dəqiqliklə vərəqin üzərinə qrafik, rəngkarlıq obrazları şəklində köçürməyə çalışır. Bunun üçün o, naturadan rəsmin qayda və qanunlarını, müxtəlif qrafika və rəngkarlıq materialları ilə işləmə yollarını öyrənməli və sonra daim təkmilləşdirməlidir. Bir sözlə, naturadan rəsm zamanı şagird tərəfindən gerçəkliyin müxtəlif qanunlarının, hadisələrinin, onların mürəkkəb dialektik əlaqəsində öyrənilməsi, dərk olunması baş verir.

Naturadan rəsm məşğələlərində hər bir şagirddə müstəqillik, təkidlilik, təşəbbüskarlıq, məqsədyönlülük, səliqəlilik, əməksevərlik kimi xüsusiyyətlər formalaşır. Təsviri fəaliyyət prosesində uşaqlar qrafik və mənzərə vərdişlərini mənimsəyir, ətraf aləmin əşya və hadisələrini müşahidə, təhlil etməyi öyrənirlər. Naturadan rəsm müşahidə qabiliyyətinin, təfəkkürün, yaddaşın, hisslərin və başqa psixi proseslərin inkişafına və formalaşmasına kömək edir. Eyni zamanda burada alınan bilik, bacarıq və vərdişlərdən başqa dərslərdə, həm də gələcək əmək fəaliyyətində geniş istifadə edilir.

Naturadan rəsmin ümumtəhsil əhəmiyyəti ondadır ki, rəsm prosesi zamanı şagirdlərin yiyələndikləri bilik, bacarıq və vərdişlər demək olar ki, bütün peşələrdə zəruri olur. Doğrudan da rəsm çəkmək, gerçəklik obyektlərini xəyalında təsəvvür etmək həm dülgərə, çilingərə, qaynaqçıya, konstruktora, mühəndisə, memara, təyyarəçiyə, həkimə, coğrafiya, biologiya müəlliminə və bir çox başqa ixtisaslara gərəkdir. Rəngşünaslıq məsələlərindən xəbərdar olmaq və rəng çalarlarını düzgün qavramaq inşaatçılara, sürücülərə, aqronomlara, kosmonavtlara və bir çox başqa peşə sahiblərinə lazımdır. Elə bir ixtisas demək çətindir ki, orada şəkil çəkmək və ya gerçək dünyanın obyektlərini fəzada təsəvvür etmək bacarığı tələb olunmasın.

Rəsm çəkmək hərbiçilərə hava döyüşlərində kömək edə bilər. Səsdən sürətli təyyarəçilərə hava döyüşlərində çox zəruri olan reaksiya sürətin, əllər və gözlərin hərəkətlərinin əlaqələndirilməsindən, dəqiqliyindən asılıdır. Yerli relyefi yaxşı bilmək, fəza münasibətlərini düzgün, vizual qavramaq və xəyalında təsəvvür etmək, hərbi obyektlərin rəng və işıqla maskalanması – hərb sənətinin zəruri şərtlərindəndir. Təsviri incəsənətlə yaxından tanışlıq insana hətta hərbi vəziyyətdə də kömək edə bilər. Əgər əsgər rəsm çəkməyi bacarırsa, düşmənin arxasında olmuş kəşfiyyatçı düşmən qüvvələrinin yerləşməsi haqqında daha müfəssəl, dəqiq və aydın məlumat verə bilər. O, istənilən ərazidə durduğu yerin cəhətini dəqiqləşdirir, yolu yadda saxlayır, çünki şəkil çəkə bilən adamlarda, adətən, müşahidəçilik qabiliyyəti güclü olur, görmə yaddaşı və fəza təsəvvürləri yaxşı inkişaf edir.

Müstəvidə təsvirə yiyələnmənin bu mürəkkəb, mücərrəd yolu təfəkkürün və gerçəkliyin konkret hissi qavranmasına, təsvirin birliyinə əsaslanan idrakın inkişafı ilə bağlıdır. Nə qədər müşahidələrin, biliklərin, təsəvvürlərin qəbulu prosesi çoxcəhətlidirsə, görünənin müstəvidə əksi şüurlu, müxtəlif təsvirlərin gerçəkliklə qarşılaşdırılması nə qədər zəngindirsə, onun işinin nəticələri bir o qədər inandırıcı olur.

Bununla yanaşı, müstəvidə görmə təsəvvürünün, fantaziyanın ən gözlənilməz, zəngin obrazlarını vermək olar. Təsvirdə təkcə əşyaları deyil, həm də fəzanı, rəngi, havanı, hərəkəti, qəlb həyəcanlarının incə çalarlarını da vermək olar. Demək olar ki, başqa heç bir təsviri incəsənət növü bir tərəfdən görmənin parçalanmasının yaradılmasına, digər tərəfdən əşya və hadisələrin bütöv görünməsinin belə çox-

cəhətli imkanlarına malik deyil. Naturadan rəsm məşğələlərindəki bu imkanlar, təsvir vərdişləri və qavramanın inkişafına xidmət göstərən çalışmaların diapazonu, onun vasitələrinin universallığını təmin edir və məktəbdə təsviri incəsənət məşğələlərində aparıcı əhəmiyyətini təyin etmiş olur.

Rəsm məşğələlərində inkişaf etdirilən qabiliyyətlər insanın əqli və fiziki əməyin müxtəlif sahələrindəki cürbəcür fəaliyyəti üçün baza rolunu oynayır və şərti desək, istedadın əlaməti sayılır. Ona görə də rəssamlıq qabiliyyətlərinin inkişafının kiçik və yeniyetmə yaşlarında təfəkkürün intensiv formalaşması, məktəblinin zəkasının, duyğularının inkişafı dövründə rolu xüsusilə vacibdir.

Naturadan, yaddaşa və təsəvvürə görə işin əhəmiyyəti ondadır ki, bu növ fəaliyyətlər şagirdlərdə müşahidənin və təxəyyülün inkişafı ilə bağlıdır. Müşahidə və təxəyyülün şagirdlərdə sıx qarşılıqlı münasibəti onların yaradıcı işinin əsasıdır. Müşahidə insanın gerçəkliyi dərk etməsinin əsası olub, ona uşaqlıqdan qocalığa qədər xas olan, daim dəyişikliyə məruz qalan bir haldır. Rəsmdə həyat hadisələrinin bütün müxtəlifliyini, qarşılıqlı əlaqələrini və xüsusiyyətlərini inandırıcı verə bilmək üçün, şagirdlər məqsədyönlü müşahidə etmək bacarığına yiyələnməlidirlər. Rəsm müşahidələrin keyfiyyətindən çox asılıdır. Müşahidə prosesində meydana çıxan müxtəlif görmə təsəvvürlərinin ehtiyatı şagirdlərdə nə qədər çoxdursa, təsviri vasitələrin axtarışı ilə bağlı onun bu və ya digər tərəflərini şagird bir o qədər yaxşı, inamlı şəkildə qeyd edə bilər.

Məktəbdə naturadan rəsm üzrə tapşırıqlar həmişə özünün aydın ifadə olunmuş, təcrübi, həyati məqsədyönlülüyünə malikdir. Tapşırıqların məqsədyönlülüyü, konkretliyi təsvirin müxtəlif xarakterini nəzərdə tutur. Şagirdlər rəsm məşğələlərində elə bilik, bacarıq və vərdişlərə sahib olurlar ki, nəticədə ətraf mühiti daha zəngin və tam görməyə, duymağa, başqa dərslərdə, məişətdə və istirahətdə, məktəbi bitirəndən sonra isə istehsalatda və digər faydalı fəaliyyətdə təsviri tətbiq edə bilmələrinə kömək etsin.

Ətraf dünya ilə tanışlıq və əqli inkişaf baxımından uşaqların formaların, xətlərin, fəza vəziyyətlərinin və s. adlarını düzgün bilmələri çox vacibdir. Əməli yolla əşyaların və onların xassələrinin dərki şüurda möhkəmlənmiş olur. Bu və ya digər formanın keyfiyyətləri, ölçüləri, rəngi təkcə ayrı-ayrı, müəyyən əşyalara xas olmur, uşaqların anlayışında istənilən əşyalara xas olan cəhətlər kimi ümumiləşdirilir. Uşaqlar müşahidə və dərketmə sayəsində istənilən əşyada qırmızı rəngi, yumru formanı, düz xətti tanıya və adlarını deyə bilirlər. O, bilikləri (əşyalar və onların keyfiyyətləri haqqında) ki, uşaqlar əyani yolla alırlar. Bu, onların təfəkkürünün özəllikləri ilə konkretliyə cavab verir.

Rəsm prosesi, uşağın şəxsiyyəti ilə təsvir olunan əşyanın rəsminin fəal qarşılıqlı əlaqəsi prosesidir. Bu proses həm naturada, həm də təsvirdəki əşyanın rənginin boya nisbətlərini, formasının mütənasibliyini, daimi müqayisəsini, təhlilini, sintezini tələb edir. Eyni zamanda rəsm prosesi yaddaşda əvvəllər qavranılmış cisimlərin obrazlarının fəal canlandırılmasını, rəsm obyektinə, təsvirə və təsvir prosesinin özünə dərin hissi münasibət, şəxsiyyətin iradi xüsusiyyətlərinin təzahürünü (inadkarlıq, tələbkarlıq) tələb edir. Barmaqların və göz hərəkətlərinin kombinasiyasında, gözlərin və barmaq sümüklərinin inkişafında naturadan rəsmin əhəmiyyəti çox böyükdür. Rəsm çəkməyi öyrənmək görməyi öyrənməkdir, görmək isə anlamaq deməkdir.

Əşyaların və hadisələrin təsvirini yaratmaq bacarığına yiyələnən uşaqlar, həyat hadisələrinə öz münasibətlərini, öz anlamlarını, duyğularını bildirmək imkanı qazanırlar. Təsviri fəaliyyət uşaqlarda yaxşı, ədalətli olan hər bir şeyə məhəbbət tərbiyəsi,

onlarda yaranan ali duyğuların dərinləşdirilməsi üçün istifadə edilə bilər. Ətraf həyatın əşya və hadisələrinin müşahidəsi zamanı uşaqlarda asanlıqla həyəcan yaranır.

Şagirdləri təbiət hadisələri, müasir həyat fenomenləri ilə tanış edən müəllim onların anlam səviyyəsinə uyğun olaraq bu hadisələrin əhəmiyyətinə və gözəlliyinə diqqət yönəldir. Onların məqsədi gözəlliyin yaşanması vasitəsilə uşaqları gücləri çatacaq səviyyədə ətraf aləmi qiymətləndirməyə sövq etdirmək, humanizm, vətənə məhəbbət, əməyə hörmət kimi ali hisslərin inkişafına nail olmaqdır.

Naturadan rəsmdə uşaqlarda təkcə estetik qavrayış və duyğuların inkişafı deyil, həm də əvvəllər gördükləri, təmasda olduqları əşyalar haqqında aydın və tam təsəvvürlərin formalaşması da zəruridir. Təsəvvürün keyfiyyəti əşyanın əvvəllər necə qavranmasından asılıdır. Uşaq yadda saxladığını rəsmə köçürmür, o, əşya haqqında nəsə düşünür, onda bu əşya ilə bağlı hansısa fikirlər yaranır. Bir təsəvvürə müxtəlif vaxtlarda və müxtəlif şəraitlərdə qavranılanlar daxil olur və bu təxəyyüldən də uşaq ifadə etdiyi obrazı yaradır.

Naturadan rəsm zamanı şagirdlərdə estetik zövq inkişaf edir. Rəsm zamanı müəllim rəsm olunan cisimdən harada istifadə olunmasından, onun necə mütənasibliyə malik olmasından, nədən, hansı yolla hazırlanmasından danışır. Təbiətin naturadan rəsmi zamanı isə təbiətin gözəlliklərini təsvir etməklə, bu gözəlliyi vəsf edən şeirlər oxumaqla uşaqlarda estetik hisslər oyadılır. Onlar təbiətdəki zəngin rəng həllinə müəllimin istiqamətverici suallarının köməyi ilə baxıb, gözəlliyə valeh olduqdan sonra gördüklərini çəkmək həvəsinə düşürlər.

Naturadan rəsm prosesində uşaqlar gördüklərini çəkmək üçün onun üzərində məqsədyönlü müşahidə aparır, müqayisə və təhlil edirlər. Mənzərə işləyərkən təbiəti müşahidə edərək ağacla kolun və evlərin, dağların bir-birindən məhz nə ilə fərqləndiyini təhlil edirlər. Onların rənglərinə fikir verib, koloriti müəyyənləşdirmək üçün əvvəlcə gördükləri üzərində müşahidə aparır, sonra onu müqayisə və sintez edirlər. Bundan başqa uşaqlar işlərini planlaşdırmağı da öyrənirlər. Belə ki, onlar üçün aydın olur ki, natürmortun ümumi hündürlük və enini tapmadan cisimlərin ölçülərini tapmaq və ya əşyanın ümumi ölçülərini qeyd etmədən onun mərkəzini sınma xətlərini göstərmək mümkün deyil.

Naturadan rəsm zamanı şagirdlər gördüklərini qruplaşdırmağa çalışırlar. Naturadan rəsm zamanı şagirdlər diqqətli olmalıdırlar ki, gördükləri əşyaların, təbiət cisimlərinin formalarını, konstruksiyasını, işıq-kölgənin paylanma qanunlarını, perspektivi düzgün müşahidə etsinlər.

Naturadan rəsm nəticəsində şagirdlərdə yaradıcı təxəyyül də inkişaf edir. Bu dərslərdə uşaqların yiyələndikləri xüsusi bilik, bacarıq və vərdişlərin onların təfəkkür tərzindən asılılığını aşağıdakı qanunauyğunluq təsdiq edir: işıq və kölgə qanunlarını dərindən mənimsəyən, onları öz təsvirlərində müvəffəqiyyətlə tətbiq edən şagirdlər, adətən, mövzuya görə ifadəli və oricinal rəsmlər yaradırlar. Yəni mövzu üzrə rəsmlərin keyfiyyəti və səviyyəsi, birbaşa tədris materialının və naturadan rəsm dərslərinin mənimsənilməsindən asılıdır. Şagirdlərin yaradıcı təfəkkürünün inkişafı ilə onların naturadan rəsmdə yiyələndikləri bilik və bacarıqların bir-birindən asılılığı bunu təsdiq edir. Bir sözlə, əşya və hadisələr barədə təsəvvürlərin formalaşması zəruri olaraq əşyanın xassələri, keyfiyyətləri, formaları, rəngi, ölçüləri, fəza vəziyyəti barədə biliklərin mənimsənilməsini tələb edir. Uşaqlar bu xassələri müəyyən edir, faktlarla adlandırır, əşyaları müqayisə edir, oxşarlıq və fərqli cəhətləri tapır, əqli əməllər yerinə yetirirlər. Təsviri fəaliyyət əqli tərbiyəyə kömək göstərir, əyani – obrazlı təfəkkürün inkişafını təmin edir.

Beləliklə, naturadan rəsm dərslərində şagirdlərdə diqqət, məqsədyönlü müşahidə aparmaq, müqayisə etmək, planlaşdırmaq, qruplaşdırmaq, sintez etmək, ümumiləşdirmək, nəticə çıxarmaq, yaradıcı təxəyyül kimi qabiliyyətlərin inkişafı və qazanılan bilik, bacarıq və vərdişlərin nəticəsində onlar digər fənlərdən də yüksək nəticələr əldə edirlər.

Naturadan rəsm dərsində qazanılan bilik, bacarıq və vərdişlər nəticəsində şagirdlər oxu dərslərindən də müvəffəq qiymətlər alırlar. Belə ki, onlarda inkişaf edən təxəyyül, planlaşdırma, təsəvvür etmə qabiliyyətləri oxuduqları hər bir mətni düzgün təsvir etməyə kömək göstərir. Onlar təsvir olunan hadisələri tam şəkildə yaddaşlarında canlandıra bildikləri üçün oxuduqları daha tez yadlarında qalır və onu planlı şəkildə danışa bilirlər. Müəyyən obrazlı təsvirləri daha həvəslə yerinə yetirirlər.

Naturadan rəsmi köməkçi xətlərlə çəkərkən uşaqlar dördbucaqlı, onun mərkəz xətlərini, xətkeşin köməyi olmadan parçanın müxtəlif hissələrə bölünməsini mənimsəyirlər ki, sonralar riyaziyyat dərslərində bu biliklərdən çətinlik çəkmədən istifadə edirlər.

Quş müqəvvalarının naturadan təsvirini və ya canlı quşların eskizlərini yerinə yetirərkən şagirdlər onların insanlara verdiyi xeyiri xatırlayır, yarpaqların təsviri zamanı müxtəlif ağac növləri ilə tanış olurlar. Bundan başqa naturadan nə vaxtsa təsvir edilən bitkinin quruluşu, rəngi haqqında aydın təsəvvürə malik olan uşaqlar, onu yaddaşa görə asanlıqla təsvir edirlər. Belə təsvirlər real, eyni zamanda rəngarəngdir.

Əmək fəaliyyətinə maraq tərbiyə etmək üçün naturadan rəsm dərslərində geniş imkan yaranır. Naturadan rəsm dərslərində əvvəldən meyvə və tərəvəz rəsmlərindən başlayaraq müəllim, təkcə təsvir olunan obyektin konstruktiv quruluşu, fəzada yerləşməsi, rəngi haqqında deyil, həm də onların yayılma coğrafiyası, yetişdirilmə xüsusiyyətləri, ona sərf olunan əmək haqqında, həmin məhsuldan harada və nə üçün istifadə edilməsi haqqında da söhbət aparır.

Çilingər və qaynaqçı alətləri çəkilərkən şagirdlərə onlardan istifadə qaydaları və quruluşundan söhbət açılır, bu alətlərin iş prinsipləri və onlara olan estetik tələblərdən (alətin gözəlliyi və funksiyasının əlaqəsi) danışılır. Texniki detalların təsviri zamanı da bu məqsədlə müəllim təkcə onların mütənasiblik əlaqələri, konstruktiv quruluşu haqqında deyil, həm də necə adlanması, funksiya və tətbiqi haqqında məlumat verir.

Beləliklə, ibtidai siniflərdə naturadan rəsm dərsləri göstərildiyi kimi, şagirdlərin intellektual səviyyəsinə təsir edir və onların gələcəkdə cəmiyyət üçün çox faydalı insan olmalarına kömək göstərir.

**Ədəbiyyat**

1. Кузин В.С. Изобразительное исскуство и методика его преподования в началных классах. М., 1999.

2. Ростовцев Н.Н. Методика преподавании изобразительного исскусств в школе. М., 2001.

**Джалилова Е.**

**Воздействие рисования с натуры на интеллектуальный уровень учащихся**

В статье даются сведения о роли рисования с натуры на уроках изобразительного исскуства. В результате рисования с натуры у школьников вырабатывается ряд важных качеств. В результате этого высокие показатели наблюдаются у школьников при изучении других дисциплин.

# BÖYÜYƏN NƏSLIN VƏTƏNPƏRVƏRLIK TƏRBIYƏSINDƏ HEYDƏR ƏLIYEV IRSINDƏN ISTIFADƏ

**Kəmalə QULIYEVA,**
ADPU-nun dissertantı



Azərbaycan Respublikasının yenidən müstəqillik əldə etməsi, tarixin xalqımıza bəxş etdiyi ən böyük səadətdir. Təbii ki, bu səadət heç də asanlıqla əldə edilməmişdir. Minlərlə igid oğul və qızlarımız şəhid olmuş, itirmiş, dəhşətli bəlalarla üzləşmiş, ərazimizin 20 faizi erməni işğalçılarının tapdağı altında qalmış, bir milyondan çox vətəndaş elindən-obasından didərgin düşmüş, çadır düşərgələrinə sığınmışdır. Bütün bunlar, əlbəttə, xalqımızın, xüsusilə böyüyən nəslin mənəviyyatına təsirsiz qalmamış, onlarda bədbinlik, öz qüvvələrinə inamsızlıq kimi hisslərin baş qaldırmasına gətirib çıxarmışdır.

Hazırda müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi, tariximizin bir çox qaranlıq səhifələrinin açılması, kimliyimizin müəyyənləşməsi, bizdən milli kökümüzə bağlı yeni təfəkkürlü vətənpərvər nəslin yetişdirilməsini tələb edir.Vətənpərvərlik çox böyük təsir gücünə malik bir hiss olub, milli, hüquqi dövlətimizə sədaqətli olmaqda, onun qüvvətlənməsi, inkişafı və müdafiəsi yolunda canından keçməyə hazır olmaqda ifadə olunur. Vətənpərvərlik bütün hisslərin alisi hesab olunur.

Zahid Qaralov vətənin varlığını hər şeyin başlanğıcı hesab edir: "Doğma vətəni olmayan xalq özünün bitkin, dünya tərəfindən qəbul oluna biləcək milli və ümumbəşəri əhəmiyyətli dəyərlərini yaratmaqda çox çətinliklərlə üzləşir" (6) .

Məhz bu səbəbdən də istər hər bir valideyn, istərsə də müəllim gələcək nəsli tərbiyə edəndə vətənpərvərlik hisslərini aşılamağı qarşısına əsas vəzifə kimi qoymalıdır.

Pedaqoji təcrübə göstərir ki, millətin, xüsusilə böyüyən nəslin mənəvi tərbiyəsində, milli vətənpərvərlik və dövlətçilik ideyalarının inkişafında siyasi xadimlərin, qüdrətli dövlət başçılarının həyat və fəaliyyəti əsl tərbiyə məktəbidir. Bu gün öz tarixinin ən məsuliyyətli, çətin və şərəfli bir dövrünü yaşayan Azərbaycan övladların ulu öndərimiz Heydər Əliyev irsini öyrənməyə böyük ehtiyac duyur.

Öz millətini dərin məhəbbətlə sevən Heydər Əliyevin istəyi, müqəddəs olan vətən sevgisini böyüyən nəslə aşılamaq, mənəviyyatlarına hopdurmaq idi. O, əbədi səadəti, xoşbəxtliyi vətən torpağına bağlılıqda gördüyündən gələcək nəslə tövsiyə edirdi ki, onu bir oğul, layiqli övlad kimi sevib əzizləsinlər. Elə bu amalla da ulu öndər Azərbaycan Respublikası gənclərinin birinci forumunda (2 fevral, 1996-cı il) üzünü gələcək nəslə tutaraq müraciət etmişdir: "Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən,

özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb, onu davam etdirərkən özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".

Vətənpərvərlik anlayışı ilk dəfə məhz ulu öndər Heydər Əliyev tərəfindən milli Azərbaycan vətənpərvərliyi kimi işlədilmişdir. Milli vətənpərvərlik keçmişi öyrənməyə, tariximizi düzgün qiymətləndirməyə, xalqda inamın yaranmasına, hər cür haqsızlığa, ədalətsizliyə qarşı barışmazlığa, gənclərdə düşmənə dərin nifrətin yaradılmasına, intiqam hissinin gücləndirilməsinə xidmət edərək, vətən xainlərinə qarşı amansız olmağı tələb edir.

Ulu öndər Heydər Əliyev milli Azərbaycan vətənpərvərliyinin komponentlərini müəyyən edərək bu komponentləri forumdakı nitqində açıqlamışdır: "Vətənpərvərlik böyük bir məfhumdur. Onun bir çox komponentləri vardır. Bu komponentlər sırasına vətəni sevmək, vətənə sadiq olmaq, torpağa bağlı olmaq, milli dəyərləri yaxşı bilmək, dilimizi yaxşı bilmək, mədəni irsi qiymətləndirmək və qoruyub saxlamaq, orduda xidmət etmək və s. daxildir. Bu komponentlər içərisində vətəni sevmək, vətən torpağına bağlı olmaq mühüm yer tutur".

O, məktəbdə öyrədilən bütün fənləri mənimsəməyin əhəmiyyətini qeyd etməklə yanaşı, müstəqil Azərbaycanın hər bir övladını xalqının, millətinin qədim zamanlardan indiyədək tarixini yaxşı bilmələrini arzulayırdı. Xalqın mübarizə tarixi insan hünərinin, fədakarlığının parlaq nümunəsidir. Belə bir tarixin dərindən öyrənilməsi, dərk edilməsi zəruridir. Bu məqsədlə də, ümummilli lider Heydər Əliyev bu elm sahəsi ilə məşğul olan bütün mütəxəssisləri gələcək nəslə dəstək olmağa çağırırdı. 21 sentyabr 1993-cü ildə ulu öndərin bu məsələ ilə bağlı Azərbaycan Respublikası Elmlər Akademiyasında kı nitqi diqqətə layiqdir: "Mən o vaxtlar – Azərbaycanda işlədiyim dövrdə də deyirdim, indi də bu sözlərin üstündə dururam ki, tarixçilərimiz üçün bütün şəraiti yaratmağa hazıram. Bir şərtlə ki, bu şəraitin əvəzində biz tarixçilərimizdən Azərbaycan tarixini bu gün üçün, gələcək nəsillər üçün və bütün gələcək üçün yaxşı əks etdirən əsərlər ala bilək".

İstər siyasi mübarizəsində, istərsə də idarəetmə təcrübəsində, geniş mənada tarixə-yaddaşa, mentalitetə, mənəviyyat tarixinə Heydər Əlirza oğlu Əliyev qədər müdrikcəsinə istinad edən ikinci şəxsiyyəti nümunə göstərmək çətindir. Tarix onun üçün heç vaxt yaşanmış keçmiş, fəxr mənbəyi olmayıb, gələcəyin məktəbi olub. Tarixi kifayət qədər peşəkarcasına bildiyindən Heydər Əliyev tarixi yaşadan şəxsiyyətlər arasından çıxaraq, tarixi yaradan şəxsiyyətlər sırasına daxil olmuşdur.

Heydər Əliyev heç bir vaxt Qarabağın erməni qəsbkarları tərəfindən işğalını unutmur və hər bir çıxışında bu barədə ürək ağrısı ilə söhbət açırdı. "Bizim ali vəzifəmiz, məqsədimiz – işğal olunmuş torpaqlarımızı azad etmək, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək və doğma yerlərindən didərgin düşmüş soydaşlarımızı öz yurdlarına qaytarmaqdır" (3).

8 oktyabr 1998-ci ildə ulu öndərimiz Heydər Əlirza oğlu Əliyev Andiçmə Mərasimində bu məsələ ilə bağlı bir daha xalqını əmin etdi ki, Azərbaycan dövlətinin müstəqilliyi hər zaman müdafiə olunacaq: "Biz heç vaxt heç bir qonşu ölkənin torpağına qəsd etməmişik və bu gün də qəsd etmirik. Heç kəsin torpağına göz dikməmişik. Biz Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmışıq, Azərbaycanın dövlət sərhədləri çərçivəsində olan müstəqil Azərbaycanın tam bütövlüyünü müdafiə edirik və bundan sonra da müdafiə edəcəyik". (Sabaha doğru, 2004, səh.81)

Ulu öndər Heydər Əliyev belə bir vəziyyətdən çıxış yolu axtararaq deyirdi: "Ancaq mənə belə gəlir ki, əgər biz bütün qüvvələrimizi toplasaq, ziyalılardan, din xadimlərindən, alimlərdən, hörmətli adamlardan istifadə etsək, onlar bu işi mütəşəkkil apara bilsələr, hərbi hissələrdə lazımi iş görərək tərbiyə, əxlaq, mənəviyyat məsələlərini döyüşçülərə aşılaya bilsələr, onların mənəviyyatını, iradəsini möhkəmləndirə bilsələr bu bizim həm siyasi, həm də ideoloji işimiz olacaqdır, kakin bu iş pərakəndə deyil, mütəşəkkil aparılmalıdır". (2).

"Torpağımızı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq hər bir vətəndaş üçün, hər bir azərbaycanlı üçün ən ümdə, ən ülvi, ən başlıca vəzifə olmalıdır. Qalan hisslər, duyğular qalan cəhdlər hamısı bir kənara qoyulmalıdır"(1) – deyərək ulu öndər Heydər Əliyev xalqının övladlarını hərbi vətənpərvərliyə çağırırdı. (1)

Hələ 1970-1980-cı illərdə SSRİ rəhbərliyinin müqavimətinə baxmayaraq Heydər Əliyev Sovetlər İttifaqının heç bir respublikasında analoqu olmayan hərbi internat məktəbinin açılışına nail olmuşdur. Bu məktəbə 1920-ci ildə ilk Azərbaycan diviziyasının komandanı olan Cəmşid Naxçıvanskinin adı verilmişdir. İndiki Xətai rayonunun ərazisində Ali Hərbi Dəniz Donanması məktəbi var ki, bu məktəb keçmiş Sovet İttifaqında olan ali dəniz donanması məktəbləri arasında xüsusilə fərqlənirdi.

Məhz Heydər Əliyevin təşəbbüsü ilə tarixdə ilk dəfə olaraq Xəzər Hərbi Dəniz Donanmasının komandanı azərbaycanlı admiral Qasımbəyli, Bakı Ali Hərbi məktəbinə rəis azərbaycanlı general Valeh Bərşadlı təyin edilmişdir.

Hərbi sahədə görülən bütün bu əməli işlər ümumilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqına göstərdiyi diqqətin, qayğının təzahürü idi.

"Gərək hər bir insan və xüsusən böyüyən nəsil azərbaycançılığın, Azərbaycanın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən dərk etsin. Biz buna nə qədər çox nail olsaq, bizim millətimizdə millilik, vətənpərvərlik əhval-ruhiyyəsi, öz torpağına, xalqına məhəbbət hisssi bir o qədər çox artacaqdır"(4) ifadələri ilə "Kitabi-Dədə Qorqud dastanı"nın 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının iclasında (1999-cu il, 16 fevral) çıxış edən Heydər Əliyevin təklifi, istəyi bütün Azərbaycan xalqını həmin ideya ətrafında birləşdirməkdən ibarət idi. Ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideyası dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq azərbaycanlı olan hər kəsdən dövlətinin problemlərindən, nailiyyətlərindən xəbərdar olmağa, Azərbaycanın tanıdılmasına, azərbaycanlı olaraq xalqını, millətini layiqincə təmsil etməyə çağırırdı. Bu ideya milli dövlət quruculuğunun ayrılmaz komponentinə çevrilmişdir.

Azərbaycan dilinin rəsmi dövlət dilinə çevrilməsi (18 iyun 2001-ci il) azərbaycançılıq ideyalarının, milli-mənəvi dəyərlərin bütün dünyada yaşayan həmvətənlərimiz arasında yayılması, hər il 31 dekabrın Dünya Azərbaycanlılarının birlik və həmrəylik günü kimi qeyd edilməsi və bu münasibətlə bütün dünyada yaşayan azərbaycanlıların iştirakı ilə keçirilən mərasimlər, xarici səfərləri zamanı Azərbaycan diasporu ilə keçirdiyi görüşlər, Dünya Azərbaycanlılarının Bakıda keçirilən birinci qurultayı (9 noyabr, 2001-ci il) və bu səpgili yüzlərlə mühüm işlər ümummilli liderimiz Heydər Əliyevin vətənpərvərlik hisslərinin ali təzahürü idi. Bütün bunlar dünyada yaşayan azərbaycanlıların milli şüurunun, milli özünüdərkinin güclənməsinə, onların Azərbaycan dilinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə, dövlətçiliyinə münasibətinin daha da doğmalaşmasına öz müsbət təsirini göstərmişdir. İndi xalqımız hər cəhətdən azaddır. Ona görə də lazımdır ki, alimlərimiz və o cümlədən, təhsil sahəsində çalışan müəllimlər ordusu

milli ideologiyamızın formalaşması üçün öz fəaliyyətini göstərsin. Bu ideologiyanı qurmaq, yaratmaq, təşkil etmək, eyni zamanda əməli surətdə həyata keçirmək böyüyən nəslin vətənpərvərlik hisslərinin formalaşmasında yüksək əhəmiyyətə malikdir.

Ulu öndərimiz Heydər Əliyev də milli ideologiyamızın formalaşmasından ötrü səylərin vacib olduğunu dəfələrlə vurğulamışdır. Bu baxımdan azərbaycançılıq tərbiyəsini böyüyən nəslin vətənpərvərlik ruhunun inkişafındakı əhəmiyyətini yüksək qiymətləndirərək onun gələcək nəslə ötürülməsində yaxından iştirak etmək ən vacib məsələlərdən biri olmalıdır.

Prof. Zahid Qaralovun fikrincə, "Azərbaycançılıq tərbiyəsinin mahiyyəti, elmi prinsipləri, metodoloji, psixoloji və fəlsəfi əsasları, onların məktəblilərə aşılanması yolları hərtərəfli araşdırılmalıdır. Onun müxtəlif problemlərinin hər birini namizədlik və doktorluq dissertasiyası səviyyəsində tədqiq etmək vacibdir". (6).

Pedaqoji elmlər doktoru professor Əjdər Ağayev bir məqaləsində yazır: "Heydər Əliyevin azərbaycançılıq ideologiyası, dövlətçilik, müstəqillik ideyaları fəaliyyətimizin metodologiyasını təşkil edir, sabah da belə olacaqdır". (7).

Tədqiqatçı alimlərin–filosof, politoloq və pedaqoqların Heydər Əliyev irsində azərbaycançılıq ideyasının metodoloji əsas olaraq şərhinə dair fikirləri, təbii ki, dərin elmi-nəzəri əhəmiyyət daşıyır. Ancaq çox təəssüflər olsun ki, azərbaycançılıq ideyasının praktik-pedaqoji istiqaməti haqqında hələlik sistemli araşdırma və təhlillər az aparılmışdır.

Bizə elə gəlir ki, on illər ərzində estetik tərbiyə, əmək tərbiyəsi və tərbiyənin başqa komponentləri hansı üsullarla araşdırılıb ümumiləşdirilibsə, eyni işi azərbaycançılıq tərbiyəsi üçün də etmək gərəkdir.

Ulu öndərimiz Heydər Əliyevin, ümumiyyətlə, milli Azərbaycan vətənpərvərliyi tərbiyəsi ilə bağlı ideyaları, tövsiyə və məsləhətləri olduqca maraqlı və aktualdır. Xüsusilə də bu gün yabançı əxlaq tərzinin və mənəviyyatının sürətlə sirayət etdiyi bir dövrdə ulu öndər Heydər Əliyev irsinə ehtiyacımız daha çoxdur.

Milli Azərbaycan vətənpərvərliyi işini tələb olunan səviyyəyə qaldırmaq üçün bu problemə təlim prosesində, sinifdənxaric tədbirlərdə geniş yer verilməli, məktəblilərin asudə vaxtları maraqlı və məzmunlu təşkil edilməlidir. Prof. Ə.X.Paşayev, F.A.Rüstəmov vətənpərvərlik anlamının biz təsəvvür etdiyimizdən daha geniş məzmuna malik olduğunu qeyd etmişlər: "Vətənpərvərlik anlayışına ölkənin siyasi quruluşuna, onun siyasi idarə və təşkilatlarına, xalqın özünün yaşadığı mədəni mühitə (ölkənin mədəniyyətinə, adət və ənənələrinə), ictimai mühitə (ölkənin ictimai-iqtisadi münasibətlərinə, onun əmək şərtlərinə) hörmət və məhəbbət daxildir". (5). Məhz bu səbəbdən də bu gün Azərbaycan Konstitusiyası, tarixi coğrafiyası, onun təbii sərvətləri, flora və faunası, xalq yaradıcılığının əsasları, adət-ənənələri, böyük mütəfəkkirlərin yaradıcılıq nümunələri, dünya ölkələri arasında yeri, dövlətin xarici və daxili siyasətinin əsasları, ölkənin strateji inkişaf planları haqqında məlumatlar böyüyən nəslə çatdırılmalıdır.

Ayrı-ayrı fənlərin tədrisində yeri gəldikcə məktəbliləri xalqımızın, habelə türk xalqlarının böyük sərkərdələrinin (Cavanşir, Cavidan, Babək, Koroğlu, Nəbi, Atilla, Toğrul bəy, Alp Arslan, Çağrı bəy, Sultan Səlim, Osman Qazi, Sultan Fateh Məhəmməd, Əmir Teymur, Yıldırım Bəyazid və b.) həyatı, fəaliyyəti ilə tanış etmək, onlarda milli qəhrəmanlıq hisslərini gücləndirməklə yanaşı, düşmənə nifrət hissi də yaratmaq lazımdır.

Bundan əlavə, mətbuat səhifələrində vətənpərvərlik tərbiyəsi müntəzəm işıqlandırılmalı, müxtəlif kommunikasiya vasitələrindən, radio və televiziya verilişlərindən

istifadə olunmalı, müqəddəs yerlərə, şəhidlər xiyabanlarına ziyarətlər təşkil edilməli, milli qəhrəmanlarla görüşlər keçirilməlidir.

Bu gün bütün təlim-tərbiyə müəssisələrinin, müəllimlərin ən ümdə vəzifələrindən biri hər bir yeniyetməni, hər bir Azərbaycan övladını orduya xidmətə hazırlamaqdan ibarət olmalıdır. Bunun üçün məktəblərdə aşağı siniflərdən uşaqlar hərbi xidmətə hazırlanmalı, həm də onlarda hərb elminə maraq yaradılmalıdır. Məktəblilər müstəqil dövlətimizin atributları – bayrağı, himni, gerbi ilə tanış edilməlidir. Uşaqlar himni əzbər bilməli, orduda xidmət etməyi özlərinin şərəf işi saymalıdırlar. Bu baxımdan milli Azərbaycan vətənpərvərliyi üçün zəruri olan yol və vasitələrdən, təşkilat strukturlarından istifadə edilməlidir.

Bəşər tarixində hər yeni gələn nəsil özündən əvvəlki nəsillərin yaratdığı maddi və mənəvi nemətləri mənimsəyir, qoruyub saxlayır, bunlara az və ya çox miqdarda əlavələr edir, özündən sonra gələn nəsillərə nələri, miras saxlayır, onlara sifarişlər, yeni tələblər verir. Hər nəslin arasından elə şəxsiyyətlər, insan qrupları çıxır ki, onlar daha fəal, dərin zəkalı olmaqla, dünya proseslərini daha tez dərk edirlər. Ən gərəkli mənəvi dəyərləri artırıb inkişaf etdirənlər də bunlardır. Ulu öndər Heydər Əliyev də belə şəxsiyyətlərdəndir.

Diplomat, hərbi qurucu, sülh carçısı, elm və mədəniyyət, ictimai və dövlət xadimi, siyasi lider, demokratiyanın təşkilatçısı, nəhayət, adi insan olan ulu öndərimiz Heydər Əliyev fenomeni hələ neçə-neçə illər, onilliklər bundan sonra da öyrəniləcək və gələcək nəsillər onun mənalı həyatından bəhrələnəcəklər.

Bu gün ulu öndər Heydər Əliyevin adı onun şah əsəri olan Azərbaycan dövrlətinin inkişafı, xalqımızın tərəqqisi ilə qoşa çəkilir.

### Ədəbiyyat


1. Yaqubov S. Qətiyyətin təntənəsi. Bakı, "Qorqud" nəşriyyatı, 1995.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir. I cild. Bakı, "Azərnəşr", 1997.
3. Qaçqınların və məcburi köçkünlərin məsələlərinə həsr olunmuş ümumrespublika müşavirəsində Azərbaycan Prezidenti Heydər Əliyevin yekun nitqi. "Dirçəliş – XXI əsr" – jurnalı, № 6, 1998, səh 3-15.
4. Heydər Əliyev mədəni irsimizin keşiyində Azərbaycan Respublikası Prezidentinin katibliyi. Nurol , Bakı, 2001, 438 səh.
5. Paşayev Ə.X.Rüstəmov F.A Pedaqogika. Yeni kurs Çaşıoğlu, Bakı, 2002, 512 səh.
6. Qaralov Z. Tərbiyə. I cild. Pedaqogika, Bakı, 2003, 268 səh.
7. Ağayev Ə. Heydər Əliyev irsində təhsil, elm, milli kadr hazırlığı məsələləri. "Azərbaycan məktəbi", № 6, 2004, səh 61-69.


### Использование из наследия Г.Алиева в патриотском воспитание возрастающего поколения


### Резюме

В статье автор обратился общенациональному лидеру Гайдару Алиеву, которой располагается богатым патриотическими свойствами, и раскрыл значение этих свойств в патриотическом воспитание возрастающего поколения.

**Application of Heydar Aliyev's legacy in upbringing the growing generation in patriotic sprit.**

**Resume**

The author outlines the role of Heydar Aliyev's work on upbringing the growing generation in the patriotic spirit by making references to Heydar Aliyev's work.

# SİNİFDƏNXARİC TƏDBİRLƏR VASİTƏSİLƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN MƏNƏVİ TƏRBİYƏSİ

**Tükəzban CAHANGİROVA,**
Lənkəran Dövlət Universitetinin müəllimi,
pedaqoji elmlər namizədi

Kiçikyaşlı məktəblilərə mənəvi keyfiyyətlərin aşılanmasında təlim prosesi ilə yanaşı sinifdənxaric tədbirlər də mühüm rol oynayır. Müxtəlif, rəngarəng tədbirlərə cəlb olunan I sinif şagirdləri dərsə nisbətən burada daha fəal olur, bu və ya digər məsələlərin müzakirəsində yaxından iştirak edirlər.

Pedaqoji elmlər doktoru, prof. A.N.Abbasov yazır: «Dərsdənkənar iş məktəbin təlim-tərbiyə fəaliyyətinin çox mühüm elementlərindən sayılır. Bu, sinifdənxaric və məktəbdənkənar vaxtlarda təşkil edilən tədbirlərin gənc nəslə göstərdiyi təsir baxımından izah olunur. Şagirdlərin dərsdənkənar fəaliyyətini həm ayrı- ayrı fənn müəllimləri, sinif rəhbərləri, həm də sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin təşkilatçısı və pedaqoji kollektivin digər üzvləri həyata keçirirlər.

Hansı problem və məsələyə həsr olunmasından asılı olmayaraq onlar tədris prosesi ilə sıx bağlı olub, dərsdə şagirdlər tərəfindən qazanılmış biliklərin genişlənməsinə, həmçinin möhkəmləndirilməsinə xidmət edir, lakin dərsdən fərqli olaraq sinifdənxaric və məktəbdənkənar işlər özünəməxsus xüsusiyyətlərə malikdir,

I-IV sinif şagirdləri ilə sinifdənxaric tədbirlər bir neçə istiqamətdə təşkil olunur:

1. Hər bir sinif üzrə sinif müəlliminin rəhbərliyi altında həyata keçirilir.

2.Hər bir sinif üzrə sinif müəlliminin, kollektivin üzvlərinin, ictimai təşkilatların nümayəndələrinin, sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin təşkilatçısının, məktəb direktorunun iştirakı ilə həyata keçirilir.

3. Paralel siniflərin birgə tədbirləri təşkil olunur. Həmin tədbirlərdə pedaqoji kollektivin digər üzvləri, məktəb rəhbərləri və valideynlər də iştirak edirlər.

4. I-IV siniflər üzrə sinifdənxaric tədbirlər təşkil edilir.

5. Kiçikyaşlı məktəblilərin ümummməktəb tədbirləri təşkil olunur.

Bu tədbirlərdə bədii nümunələrdən geniş istifadə mənəvi tərbiyə üzrə işin imkanlarını artırır. Digər yaş qruplarından olan şagirdlərlə yanaşı, kiçikyaşlı məktəblilər də mənəvi cəhətdən saflaşır, nətib, sifətlərə yiyələnir, onlarda bu və ya digər əxlaqi keyfiyyətlər inkişaf edir.

Uşaq I sinfə qəbul olunandan sonra təlim onun fəaliyyətinin əsas növünə çevrilir, lakin əvvəllər olduğu kimi, uşağın həyatında oyun mühüm yer tutur.

Oyun mənəvi keyfiyyəti, müstəqilliyi, çevikliyi, müşahidəçilik qabiliyyətini, təşkilatçılıq bacarığını, iradəsini inkişaf etdirir.

Qeyd etdiyimiz kimi, uşaq şəxsiyyətinin təşəkkül tapıb formalaşmasında oyunun rolu böyükdür. Tərbiyə işi ilə məşğul olanların heç biri bunu inkar etməsələr də təlim-tərbiyə prosesində oyun elementləri özünə lazımi yer tapmır. Xüsusən, I sinif şagirdləri təlim əməyi ilə məşğul olsalar da, onlar oyundan heç cür ayrıla bilmir, dərslərini yerinə yetirdikdən sonra öz sevimli əyləncələri ilə məşğul olmağa tələsirlər. Oynadıqdan sonra öz kuklasını gecə özü ilə yatırdan I sinif şagirdlərinə rast gəlmək mümkündür. Müəllim kiçikyaşlı məktəblidə belə əlaməti gördükdə, onu danlayaraq özünü uşaq kimi aparmamağı məsləhət görür və artıq böyüdüyünü onun nəzərinə çatdırır. Validyenlər də evdə oyuna ayrılan vaxtı məhdudlaşdırırlar. Buna baxmayaraq, uşaqlar oyunla məşğul olmaq üçün vaxt axtarır, boş vaxtı olan kimi tənəffüslərdə, evdə, məhəllədə, küçədə yoldaşları ilə birlikdə oynayırlar. Uşaqların fəaliyyətinin belə xüsusiyyətləri böyüklərin diqqətindən yayınır və bəzi oyundan mənəvi vasitə kimi istifadə olunmur. Böyüklər tərəfindən nəzarətə götürülməyən oyunlarda uşaq kollektivinin elə mənfi qayda- qanunları formalaşa bilər ki, sonradan onlarla mübarizə aparmaq lazım gələr. Elə buna görə də təlim-tərbiyə prosesinə oyun elementlərinin daxil edilməsi vacibdir. Elə oyunlar seçilməlidir ki, bu proses kiçik məktəb yaşlı uşaqlarda mənəvi keyfiyyətlərin formalaşmasına kömək göstərsin. Məktəbdə uşaqlara oynamağı öyrətmək bu məşğələ növünə rəhbərlik etmək lazımdır.

Kollektiv oyunlar şagirdləri birləşdirir, onlar arasında yoldaşlıq münasibətlərini inkişaf etdirir. Belə oyunlarda məktəblilər öz fəaliyyətini digər uşaqların fəaliyyətləri ilə uyğunlaşdırmağı, qəbul olunmuş ümumi qaydaları gözləməyi, yoldaşlarına qarşı ədalətli olmağı öyrənirlər. Uşaq oyunlarının çoxu yarış xarakteri daşıyır: kim daha sərrast, daha cəld, daha sürətlidir? suallarını cavablandıran oyunda kimsə qalib gəlir, kimsə uduzur. Belə vəziyyətlər müəllimə şagirdlərində məğlub olanlara kömək göstərməyə əsaslanan ədalətli münasibət formalaşdırmaq imkanı verir.

Uşaq oyunları rolların, oyuncaqların, materialların bölüşdürülməsi ilə başlanır. Rolun biri daha maraqlı, digəri nisbətən maraqsızdır. Bəzən görürsən ki, oyuncaqlar çatışmır, uşaq dayanıb öz növbəsini gözləyir. Belə hallarda uşaqların mənəvi keyfiyyətləri üzə çıxır. Axı, oyuncaqlar ədalətsiz və ədalətli bölüşdürülə bilər. Oyunda davranış formaları formalaşır, yaxşının və pisin nə olduğu aydınlaşır. Oyunlar müəyyən qaydaların yerinə yetirilməsini tələb edir. Bu qaydalar ya da oyunun şərtində öz əksini tapır, ya da uşaqlar tərəfindən müəyyən olunur. İştirakçılar, adətən, bu qaydalara əməl edirlər, onları yerinə yetirmədikdə fikir ayrılığı, mübahisə başlanır. Qaydanı pozan intizama dəvət edilir, buna tabe olmadıqda oyundan çıxarılır.

Oyunun gedişində müxtəlif əqli proseslər fəallaşaraq iradi səciyyə daşıyır. Oyunun yerinə yetirdiyi vəzifəni anlamaq, oyun əməliyyatını və qaydasını bilməkdən ötrü müəllimin izahatına, göstərişlərinə diqqətlə qulaq asmaq məsləhətdir.

Belə bir sınaq zamanı ayrıca götürülmüş hər hansı priyom deyil, pedaqoji təsirin bütöv bir kompleksi yoxlanır. Müəyyən çətin məsələni təcili yoxlamaq lazım gəldikdə belə təcrübi iş böyük əhəmiyyət kəsb edir. Bununla belə, təcrübi iş ayrı-ayrı priyomların, şəraitin təlimə təsirini müəyyənləşdirməyə imkan vermir. M.A. Skatkinin dediyi «Biz torpağa mineral gübrələrin qarışığını veririk, nəticədə isə məhsulun artdığını görürük. Təcrübə əsasında biz ümumi nəticə çıxara bilərik ki, kimyəvi maddələrin bu kompleksi bitkinin boyuna və inkişafına təsir göstərir. Bununla belə, biz hələ ayrılıqda hər bir kimyəvi maddənin təsirinin xarakteri haqqında bir şey bilmirik. Ola bilər ki, qatışığın ayrı-ayrı komponentləri bitkiyə lazım deyil, hətta zərərlidir, qarışığın başqa komponentlərinin effektivliyini aşağı salır. Hər bir kimyəvi varlığın fəaliyyətini aydınlaşdırmaq üçün hər biri ilə təcrid olunmuş şəkildə təcrübə keçirmək lazımdır».

Deməli, mürəkkəb pedaqoji hadisələri tədqiq edəndə də onu pedaqoji təsirin kompleksinin effektivliyi ilə məhdudlaşdırmaq olmaz. Hər bir priyomun, faktorun, şəraitin ayrılıqda təsirini dəqiq öyrənmək lazımdır. Bu isə yalnız eksperimentin köməyilə mümkündür. Göründüyü kimi, təcrübi pedaqoji iş qabaqcıl təcrübənin öyrənilməsi və ümumləşdirilməsi ilə eksperiment arasında aralıq həlqədir.

Eksperiment tədqiqatın əvvəlində əsaslandırılmış fərziyyənin doğruluğunun elmi, obyektiv və sübutedici şəkildə yoxlanmasını təmin edir. Eksperiment pedaqoji proses üçün xarakterik hadisələr əsasındakı mühüm, zəruri, davamlı tez-tez təkrar olunan qanunauyğunluqları öyrənməyə imkan verir.

O, ilk növbədə eksperimentin qoyulduğu şəraiti dəyişir. Bunsuz yeni hadisə yaratmaq mümkün deyil. Şəraiti öyrəndikdən sonra yeni şəraitin yaradılması səbəb əlaqələrinin dərk olunmasını, hər bir şəraitin öyrənilən hadisəyə təsirini aşkara çıxarmağa imkan verir. Eksperiment süni şəraitdə aparıldığından tədqiq edilən hadisəni istənilən vaxt, dəfələrlə təkrarlamaq mümkün olur. Eksperiment fərziyyənin yoxlanmasına, ayrı-ayrı nəticələrin dəqiqləşdirilməsinə xidmət edir. Eksperimentə daxil edilən yeni və ya eksperimentator tərəfindən dəyişdirilmiş faktor eksperimental faktor və ya dəyişiklikdən asılı olmayan faktor, onun təsiri ilə yeniləşən faktor isə dəyişiklikdən asılı olmayan faktor adlanır. Əgər tədqiqatçı müqayisə priyomunun biliklərin mənimsənilməsi sürətinə təsirini öyrənirsə, həmin priyom dəyişiklikdən asılı olan, şagirdlərin bilikləri isə asılı olmayan faktordur.

Eksperiment qoymaq üçün problemi müəyyənləşdirmək lazımdır. Elmdə məlum olmayan və varlıq haqqında yeni biliklərin araşdırılmasını tələb edən problemin seçilməsi mühüm şərtdir. Belə problem çox vaxt üzdə olmur. Tədqiqatçı hər hansı sahədə özünə qədər görülmüş işləri öyrənib təhlil edərkən onun görünməyən-qaranlıq, düşünməyə təhrik edən, ciddi suallar doğuran tərəfini görür, müəllimlərlə, müvafiq alimlərlə müsahibə keçirir, məsələyə az-çox aydınlıq gətirilsə də, hələ dəqiq cavabın tapılmadığını, problemin dumanlı olduğunu hiss edir. O, ideya axtarışına çıxır. Nəticədə özünə qədər tədqiqatların nəticəsində alınmış konsepsiyalara nəzər salır. M.N. Skatkinin təbirincə desək, «Əgər tədqiqatçı mövcud olan nəzəri konsepsiyalardan heç biri ilə hesablaşmasa, o zaman özünün fərziyyə

şəklində şəxsi konsepsiyasını yaradır. Bütün sonrakı tədqiqatı ilə o öz nəzəri konsepsiyasını sübut etməyə çalışır.

Müəyyən nəzəri konsepsiyanın olması ona görə zəruridir ki, tədqiqatçının nəzəri çıxış mövqeyindən asılı olaraq eyni əşya müxtəlif cür öyrənilə bilər» (M.H. Скаткин. Методология и методика педагогических исследований. М., «Педагогика», 1986, стр.77)

Əgər tədqiqatçı yalnız irəli sürdüyü ideyanı təsdiq edən faktorları nəzərə almaqla kifayətlənərsə, yanaşma birtərəfli xarakter alar, təhrifə yol verilər obyektivlik olmaz.

Eksperimentin etibarlılığı eksperimentatordan asılıdır. Eksperiment bir növ tədqiqatçının təşkilatçılıq bacarığının, nəzəri və praktik fəaliyyətinin məcmusudur. Ola bilər ki, eyni məktəbdə, eyni sinifdə eyni hadisə üzrə müxtəlif tədqiqatçının apardığı tədqaqat müxtəlif nəticə versin.

Bir çox hallarda eksperimentin nəticələrinin obyektivliyi ona hazırlıqdan asılı olur. Eksperimentə başlamazdan əvvəl problemin nəzəri məsələləri, metodik ədəbiyyatda, məktəb təcrübəsində qoyuluşu təhlil olunmalı, alınan nəticələr elmi əsaslarla qiymətləndirilməli, həll edilmiş məsələlər aşkara çıxarılmalı, eksperimentin məqsədi və vəzifələri müəyyənləşdirilməli, tədqiqatın fərziyyəsi formalaşdırılmalıdır. Bunlar eksperimentatora şüurlu və inamla hərəkət etmək imkanı verir.

Eksperimentə hazırlığın təşkilati cəhəti, xarici cəhət də az əhəmiyyət kəsb etmir. Tədqiqatçının araşdırdığı problemdən asılı olaraq obyekt düzgün müəyyənləşdirilməlidir.

Eksperimentə saysız-hesabsız daimi və təsadüfi amillər təsir göstərir. Obyektiv nəticənin alınması üçün kənar təsirlərə yol verilməməli, aşağıdakı şərtlər gözlənilməlidir:

1) Eksperimentin aparılacağı təhsil müəssisəsinin növü (məktəbəqədər müəssisə, ibtidai siniflər, orta məktəb, texniki-peşə təhsili sistemi, xüsusi məktəb, orta ixtisas məktəbi, ali məktəb) müəyyənləşdirilməlidir.

2) Eksperiment təhsil alanlar, yoxsa təhsil verənlərlə aparılacaq? Adətən, təhsil alanların öyrənilməsi, inkişafı ilə əlaqədar sınaqlar keçirilir. Tərbiyəçi və müəllimlərin fəaliyyəti, onların yeni təlim texnologiyalarından istifadə etmə bacarıqlarının inkişafı üzrə də tədqiqat aparmaq mümkündür.

3) Eksperimentə cəlb olunacaq subyektin sayı müəyyən olunmalıdır. Eksperimentə kiçik bir qrup, yoxsa sinif, məktəb, kurs, fakültə, universitet və s. cəlb olunacaq? Yeri gəlmişkən qeyd edək ki, 2-3 nəfərdən başlanmış yüzlərlə adamı eksperimentə cəlb etmək olar. Eksperimentə həddən çox adamın cəlb edilməsinə də yol verilməməlidir. Belə hallarda onların bir qismini əhatə etmək mümkün olmadığından nəticədə dəqiqlik gözlənmir.

4) Eksperimentin aparılmasının coğrafiyası üzərində düşünmək lazımdır. Eksperimentin yalnız iri şəhərlərdəki yoxsa, rayon mərkəzlərindəki, kəndlərdəki təhsil müəssisələrində aparılması; ölkəmizin şimalındakı, cənubundakı, qərbindəki, yoxsa bütün bölgələrindəki təhsil müəssisələrində aparılması; azsaylı xalqların nümayəndələrinin toplum halında yaşadıqları yerlərdə

aparılması; təbiəti zəngin olan yerlərdə aparılması və s. amillər üzərində düşünmək lazımdır.

5) Təhsil müəssisələrinin maddi bazası, tədris avadanlığı, yeni təlim texnologiyalarından istifadə imkanları, tərbiyəçi, müəllim və başqa kadrların hazırlığı nəzərə alınmalıdır.

6) Eksperimentə rəhbərlik imkanlarının (vaxtaşırı bütün obyektdə olmaq, frontal, differensial və fərdi iş aparmaq, şifahi və yazılı anketlərlə sorğu keçirmək, hər bir mərhələni ümumiləşdirərək aparıcılara istiqamət vermək və s.) nəzərə alınması son dərəcə vacibdir.

7) Eksperimental tədqiqatların əksəriyyətində müqayisə yolu ilə effektivliyini sübuta yetirməyə imkan verən alternativ tərəfin (çox hallarda kontrol siniflər və məktəblərin) olması təmin edilməlidir. Bu məqsədlə bilavasitə eksperimentin aparılacağı siniflərin (məktəblərin) və onlarla müqayisə olunacaq kontrol siniflərin (məktəblərin) təxminən bərabərsəviyyəli olması zəruridir.

İstər eksperimental, istərsə də kontrol siniflərdə şagirdlərin fiziki və psixi inkişafının ümumi səviyyəsi (bilik, bacarıq və vərdişləri, motivasiya və təlimə marağı, səyi, qabiliyyəti, cinsi, yaşı və s.) müəyyənləşdirilməli və bərabər səviyyəli siniflər götürülməlidir.

Şübhəsiz, tam bərabərdəşdirmə mümkün deyil, lakin eksperimental və kontrol siniflərin (məktəblərin) səviyyələri arasında fərqi azaltmaq, təxminən yaxınlaşdırmaq olar. Adətən, qismən də olsa güclü, şagirdlərin daha çevik olduqları sinfi eksperimental sinif kimi götürürlər. Bəzən isə yaratdığı yeni sistemin qüdrətinə inanan tədqiqatçı göstəricilərinin nisbətən aşağı olduğu sinifləri eksperimental sinif kimi götürür. Hər iki halda obyektivlik təmin edilmir.

Əgər eksperimental və kontrol siniflərdə şagirdlərin hazırlığını təxminən bərabərləşdirmək mümkün olmasa, bu fərq dəqiq qeydə götürülməli, eksperimentə yekun vururlarkən nəzərə aınmalıdır.

Eksperimental və kontrol siniflərdə müəllimlərin pedaqoji ustalığı, həmin fənn (sahə) üzrə ixtisas hazırlığı, eksperimental tədqiqata, sınaqdan keçirilən hadisəyə münasibəti təxminən eyni olmalıdır. Bunu əsas götürərək yalnız ən hazırlıqlı tərbiyəçi və müəllimlərin işlədikləri obyektləri seçmək, hətta yaxşı nəticə əldə etmək məqsədilə müəllimi dəyişmək məsləhət görülmür.

Təcrübə göstərir ki, eksperiment eksperimentatorun arzusunun həyata keçirilməsinə, uğurlu sonluğa yönəldikdə alınan nəticə obyektiv olmur.

Bəzi problemlər üzrə eksperimental tədqiqat keçirilərkən, həm də tərbiyəçi və müəllimlərin iş sistemindəki, fəaliyyətindəki əsaslı fərqləri aşkara çıxarmaq üçün təxmini bərabərliyin təmin olunmasına səy göstərilməlidir.

Bəzən eksperiment heç bir ayrı-seçkilik edilmədən bir rayonun (şəhərin) bütün məktəblərində, bir neçə rayon və şəhərin bütün məktəblərində, yaxud respublikanın bütün məktəblərində aparıla bilər. Respublikamızın 6 iri şəhər və rayonunda aparılan şagirdlərin təlim müəvəffəqiyyətlərinin 9 bal sistemi ilə qiymətləndirilməsi, 6 yaşdan təlimə başlamaq məqsədilə 90 minə qədər altı-

yaşlının eksperimentə cəlb edilməsi buna misal ola bilər. Bu yazının müəllifi tərəfindən keçirilən belə eksperimentlər «kütləvi eksperiment» adlanır.

8) Eksperimental qruplar (siniflər, məktəblər) üçün eksperimentatorun hazırladığı yeni sistem təlim-tərbiyə prosesinə yeni amil daxil edir. Bu yeniliyin metodikası eksperimentin aparıcılarına çatdırılmalı və onlarla təlimati seminar keçirilməlidir.

Eksperimental siniflərə nisbətən kontrol siniflərdə təchizatın zəifliyi, müəllimin səriştəsizliyi və s. əvvəlcədən mənimsəmə səviyyəsinin aşağı olacağını xəbər verir. Eksperimental siniflərdəki irəliləmə yeni sistemin üstünlüyünü göstərirsə də, əslində belə eksperiment şübhə doğurur.

Kontrol obyektlərdə işləyənlər eksperimentin mahiyyəti haqqında müəyyən məlumata malik olsalar da, onların həmin sistemi tətbiq etmələrinə icazə verilməməlidir. Təbiidir ki, onlar eksperimental obyektlərdən kəskin şəkildə geridə qalmamaq üçün işlərində müəyyən yeniliklər yaratmağa çalışacaqlar.

Eksperimentatorun kontrol siniflərin fəaliyyətinə nə dərəcədə müdaxilə etməsinə eksperimentin növlərindən bəhs olunarkən toxunulacaqdır.

9) Eksperimental və kontrol siniflərin hamısında şərait ( işıq, istilik, dərs ləvazimatı, dərsin müddəti, şagird-müəllim münasibətləri, şagirdlərə təsir göstərən başqa amillər) eyni olmalıdır.

Eksperimental və kontrol siniflərin hər ikisində tədris materialı (eksperimental amildən–sınaqdan keçirilən hadisədən başqa) eyni olmalıdır.

10) Eksperimental siniflərin işinə başqalarının müdaxilə etmələrinə, kənar təsirlərə yol verilməməlidir.

11) Eksperimentin dəqiqliyi xatirinə müəyyənedici eksperimentə cəlb olunmuş məktəb (sinif, şagird qrupu) onun yekunlaşdırılmasınadək dəyişdirilməməlidir. Eksperimentin xarakterindən əsaslı olaraq eksperimentator tədqiqatı müəyyən müddət (bir neçə gün, bir neçə ay, bir neçə il) ərzində eyni obyektlə aparılmalıdır.

Fərziyyə elmi biliklərin inkişafının başlıca amillərindən biri olub, eksperimental yolla nəzəri yoxlanılmasını tələb edir. Bu, ya fərziyyəni təsdiq edir ya da onu inkar edir. Birinci halda təsdiq olunan fakt konsepsiya, nəzəriyyə kimi qəbul edilir. İkinci halda yeni fərziyyə qurulur.

Eksperiment vaxta görə qısamüddətli və uzunmuddətli ola bilər. Nəzəri cəhətdən qısamüddətli eksperimenti laborator şəraitdə bir-iki saat ərzində keçirmək mümkün ikən didaktik eksperiment uzunmüddətli olur. Bütöv sözlərlə oxu texnikasının öyrədilməsi üzrə eksperimentə sentyabrın axırında başlamaq və əlifba təlimi başa çatanda bu işi yekunlaşdırmaq mümkündür. Əlifbanın uşaq bağçalarında beşyaşlılara öyrədilməsi imkanlarının sübuta yetirilməsi isə bir il tələb edir.

İbtidai siniflərdə müəllim şagirdlərin proqram həcmində təlim materiallarını qavramalarının xüsusiyyətlərini, onların sistematik kursları mənimsəməyə necə hazır olmalarını öyrənirsə, yaxud yaradıcı monoloji nitqin inkişafı araşdırılırsa, eksperiment 4 il tələb edir. Ümummәktəb əhəmiyyəti olan eksperiment-

lər daha çox vaxt tələb edir. 6 yaşdan təlimə başlanılması ilə əlaqədar eksperiment 14 il davam etdi. Tərbiyə problemi üzrə eksperimental tədqiqat xüsusilə uzun vaxt tələb edir. Uşaqların müasir tələblərə uyğun şəxsiyyət kimi formalaşması üzrə işə I sinifdən başlanır və bu iş 11 ildən sonra yekunlaşdırılır.

Uzunmuddətli eksperimentin gedişi müddətində cəmiyyətin həyatında böyük dəyişikliklər baş verə bilər. Bəzən məktəbə elə sosial sifariş verilir ki, ondan asılı olaraq eksperimentin istiqaməti dəyişir. Belə hallarda ola bilər ki, eksperimentin nəticəsi heç kəsə lazım olmasın. Gözlənilən nəticənin alınması üçün fərziyyəni, eksperimental və kontrol sinifləri şagird kontingentinin sayını, pedaqoji hadisənin, prosesin hansı meyarlarla qiymətləndiriləcəyini dəyişmək lazım gələ bilər.

Hazırlıq dövründə daha böyük məsuliyyət və diqqət tələb edən elmi fərziyyənin işlənməsidir. Fərziyyənin düşünülmüş şəkildə işlənməsi eksperimentin müvəffəqiyyətini təmin edir. Fərziyyəyə istinad etməklə tədqiqatçı inandırıcı qənaətə gəlir. Fərziyyənin irəli sürülməsi hadisə ilə elmi qanunlar arasında əlaqələrin açılmasına aparan yol hesab olunur. Fərziyyə axtarılan ideyanın doğruluğunu, həm də nə dərəcədə doğru olduğunu sübuta yetirmək üçün güman edilən variantın sınaqdan keçirilməsi şəraitini nəzərdə tutur. Fərziyyə bəzən müəyyən nəzəri təklif şəklində müəyyənləşdirilir və onlardan nəşət edən metodik tövsiyələr şəklində dəqiq formalaşdırılır. Bəzən isə müəyyən didaktik proses, ona təsir göstərən bu və ya digər amillər haqqında tədqiqatçının ümumi gümanı, zənni olur. Bu, fərziyyədə öz əksini tapmalıdır.

Fərziyyənin ifadə tərzi belədir: «Əgər filan şərtlərə əməl olunarsa (filan məsələlər filan şəkildə yerinə yetirilərsə), nəticə filan cür olar». Bu zaman ən çətin məsələ şərtlərin, eksperimentə qoyulan ideyanın düzgün müəyyənləşdirilməsidir. Hamıya az-çox məlum olan, söz düşəndə nəticəsi görünən fərziyyəni yoxlamağa ehtiyac yoxdur. Nəzəri ədəbiyyatda verilməmiş, təcrübədə tapılmayan, mübahisəyə səbəb olan məsələnin həllini ancaq düzgün qoyulmuş fərziyyənin köməyi ilə eksperimental tədqiqat nəticəsində müəyyənləşdirmək mümkündür.

Fərziyyə həqiqi mənası naməlum olan elmi guman, ehtimalıdır. Mahiyyət etibarilə fərziyyə elmi biliklərin nəzəri, bəzən eksperimental yolla yoxlanmasına imkan verir. Eksperiment obyektiv qoyulduqda fərziyyəni təsdiq edir. Eksperimental yolla sübuta yetirilmiş, sübut olunmuş nəzəriyyə, konsepsiya hesab edilir.

1978-ci ildən bir neçə sinifdə başlanan, 1986-ci ildən geniş vüsət alan 6 yaşdan təlim 1992-ci ildən ölkəmizin bütün məktəblərində həyata keçirildi. I sinfə 6 yaşdan qəbul təhsil qanunu ilə təsbit olundu.

Ola bilər ki, eksperimental tədqiqat fərziyyədə nəzərdə tutulmuş ehtimalı doğrultmasın, əksinə inkar etsin. Belə nəticə də elmi cəhətdən çox dəyərlidir. Adətən, eksperimental tədqiqatın köməyi ilə ekspementatorun irəli sürdüyü ideyanın təlim və tərbiyə prosesində müsbət nəticə verəcəyini gözləyirlər. Ola bilər ki, eksperiment yekunlaşdırılarkən gözlənilən nəticə alınmasın. Bəzən belə

nəticələrin qiyməti heç də müsbət nəticələrinkindən az olmur. Belə nəticələr fəaliyyətin yönümünü, təlim və ya tərbiyəyə təsir göstərən faktorların sayını, xarakterini dəyişməyi tələb edir. Eksperimentator fərziyyə üzərində işləyir, yeni fərziyyə qoyur.

Ola bilər ki, eksperiment ağlagəlməz mənfi nəticə versin. Belə hallarda eksperimental tədqiqatın nəticələri arxivə verilir. Gələcəkdə həmin sahə üzrə bu və ya digər aspektdə eksperiment aparanlar vaxtilə aparılmış eksperimentin gedişi və nəticələrini nəzərdən keçirir, onun uğurlarını, yol verilən nöqsanları diqqətlə öyrənir ki, eksperimentində səhvlərə yol verməsin.

1980-1984-cü illərdə ibtidai təlim sistemində beşgünlük tədris həftəsi üzrə eksperimental tədqiqat aparıldı. Müvafiq tədris materialının hazırlanması, müəllimlərin ixtisasının artırılmaması, şagirdlərin təlim yükünün artırılması üzündən nəticə qənaətbəxş olmadı. SSRİ PEA-na hesabat verildi. Tam 20 ildən sonra problemə yenidən qayıdılarkən həmin dövrdə əldə edilmiş nəticələr nəzərdən keçirildi və onlardan istifadə olundu.Yaxud keçən əsrin 70-80-cı illərində ibtidai siniflər üzrə günüuzadılmış qruplar yaradıldı və bu sahədə eksperiment geniş vüsət aldı. Bir müddətdən sonra məlum oldu ki, belə qruplar şagirdlərin bir qisminin dərsdən sonra müəllimin rəhbərliyi altında ev tapşırqlarını yerinə yetirmələrinə, inkişaf etmələrinə müsbət təsir göstərir. Bununla belə, get-gedə iş sinif - dərs sisteminin yenidən təkrarlanması ilə nəticələndi. Beləliklə, şagirdlərdə ciddi yorğunluq özünü göstərdi, sərbəst, müstəqil fəaliyyət göstərmələri üçün vaxt qalmadı. Ona görə də günüuzaldılmış qruplar ləğv edildi.

Eksperimentin nəticələrinin dəqiqliyi onu təşkil edən tədqiqatçının elmi səriştəsindən və vicdanından asılı olur. Ola bilər ki, eksperiment zahirən inandırıcı olsun. Fərziyyənin formalaşdırılması, eksperimentin qoyulma qaydası, onun aparılması, nəticənin ümumləşdirilməsi yolları tələblərə cavab versə də, eksperimentatorun niyyətindən asılı olaraq nəticə dəyişə bilər. Elmi məsuliyyəti olmayan «eksperimentator» faktları dəyişir, nəticəni yaxşılaşdırır, şişirdir. Bəzən düzgün, obyektiv fərziyyə eksperimentin düzgün qurulmaması və tələb olunan qaydada aparılmaması üzündən alınan nəticə ilə təsdiq edilmir. Buna səbəb eksperimentatorun qeyri-obyektivliyi, subyektiv yanaşması olur. Bəzən isə yanlış fərziyyə əsasında qoyulmuş eksperiment elmi cəhətdən nə qədər düşünülmüş şəkildə keçirilsə də, nəticə düzgün olmur, lakin formal cəhətin aldadıcı təsiri ilə düzgün kimi qəbul edilir.

Səhvlərin qarşısının alınması üçün pedaqoji eksperiment düzgün planlaşdırılmalı, onun gedişində ciddi düzəlişlərə və əlavələrə yol verilməməlidir.

## Ədəbiyyat

1. А.М.Новиков. Научно-экспериментальная работа в образовательном учреъдении. М., АПО РАО, 1998.

2. В.И. Загвязинский Методология и методика дидактичечкого исследования. М.: Педагогика, М., 1982.

3. Методы педагогических исследований ./ Под редакцией В.И. Ъуравлева. М.: Просвещение, 1972.

4. Л.И. Новикова, А.Т. Куракин. Путь к творчеству. М., «Просвещение», 1966.

5.М.Н. Скаткин. Методология и методика педагогических исследований. М., «Педагогика» 1986.

**Педагогический эксперимент**

**Резюме**

В ходе исследования возникает необходимость в експериментальной проверке возникающих противоречий и сомнений. Эксперимент, являясь особого вида эмпирическим методом, дает возмоъность в сравнительной форме доказать эффективность изучаемого явления в процессе педагогического исследования. Соответственно идеи эксперипента выдвигается гипотеза. Экспериментатор разрабатывает его методику.

Для проведения эксперимента выделяется обьекты-группы (классы, школы, район). В дальнейшем для проверки достоверности гипотезы эксперимента, проверки его сравнительной форме определяются такъе одноуровневые контрольные обьекты.

Pedagogical exsperiment

**Resume**

In the process of research the question arises of necessity in experimental examining arising contradiction and doubt. The exsperiment being special form of empiricial method, gives possibilities in compared form to prove the effective of learnt phenomenon in the prosess of pedagogical investigation. Correspondigly, the idea of the experiment brings up hypothesis. Experimentator works up its methodics.

For the carring out of the experiment allocated objects-groups (classrooms, schools, discrict). In futher for the examining of reliable hypothesis of experiment, examining it in compare form determines also control object.

# "HƏYAT BİLGİSİ" PROQRAMI

(I–IV siniflər üçün)

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 18.04.2007-ci il tarixli 324 №-li əmri ilə təsdiq edilmişdir.*

*Tərtibçilər:* ***Z.Qaralov, Ə.Hüseynov, Ə.Osmanlı, F.Süleymanoğlu, V.Məmmədov***

## İZAHAT VƏRƏQİ

İnteqrativ fənn olan «Həyat bilgisi» ümumtəhsil məktəblərinin ibtidai təhsil pilləsində tədris edilir. Bu fənn şagirdlərə yaşadıqları sosial və bioloji mühitlə bağlı ilkin anlayışlar aşılamaqla yanaşı, onlarda cəmiyyət, təbiət, ekologiya və mənəviyyat haqqında elmi biliklərin formalaşması üçün zəmin yaradır.

Bu pillədə şagird ətrafındakıları hələ təzə-təzə öyrənmə prosesində olduğundan, demək olar ki, onu gördüyü, eşitdiyi, müşahidə etdiyi hər şey maraqlandırır. Daim təkrar elədiyi: «*Bu kimdir?*», «*Bu nədir?*», «*Niyə belə olur?*», «*Haradan gəlir?*», «*Hara gedir?*» və s. kimi suallara tapdığı cavablara uyğun olaraq Dünya onun gözündə xırda-xırda hissələri ilə hələ təzəcə bütövləşməyə, böyüməyə başlayır.

Ona görə də «Həyat bilgisi»nin başlıca məqsədi şagirdlərin şüurunda əhatə olunduqları canlı və cansız aləmin vahid, bütöv və bölünməz obrazını yaratmaq, həmçinin onlarda gündəlik həyatda istifadə edəcəkləri bacarıq və vərdişlər formalaşdırmaqdır.

«Həyat bilgisi» fənninin tədrisi zamanı şagirdlərin ətrafdakı varlıqlar (əşyalar), eləcə də cəmiyyətdə və təbiətdə müşahidə etdikləri, haqqında müxtəlif mənbələrdən eşitdikləri hadisələr, dəyişikliklər və bunlar arasındakı əlaqələr barədə bilgilərinin sistemləşdirilməsi və ardıcıl dərinləşməsi prosesi gedir. Bu proses bir tərəfdən onların ətraf aləmlə bağlı bilgilərini artırırsa, digər tərəfdən daxili aləmlərinin, mənəvi dünyalarının zənginləşməsinə xidmət edir. Əhatə olunduqları insanlara, doğulduqları kəndə, şəhərə, doğma Vətənə, onun təbiətinə məhəbbət hissləri formalaşdırır. Dünyanın maddi və mənəvi zənginliklərinə, insanların yaradıcı əməyinə, xeyirxah əməllərinə, şəxsiyyətinə hörmət və qayğı təlqin edir.

Kursun məzmunu geniş məsələlər dairəsini əhatə edir. Bu məzmun müxtəlif tədris vahidlərinə inteqrasiya olunsa da, onlar ümumilikdə dörd əsas məzmun xətti təşkil edir: **insan və təbiət; fərd və cəmiyyət; mənəviyyat; sağlamlıq və təhlükəsizlik.**

Şagirdlər bu məzmun xətlərinin köməyilə həm də yaxın ətrafdakı sadə və kiçik varlıqlardan tutmuş çox-çox uzaqlardakı nəhəng Göy cisimlərinə, şəxsi gigiyenalarından tutmuş qlobal ekologiyaya qədər ən müxtəlif varlıq və hadisələrə aid bilmədikləri elementar məlumatları toplamağın ilkin yollarını öyrənirlər. Kurs onların hissi və idraki vərdişlərinin, nitq qabiliyyətlərinin formalaşmasına müxtəlif tədris vasitələri ilə kömək edir, hər şeyə qarşı diqqətli olmağı, əldə etdikləri bilikləri başqalarına səlis və dəqiq çatdıra bilməyi, bəzilərindən gündəlik həyatda istifadə etməyi öyrədir.

Proqramda diqqət yetirilən əsas məsələlərdən biri Vətən, paytaxt, bayraq, gerb və himn anlayışlarının uşaqlara anlaşıqlı şəkildə izah edilməsi, onlarda vətəndaşı olduqları dövlətə və onun simvollarına dərin məhəbbət və hörmət hisslərinin formalaşdırılmasıdır.

Təhsilin qarşısında duran ən vacib məsələ demokratik düşüncəyə və çağdaş bacarıqlara malik insan yetişdirmək olduğundan, kurs şagirdlərə təlimə başladıqları ilk günlərdən demokratiya ilə bağlı ən sadə anlayışları aşılayır. Ona görə də onların özlərinə rəhbər — sinif nümayəndəsi seçmələri proqramda demokratiya ilə ilk praktik təmas kimi nəzərdə tutulur. Burada həmçinin cəmiyyətdə tələb olunan etiket-davranış qaydalarının, mənəvi borc anlayışının, "Beynəlxalq Uşaq Konvensiyası"nda təsbit olunmuş hüquqların mənimsənilməsinə, sağlamlıq və təhlükəsizlik məsələlərinin öyrədilməsinə xüsusi fikir verilir.

Şagirdlər vergi və sığorta anlayışlarını mənimsəyir, ailə və dövlət büdcələrinin formalaşması və xərclənməsi ilə bağlı ilkin biliklər əldə edirlər.

«Həyat bilgisi» fənninin tədrisi prosesində təlimin ən müxtəlif metod və formalarından istifadə edilir. Ekskursiyalar, gəzintilər, müxtəlif peşə sahibləri ilə görüşlər təşkil olunur. Şagirdlər ayrı-ayrı mövzuların öyrədilməsi ilə bağlı küçədə, bağda, parkda, meşədə, təbiət muzeylərində və dövlət qoruqlarında olurlar. Onlar müəllimlərin köməyi ilə təbiətin və sosial mühitin müəyyən proses və hadisələrini müşahidə edir, praktik işlər görür, sadə təcrübələr aparır, test tapşırıqları yerinə yetirir, didaktik oyunlar keçirirlər. Bu işlər şəkil çəkmək, təklif olunan qrafik rəsmləri boyamaq, ətraf aləmlə bağlı kompyuter proqramlarına və filmlərə baxmaqla tamamlanır.

İbtidai təhsil pilləsində tədris olunan fənlər sırasında «Həyat bilgisi»nin xüsusi yeri var. Belə ki, ətraf aləmlə tanışlıq və onun öyrənilməsi fasiləsiz olduğundan, o, təkcə bu fənnin tədris edildiyi dərs forması ilə məhdudlaşmır. Eyni zamanda «Ana dili», «Riyaziyyat», «Musiqi», «Texnologiya» və digər dərslərdə, sinifdənxaric işlərdə məktəbdən kənarda, bir sözlə, hər yerdə davam edir. Ona görə də «Həyat bilgisi» kursu belə fasiləsiz öyrənmə prosesini sistemləşdirib, elmi zəmin üzərində bərqərar edir. «Həyat bilgisi» kursunun böyük bir hissəsi təhsilin sonrakı pillələrində «Fizika», «Riyaziyyat», «Kimya», «Biologiya», «Tarix», «Coğrafiya» və s. fənləri üçün propedevdik materialdır.

Fənnin daha dərindən mənimsədilməsində şagirdin valideynlərinin, yaxınlarının üzərinə də ciddi vəzifələr düşür. Onlar dünyanı tanımaq, qavramaq istəyən uşağın suallarına səbirlə, anlaşıqlı şəkildə cavab verməli, müşahidə etdikləri hadisələrin başvermə səbəbinə sadə izahlar tapmalıdırlar. Elmi şəkildə düşünməyə imkan yaradan məsləhətlərlə onlara əməli kömək etməlidirlər.

Proqramda hər bölümün öyrədilməsinə ayrılan saatların miqdarı təxminidir. Müəllim sinfin hazırlıq səviyyəsinə uyğun olaraq bu vaxtı müstəqil bölüşdürə bilər.

# PROQRAMIN MƏZMUNU

## I SİNİF (*32 saat*)

### Məktəbə başlayarkən (*9 saat**)

Bilik günü. Uşaqlar niyə məktəbə gedirlər? Müəllimlə, məktəblə, sinif yoldaşları ilə tanışlıq. Dərs vəsaitləri ilə tanışlıq. Məktəbəgəlmə, tənəffüs və məktəbdəngetmə qaydaları. Küçədə təhlükəsiz hərəkət. Məktəb direktorunun və sinif rəhbərinin vəzifələri. Məktəbdə davranış qaydaları. Məktəbin və sinif otağının təmizliyi. Şəxsi gigiyena. Nəyə görə yeməkdən əvvəl əllərimizi yumalıyıq? Nəyə görə meyvə və tərəvəzi yeməzdən əvvəl yuyurlar? Dırnaqları vaxtlı-vaxtında tutmaq nəyə görə vacibdir? Geyimlərimiz nə üçün təmiz olmalıdır?

Ailəmiz, qohumlarımız, qonşularımız.

Sinif nümayəndəsinin seçilməsi timsalında demokratiya anlayışı ilə ilkin tanışlıq. Sinifdə təmizliyə məsul şəxsin təyini. Sinif növbətçiliyi cədvəli. İdman sağlamlığın rəhnidir.

Vətənimiz, paytaxtımız, bayrağımız, himnimiz. Himn nə vaxt oxunur və onu oxuyarkən necə hərəkət etməliyik?

### Ayağımızın altındakı Yer, başımızın üstündəki Göy (*8 saat*)

Ayağımızın altında nələr var? Daşlar, çınqıllar, torpaq, otlar. Onları bir-birindən fərqləndirən əlamətlər. Ətrafımızda nələr var? İnsanlar, Evlər, ağaclar, avtomobillər, heyvanlar. Pəncərənin önündə dibçəkdə bitən nədir? Canlı və cansız varlıqlar. Bəzi ev heyvanları və ev quşları ilə tanışlıq.

Bitkilər və onların orqanları: kök, gövdə, budaq, yarpaq, çiçək, meyvə. Bitkiləri yarpaqlarına və meyvələrinə görə necə fərqləndirmək olar? Ağac da, kol da, ot da bitkidir, bəs onların fərqləri nədir? Ağaclar nə vaxt yarpaqlayır? Nə vaxt yarpaqlarını tökürlər? Həmişəyaşıl ağaclar. Bitkilərin faydası. Meyvələr nə vaxt yetişir? Müxtəlif meyvələrlə tanışlıq. Çörək necə əmələ gəlir?

Yaşadığımız Yer kürəsi. Gecələr göydə nələr görmək olar? Bəs gündüz? Günəş hansı formadadır? Bəs Ay? Bəs ulduzlar? Günəş yerə ən yaxın ulduzdur.

Fəsillər. Payız. Payızda canlı və cansız varlıqlar.

Bulaq, arx, çay, göl, dəniz, okean. Təmiz su. Çirkli su. Evimizə su haradan gəlir? Çirkab suları hara gedir?

Suda yaşayan bəzi canlılarla tanışlıq.

### Təbiət hadisələri (*8 saat*)

Gecə və gündüz necə yaranır? Günəş haradan doğur, harada batır? Gecələr yatmaq, istirahət etmək lazımdır! Yağış necə əmələ gəlir? Yağışın faydası. Yağış yağmasa, nə baş verər? Bəs çox yağsa? Şimşək. Göy qurşağı və onun rəngləri. Çaylar necə əmələ gəlir? Onlar hara axır? Daşqınlar. Onlardan necə qorunmalı? Dolu. Dolunun təsərrüfatlara vurduğu ziyan. Doludan qorunmaq lazımdır! Qar və onun faydası. Şaxtadan qorunma yolları. Meh, külək, tufan. Tufandan necə qorunmalı? Sinoptiklər. Onlar havanın necə olacağını əvvəlcədən proqnozlaşdırırlar.

---

* Bu proqram ilk dərs gününün («Bilik günü»nün) 2 saatının «Həyat bilgisi» kursu çərçivəsində aparılmasını nəzərdə tutur.

Yanğın. Odla ehtiyatlı olun! Zəlzələ təbiətin ən dəhşətli hadisəsidir. Zəlzələ zamanı necə davranmalı?

### Bilik və insan əməyi (*8 saat*)

Keçmişdə insanların həyatı. İnsan yurdları — köhnə daxmalar və müasir binalar. Məişət cihazları: soyuducu, radio, televizor, audio və video maqnitofonlar, kompyuterlər. Müasir telefonlar. Kətməndən kotanlı, taxılsəpənli traktorlara. Oraqdan kombayna. At, ulaq arabalarından qatarlara, yük maşınlarına, gəmilərə. Borular da nəqliyyat vasitəsidir. Yollar: torpaq yol, asfalt yol, dəmir yolu, dəniz yolu, hava yolu. Körpülər. Maşınları hərəkətə gətirən nədir? Azərbaycanımızın sərvətləri. Qara qızıl — neft. Elektrik enercisini haradan alırıq? Elektrik olmasa nə baş verər? Mingəçevir Su-Elektrik Stansiyası. Təyyarələr. Kosmik peyklər. Onlar da insanlara xidmət edir.

### Şagirdlərin bilik, bacarıq və vərdişlərinə verilən tələblər

***Şagird aşağıdakıları bilməlidir*:**

*— özünün və valideynlərinin adını, soyadını, yaşadığı şəhərin (kəndin, qəsəbənin) adını, ev ünvanını və ev telefonunun nömrəsini; əsas nəqliyyat vasitələrini, əsas peşələrin adlarını;*

*— ölkənin himnini, bayrağını, ölkə rəhbərinin — Prezidentin adını və soyadını, ölkənin paytaxtını, böyük şəhərlərinin, çaylarının adlarını, böyük ölkələrdən, eləcə də qonşu ölkələrdən bir neçəsinin adını;*

*— görüşmənin, ayrılmanın və müraciətin milli ənənələrimizə uyğun formalarını; xahişetmə, təqdimetmə, təbriketmə, minnətdarlıq, üzr istəmə, ictimai yerlərdə, xüsusən məktəbdə lazım olan digər etiket qaydalarını;*

*— insan bədəninin quruluşunu, şəxsi gigiyena qaydalarını, ilin müxtəlif fəsillərində öz sağlamlığını qoruma yollarını;*

*— fövqəladə hallar (tufan, çovğun, daşqın, zəlzələ, yanğın) və həyat üçün təhlükəli olan hadisələr zamanı davranış qaydalarını; küçədə təhlükəsiz hərəkət qaydalarını, svetoforun işıqlarının təyinatını;*

*— canlı və cansız varlıqları, yabanı və mədəni bitkiləri, gülləri, cücüləri, quşları, balıqları, ev heyvanlarını, vəhşi heyvanları, yaşadığı ərazidə qorunan bitkiləri, təbiətlə təmas qaydalarını;*

*— dağ, təpə, dərə, düzənlik, bulaq, arx, çay, göl, dəniz, meşə, Yer, Göy, Günəş, Ay və ulduz anlayışlarını.*

***Şagird aşağıdakıları bacarmalıdır*:**

*— ailədə, məktəbdə və ictimai yerlərdə lazım olan etiket qaydalarından istifadəni;*

*— şəxsi gigiyena qaydalarına əməl etməyi, soyuqdan, istidən, günvurmadan, daşqından, sıldırımdan qorunmağı, zəlzələ zamanı təhlükəsiz yerdə gizlənməyi, küçədə təhlükəsiz hərəkət etməyi, evdəki bəzi məişət cihazlarından təhlükəsiz istifadə etməyi;*

*— təbii və süni, canlı və cansız varlıqları bir-birindən fərqləndirməyi, öyrəndiyi bitkiləri, heyvanları, quşları adına görə tanımağı;*

*— müəllimin köməyi ilə təbiət və cəmiyyət hadisələri ilə bağlı müşahidələr*

*aparmağı;*

*— adını öyrəndiyi idman növlərini, nəqliyyat vasitələrini vizual fərqləndirməyi;*

*— təbiətlə təmasda tələb olunan davranış qaydalarına əməl etməyi;*

*— Azərbaycan Respublikasının Dövlət Bayrağını təsvir etməyi.*

## II SİNİF (*32 saat*)

### Təbiət. Canlı və cansız varlıqlar (*10 saat*)

Təbiət — bizi əhatə edən aləm. Təbii varlıqlar: hava, su, torpaq, insanlar, heyvanlar, bitkilər. Süni varlıqlar: binalar, maşınlar, qurğular.

Canlıların yaşaması üçün vacib olan istiliyin mənbəyi — Günəş. Günəş ailəsi. Günəş sönsə nə baş verər? Yerin ən yaxın qonşusu — Ay.

Hava və su həyat mənbəyidir. İnsanlar, bitkilər və digər canlılar üçün onların əhəmiyyəti. İçməli, təmiz su harada olur? Şəhərimizə (kəndimizə) borularla gətirilən çay sularını niyə təmizləyirlər? Meşələr təmiz hava mənbəyidir. Havanı və suyu çirkləndirən nədir? Zavodların, fabriklərin, avtomobillərin buraxdığı zəhərli tüstülər.

Bitkilər aləmi — enliyarpaqlı və iynəyarpaqlı ağaclar, kollar, otlar. Yabanı və mədəni bitkilər. Bağ, bostan, dirrik, tarla.

Heyvanlar aləmi:

Cücülər. Onların xeyri və zərəri. İnsanlar üçün işləyən cücülər — arı və ipəkqurdu.

Quşlar. Ev quşları, vəhşi quşlar. Niyə quşların bir hissəsi isti ölkələrə uçub gedir? Hansı quşlar qışı yurdumuzda keçirir? Quşların yuvaları. Niyə onlara toxunmaq olmaz?

Ev heyvanları. Onların insan üçün əhəmiyyəti. Ev heyvanlarından alınan qida məhsulları. Vəhşi heyvanlar və onların yuvaları.

Suda yaşayan heyvanlar (balina, delfin, köpəkbalığı, suiti və s.). Su bitkiləri. Dəniz zəhərlənsə, nə baş verər?

Fəsillərin dəyişməsi insanların, heyvanların, bitkilərin, quşların və cücülərin həyat tərzinə necə təsir edir?

İnsanlar ətraf aləmdəki canlı və cansız varlıqları qorumasa nə baş verər?

«Azərbaycanın Respublikasının Qırmızı kitabı» nə üçün yaradılıb?

### Şəhərimizin/kəndimizin həyatı (*5 saat*)

Bizim şəhərimiz (kəndimiz). Onun tarixi haqqında nə bilirik? (Əsas, anlaşıqlı məlumatlar.) Yaşadığımız ərazidə keçmişin abidələri varmı? Onları nəyə görə qorumaq lazımdır?

Səhərlər böyüklər hara gedirlər? İnsanlar nəyə görə işləyirlər? Valideynlərimin peşəsi.

İqtisadiyyat nə deməkdir? Sənaye, kənd təsərrüfatı, nəqliyyat, ticarət, xidmət. Pul nə üçündür? Milli pulumuz. Mədəniyyət — teatr, kino, kitabxana.

Kənd təsərrüfatında çalışanlar hansı peşələrin sahibləridir? Bəs sənayedə ça-

lışanlar? Şəhərimizdə (kəndimizdə) göstərilən xidmətlər.

Məhəlləmizdə tikilən binada kimlər (peşələri) işləyir?

İnsanlar öz həyatlarını təmin etmək, daha yaxşı yaşamaq üçün təbiətdən və torpaqdan necə istifadə edirlər, hansı bitkiləri əkib-becərirlər? Rayonumuzda hansı bitkilər becərilir? Hansı faydalı qazıntılar (tikinti materialları) çıxarılır? Enerci mənbələri — neft, qaz, külək, Günəş, çay.

### Birgəyaşayış qaydaları (*5 saat*)

Ailə, məhəllə, sinif, komanda, kollektiv, cəmiyyət. Birgə oyunlar. Kollektivdə rəhbərin tapşırığına əməl etmək zəruridir. Kollektiv qarşısında məsuliyyət.

İnsanların bir-birilərilə ünsiyyəti və anlaşması üçün lazım olan qaydalar: həmsöhbətinə diqqətlə qulaq asmaq, konkret və məsələnin məğzindən danışmaq, verdiyin sözə dəqiq əməl etmək.

Böyüklərə, həmyaşıdlara və kiçiklərə müraciət qaydaları. Yoldaşa kömək. Qızlar və oğlanlar.

Telefon danışığı etiketləri. Mağazada davranış qaydaları. Qonağı necə qarşılamalı? Qonaq gedərkən və yemək süfrəsi arxasında oturarkən özünü necə aparmalı? Teatrda, kino zalında, yığıncaqda niyə hündürdən danışmaq olmaz? Həyətimizdəki, məhəlləmizdəki qocalara, xəstələrə necə kömək edirik?

### İnsan. Onun bədən quruluşu və sağlamlığı (*5 saat*)

İnsan — təbiətin ağıllı canlısı. İnsanın bədən quruluşu. Duyğu orqanları (göz, qulaq, burun, dil, dəri) ətraf aləmin dərkində bizə kömək edir.

Xəstələndikdə hara müraciət edirlər? Poliklinika, xəstəxana, sanatoriya. Həkimlər (can həkimi, diş həkimi, boğaz-qulaq-burun həkimi).

İlin fəsilləri və insan sağlamlığı. Xəstələndikdə həkimin və valideynlərin məsləhətlərinə qulaq asmaq lazımdır. İynədən və dərman həblərindən qorxmayın. Yoluxucu xəstəliklər zamanı ətrafınızdakı adamları yoluxmadan qoruyun.

Tanımadığınız meyvələri, bitkiləri yemək olmaz.

Suya girərkən ehtiyatlı olun. Çirkli sularda çimməyin! Valideynləriniz, böyükləriniz yanınızda olmadıqda mağazadan, köşkdən şirniyyat, saqqız və s. ərzaq məhsulları alıb istifadə etməyin.

### Məkan, zaman, hərəkət. İlkin coğrafi anlayışlar (*7 saat*)

Məkan. Açıq və qapalı məkanlar. Hər bir varlıq müəyyən məkanda yerləşir.

Zaman — keçmiş zaman, indiki zaman, gələcək zaman. Zamanın ölçülməsi.

Hərəkət — düzxətli və dairəvi hərəkətlər.

Planetimizin kiçik modeli — qlobus. Xəritə nə üçündür? Dünyanın xəritəsi. Yerin quru və su sahələri. Materiklər, adalar, okeanlar, dənizlər.

Dağ, təpə (zirvə, yamac, döş, ətək), düzənlik, çökəklik, dərə.

Çay. Çayın mənbəyi, mənsəbi, yatağı, qolları və sahilləri.

Vətənimizin təbiəti.

**Şagirdlərin bilik, bacarıq və vərdişlərinə verilən tələblər**

***Şagird aşağıdakıları bilməlidir:***

*— birgəyaşayış və fəaliyyət qaydalarını, üzvü olduğu kollektiv qarşısında məsuliyyətini;*
*— telefon danışığı etiketlərini;*
*— qonaqlıqda, süfrə arxasında, ictimai yerlərdə zəruri davranış qaydalarını;*
*— böyüklərə, həmyaşıdlara və kiçiklərə müraciət qaydalarını;*
*— insan bədəninin quruluşunu;*
*— duyğu orqanlarını;*
*— yoluxucu xəstəliklər zamanı özünü və ətrafdakı insanları yoluxmadan qoruma qaydalarını;*
*— piyadalar üçün nəzərdə tutulan yol nişanlarını;*
*— Günəş və Ay haqqında ümumi məlumatları;*
*— məkan, zaman və hərəkət anlayışlarını;*
*— qlobus və xəritə haqqında ilkin anlayışları;*
*— Azərbaycan Respublikasının xəritədəki təsvirini;*
*— yaşadığı şəhərin (kəndin) tarixi haqqında əsas məlumatları, onun ərazisindəki qədim abidələrin adlarını;*
*— böyük şəhərlərimizin adlarını;*
*— əsas peşələrin adlarını və onların təyinatını;*
*— sənaye, kənd təsərrüfatı, ticarət və xidmət anlayışlarını;*
*— milli pul əsginazlarımızı;*
*— insanların öz həyat və yaşamlarını təmin etmək üçün əkib-becərdikləri bitkiləri;*
*— ölkəmizin faydalı qazıntılarını, enerci mənbələrini;*
*— yaxın ətraflarındakı cücüləri, quşları, heyvanları, bitkiləri;*
*— dağ, təpə, dərə, düzənlik, çay, göl, dəniz, okean anlayışlarının mənasını;*
*— «Azərbaycanın Qırmızı kitabı»nın nə üçün yaradıldığını.*

***Şagird aşağıdakıları bacarmalıdır:***

*— özünü və yoldaşını təqdim etməyi;*
*— yaxındakı yoldaşları, dostları və qohumlarıgilə müşayiətsiz qonaq getməyi;*
*— Azərbaycan Respublikasının Dövlət Gerbini təsvir etməyi;*
*— telefonlardan, bəzi məişət cihazlarından (televizor, radio, video və audio maqnitofonlar, ütü) müstəqil istifadə etməyi;*
*— piyadalar üçün nəzərdə tutulmuş yol nişanlarına uyğun olaraq küçədə təhlükəsiz hərəkət etməyi;*
*— yoluxucu xəstəliklər zamanı özünü, özü xəstə olduqda isə ətrafındakıları qorumağı;*
*— mağazadan kiçik məbləğdə pul müqabilində bəzi şeyləri sərbəst almağı;*
*— bəzi bitki, heyvan və cücüləri şəkillərinə görə tanımağı;*
*— ev heyvanlarını və quşlarını yemləməyi və sulamağı;*
*— xəritədə və qlobusda planetimizin su və quru hissələrini göstərməyi;*
*— dünya xəritəsində Azərbaycan Respublikasının yerini tapmağı;*
*— dağ, təpə, zirvə, düzənlik anlayışlarının mənasını izah etməyi;*
*— saatın köməyi ilə vaxtı təyin etməyi.*

## III SİNİF (*66 saat*)

**Bilik günü (*1 saat*)**

Bilik günü. Yay tapşırıqlarının müzakirəsi.

**Sağlamlıq və təhlükəsizlik (*7 saat*)**
**(Özümüzü qoruyaq)**

Yol nişanları, onların əhəmiyyəti və insan təhlükəsizliyində rolu. Piyadalar üçün nəzərdə tutulan yol nişanları. Yol nişanlarının qorunmasının vacibliyi. Yanğın. Yanğına səbəb olan hərəkət və davranışlar. Yanğının insanlara və təbiətə ziyanı. Yanğın zamanı tələb olunan mühafizə tədbirləri. Evdə, həyətdə və digər yerlərdə həyat və sağlamlıq üçün təhlükə mənbəyi ola biləcək yerlər. Belə yerlərdə hərəkət və davranışlar zamanı lazım gələn təhlükəsizlik tədbirləri.
Ünsiyyət zamanı diqqət yetirilməsi vacib olan məsələlər. Tanımadığın adamlarla ünsiyyətə girmənin yarada biləcəyi təhlükələr. Şəhərdə və ya qələbəlikdə azarkən müraciət olunacaq şəxslər.

Mövsümi xəstəliklər və onlardan qorunma vərdişləri. Mövsümi xəstəliklərə tutulduqda onun başqalarına yoluxmasına yol verməmək üçün görülməli tədbirlər.

**Varlıqlar və hadisələr (*9 saat*)**
**(Maddələr və hissəciklər)**

İnsan ətraf aləmi necə öyrənir? Ətraf aləmin öyrənilməsində müşahidənin və təcrübənin rolu. Ətraf aləmin öyrənilməsində alət və cihazlardan (lupa, termometr, kompas, mikroskop, teleskop və s.) istifadə.

Temperatur. Onun ölçülməsinin əhəmiyyəti. Hava, su və tibb termometrləri.

Varlıqları əmələ gətirən maddələr və hissəciklər. Bərk, maye və qaz halında olan maddələr. İstinin və soyuğun təsiri ilə maddələrin halının dəyişməsi.

Hava və onun tərkibi. Havanın canlılar üçün əhəmiyyəti. Havanın xassələri və bu xassələrin təcrübədə yoxlanılması. Gündəlik həyatda rastlaşdığımız təbii və süni maddələr. Duz, şəkər, nişasta və turşular. Onların əhəmiyyəti və əldə olunması.

Aşınma. İstinin, soyuğun, küləyin, yağış və qar sularının təsiri ilə torpağın üst qatında baş verən dəyişikliklər. Nəhəng qayaların parçalanaraq xırda daşlara, çınqıla və quma çevrilməsi.

Torpaq. Onun tərkibi və əmələ gəlməsi. Torpağın tərkibindəki maddələrin təcrübədə nümayiş etdirilməsi. Torpağın canlılar üçün əhəmiyyəti.

**Yer kürəsi (*12 saat*)**
**(Daxili və xarici təbəqələri)**

Kosmos və Günəş sistemi. Kosmosun öyrənilməsinin əhəmiyyəti. Günəş sistemini əmələ gətirən planetlər və digər göy cisimləri. Planetimizin Günəş sistemində özünəməxsusluğu.

Yer necə əmələ gəlib? Onun əmələ gəlməsi ilə bağlı elmi və dini dünyagörüşlər. Yer kürəsinin qorunmasının vacibliyi. Yerin daxili təbəqələri (nüvə, manti-

ya və yer qabığı). Yer təbəqələrində gedən proseslər. Yer qabığının səthindəki dəyişikliklərin səbəbləri. Yerin xarici təbəqələri (litosfer, atmosfer, hidrosfer və biosfer) və onlarda gedən proseslər.

Yer kürəsinin su qatını təşkil edən okeanlar, dənizlər, göllər və çaylar. Onların həyat üçün əhəmiyyəti. Suda yaşayan canlılar.

Yerin quru hissəsi — materiklər. Materiklərin təbiəti. Bizim materik.

Yerin relyefi. Düzənliklər, dağlar, təpələr, dərələr. Ölkəmizin və yaşadığımız ərazinin relyefi.

Üfüq və onun cəhətlərinin təyin edilməsində yerli əlamətlərdən və kompasdan istifadə. Üfüqün cəhətlərini təyin edə bilmənin əhəmiyyəti.

Rəsm və plan. Onların fərqi. Plan çəkmənin əhəmiyyəti. Xəritələrin hazırlanmasında plandan istifadə. Fiziki və siyasi xəritələr. Xəritələrin oxunması. Vətənimizin fiziki və siyasi xəritələri.

### Birimiz, hamımız (*7 saat*)
### (Fərd, ailə, cəmiyyət)

Təbiətin ən ağıllı canlısı – insan. İnsanı başqa canlılardan fərqləndirən əsas cəhətlər. İnsan qrupları – irqlər, millətlər, dinlər. Rəngindən, dilindən və dinindən asılı olmayaraq bütün insanların hüquq bərabərliyi.

İnsanların birgəyaşayış və inkişaf formaları — ailə, kollektiv və cəmiyyət. Azərbaycan cəmiyyəti. Ümumi ailəmizi — cəmiyyətimizi təşkil edən xalqlar.

Dövlətin cəmiyyət həyatında rolu. Dünyada mövcud olan dövlət quruluşu formaları. Azərbaycan dövləti, onun rəmzləri və idarə olunması.

Dinlər. Səmavi dinlər.

Hüquqlarımız. «Uşaq hüquqları konvensiyası»nda və «İnsan hüquqları haqqında bəyannamə»də təsbit olunmuş hüquqlar, onların əhəmiyyəti. Öz hüquqlarımızdan necə istifadə edirik? Başqalarının hüquqlarına hörmət.

### Canlılar aləmi (*21 saat*)
### (Bitkilər, heyvanlar və başqa canlılar)

Bitkilər aləmi. Bitkilər aləmini təşkil edən canlılar — yosunlar, mamırlar, qıcılar, iynəyarpaqlı və çiçəkli bitkilər. Onların oxşar və fərqli cəhətləri. Bitki orqanları və onların əhəmiyyəti. Quru və şirəli meyvələr. Bitkilərin çoxalması və yayılması. Toxum, kök yumrusu, bığcıq və budaq qələmi ilə çoxalan bitkilər. Alaq otları. Onların mədəni bitkilərə ziyanı. Alaq otları ilə mübarizənin əhəmiyyəti. Dirrik bitkiləri və onların insan həyatında rolu. Dirrik bitkilərinin becərilməsi. Bostan bitkilərinin əhəmiyyəti və becərilməsi. Tarla bitkiləri və onların gündəlik həyatımızda rolu. Bağ bitkiləri. Ölkəmizdə becərilən bağ bitkiləri və onların əhəmiyyəti.

Heyvanlar aləmi — cücülər, hörümçəkkimilər, balıqlar, suda-quruda yaşayanlar, sürünənlər, quşlar və məməlilər. Onların oxşar və fərqli cəhətləri. Heyvanların çoxalması yolları—balalama, yumurta və kürü qoyma. Heyvanların qidalanması. Otyeyən, ətyeyən və hər şey yeyən heyvanlar. Heyvanların ov etməsi, düşmənlərindən qorunması və mühitə uyğunlaşması. Heyvanlar niyə məhv olur?

Azalmaqda və nəsli kəsilməkdə olan heyvanlar. Heyvanları qorumaq üçün nə etmək lazımdır? Heyvan-bitki əlaqələri. Bitkilərin qorunmasında və yayılmasında heyvanların rolu. Ölkəmizdə bəslənilən heyvanlar və onların gündəlik həyatımızda əhəmiyyəti. Heyvanları sevək, ancaq özümüzü də qoruyaq! Natəmiz, xəstə və təhlükəli heyvanlar.

Göbələklər və onların təbiətdə rolu. Göbələyin orqanları. Yeməli və zəhərli göbələklər. Yeməli göbələklərin yığılması qaydaları.

Mikroblar. Mikrobların öyrənilməsində mikroskopdan istifadə. Mikrobların əhəmiyyəti və zərəri. Qidaların və dərmanların hazırlanmasında bakteriyalardan istifadə.

## Ekologiya (*8 saat*)
## (Yaşadığımız mühitdə nələr baş verir?)

Yaşadığımız təbii mühit və onun əsas xüsusiyyətləri. Təbii mühitin çirklənməsində insan fəaliyyətinin rolu. Çirklənmiş mühitin insanlar və başqa canlılar üçün təhlükəsi.

Ekosistemlər. Canlı-cansız, bitki-heyvan, insan-təbiət əlaqələri. Ekologiya və onun qorunması yolları. Ekoloji fəlakətlər və onların proqnozlaşdırılmasının vacibliyi.

Yaşadığımız mühiti çirkləndirən zibilliklər. Onlardan xilas olma yolları.

Qoruqlarımız. Zəngin təbiətimizin qorunmasında təbiət qoruqlarının əhəmiyyəti. Ekoloci təmiz qida məhsulları və onların üstün cəhətləri. Ekoloci təmiz qida məhsullarının artırılmasının əhəmiyyəti.

## Yay tətilinə hazırlıq (1 saat)

Yay tətilini necə keçirməli? Yay tapşırıqları.

## Şagirdlərin bilik, bacarıq və vərdişlərinə verilən tələblər

***Şagird aşağıdakıları bilməlidir:***

— *insanı başqa canlılardan fərqləndirən əsas cəhətləri;*
— *özünün formalaşmasında ailəsinin və təhsil aldığı məktəbin rolunu;*
— *irqindən, dilindən və dinindən asılı olmayaraq bütün insanların hüquq bərabərliyini;*
— *qəbulolunmaz təklifləri nəzakətlə rədd etməyi;*
— *ünsiyyət qaydalarına əməl etməyin insanlararası münasibətlərə təsirini;*
— *irqlərin, dinlərin və dillərin müxtəlifliyini;*
— *dövlətin cəmiyyət həyatında rolunu;*
— *dövlət quruluşlarının müxtəlifliyini;*
— *Azərbaycan Respublikasının dövlət quruluşunu və idarə olunmasını;*
— *səmavi dinlər haqqında əsas məlumatları;*
— *"Uşaq hüquqları konvensiyası"ndakı təsbit olunmuş hüquqlarını;*
— *başqalarının hüquqlarına hörmət etməyin vacibliyini;*
— *yol nişanlarının əhəmiyyətini və qorunmasının vacibliyini;*
— *yanğına səbəb ola biləcək hərəkət və davranışları, yanğın zamanı tələb olunan davranış qaydalarını;*

— *evdə, həyatdə və digər yerlərdə sağlamlığı və həyatı üçün təhlükəli ola biləcək yerləri;*
— *mövsümi xəstəlikləri və onlardan qorunma qaydalarını;*
— *ətraf aləmin öyrənilməsində müşahidənin, təcrübənin, müxtəlif alət və cihazların rolunu;*
— *varlıqların maddələrdən və hissəciklərdən əmələ gəldiyini;*
— *istinin və soyuğun təsiri ilə maddələrin öz halını dəyişmələrini;*
— *havanın tərkibini və xassələrini;*
— *duz, şəkər, nişasta və bəzi turşuların əhəmiyyətini və əldə olunmasını;*
— *torpağın üst qatının aşınması səbəblərini;*
— *torpağın tərkibini və xassələrini;*
— *Günəş sistemi planetlərini;*
— *Yerin əmələ gəlməsi haqqında əsas elmi və dini dünyagörüşlərini;*
— *Yerin daxili və xarici təbəqələrini;*
— *okeanları və materikləri;*
— *Yer relyefinin əsas formalarını;*
— *üfüqün cəhətlərini;*
— *rəsm və planın fərqini, planın əhəmiyyətini;*
— *bitkilər aləmini təşkil edən əsas bitki növlərini;*
— *bitkilərin çoxalması və yayılması yollarını;*
— *tarla, dirrik, bağ və bostan bitkilərinin insan həyatında rolunu;*
— *heyvanlar aləminin əsas növlərini;*
— *heyvanların çoxalması yollarını;*
— *bitkilərin yayılmasında heyvanların rolunu;*
— *heyvanların və bitkilərin mühitə uyğunlaşmasını;*
— *heyvandarlığın əhəmiyyətini;*
— *göbələklərin və bakteriyaların təbiətdə rolunu;*
— *təbii mühitin çirklənməsində insan fəaliyyətinin nəticələrini;*
— *canlı-cansız, bitki-heyvan, insan-təbiət əlaqələrini;*
— *təbiətin qorunmasında qoruqların əhəmiyyətini.*

**Şagird aşağıdakıları bacarmalıdır:**
— *Azərbaycan Respublikası haqqında kiçik məruzə hazırlayıb təqdim etməyi;*
— *Azərbaycanın təbiət qoruqları haqqında məruzə hazırlayıb təqdim etməyi;*
— *kollektivdə işləməyi və yoldaşlarını birgə fəaliyyətə ruhlandırmağı;*
— *"Uşaq hüquqları konvensiyası"nda təsbit olunmuş hüquqlardan istifadə etməyi;*
— *müxtəlif irqlərə məxsus insanları fərqləndirməyi;*
— *yəhudilik, xristianlıq və islama aid olan bəzi dini atributları fərqləndirməyi;*
— *dinindən, dilindən və irqindən asılı olmayaraq bütün insanlara tolerant münasibət göstərməyi;*
— *piyadalar üçün nəzərdə tutulan yol nişanlarından istifadə etməklə yolda sərbəst hərəkət etməyi;*
— *yanğın baş verəcəyi təqdirdə özünü və yanındakı kiçik yaşlını mühafizə etməyi;*

— *tanımadığı adamlarla ünsiyyətə girməməyi;*
— *şəhərdə və qələbəlikdə azarkən kimlərə müraciət edəcəyini;*
— *mövsümi xəstəliklərdən qorunmağı;*
— *yaşadığı ərazinin ekoloci vəziyyəti haqqında məlumat hazırlayıb təqdim etməyi;*
— *yaşadığı ərazinin zibilliklərdən təmizlənməsi haqqında təkliflər verməyi;*
— *lupadan, termometrdən, mikroskop və teleskopdan istifadə etməyi;*
— *havanın xassələrini təcrübədə nümayiş etdirməyi;*
— *bərk cisimlərdə istinin və soyuğun təsirilə baş verən dəyişiklikləri təcrübədə nümayiş etdirməyi;*
— *torpağın tərkibini təcrübədə nümayiş etdirməyi;*
— *qlobusda okeanları və materikləri göstərməyi;*
— *yaşadığı ərazinin relyefini təsvir etməyi;*
— *üfüqün cəhətlərini yerli əlamətlərə görə və kompasla təyin etməyi;*
— *bəzi əşyaların, sinfin və evin planını çəkməyi;*
— *şərti işarələrin köməyi ilə xəritəni oxumağı;*
— *bitkiləri sadə şəkildə qruplaşdırmağı;*
— *bəzi mədəni və dekorativ bitkilərə qulluğu;*
— *heyvanları sadə şəkildə qruplaşdırmağı;*
— *heyvanları qidalanmasına və çoxalması yollarına görə fərqləndirməyi;*
— *bəzi ev heyvanlarına qulluq etməyi;*
— *heyvanlardan qorunmağı.*

## IV SİNİF (*66 saat*)
## Bilik günü (*1 saat*)

Bilik günü. "Bölgəmizin canlılar aləmi" adlı yay tapşırığının müzakirəsi və həmin adda kataloqun yaradılması.

## Yer kürəsi (*11 saat*)
## (Təbii zonalar)

Günəş şüaları və onun Yer qurşaqlarının əmələ gəlməsində rolu. Yer qurşaqlarında canlılar aləminin müxtəlifliyinin səbəbi. Yerin qütbləri. Arktika və Antarktikanın təbiəti. Qütb gecələri və gündüzləri. Qütblərdə canlılar aləminin kasadlığının səbəbi. Tundranın iqlimi, bitki və heyvanlar aləmi. Meşələr. İynəyarpaqlı, enliyarpaqlı və qarışıq meşələr. Meşələrin insanlar və heyvanlar üçün əhəmiyyəti. Azərbaycan meşələri.

Çəmənliklər. Çəmənlik bitkiləri. Çəmənliklərin heyvanlar aləmi. Çəmənliklərin insan üçün faydası. Çöllərin fərqli cəhətləri və təbiəti. Azərbaycan çölləri.

Yerin qızmar səhraları. Qızmar səhraların təbiəti. Səhrada yaşayan insanların məşğuliyyəti. Savannalar. Savannaları başqa təbii zonalardan fərqləndirən əsas cəhətlər. Savannaların bitki örtüyü və heyvanlar aləmi. Cəngəlliklər və onların təbiəti.

## İnsan orqanizmi (*16 saat*)
## (Sağlamlığın qorunması)

Dəri və onun əsas funksiyası. Dərinin quruluşu. Dəriyə qulluq və onun qorunması. Skelet. Skeleti əmələ gətirən sümüklər. Sümüyün tərkibi. Düzgün qamətin formalaşdırılması. Əzələlər. Əzələlərin funksiyası və möhkəmləndirilməsi. Tənəffüs orqanları və onların insan həyatında rolu. Tənəffüs orqanlarının qorunması. Tənəffüslə yoluxan xəstəliklər və onlardan qorunma yolları. Peyvəndin əhəmiyyəti. Həzm orqanlarının funksiyası. Düzgün qidalanma qaydaları. Düzgün qidalanma ilə sağlamlıq arasında əlaqə. Qan və qan dövranı orqanlarının funksiyası. Ürək və qan damarlarının fəaliyyət prinsipi. Kiçik qanaxmalar zamanı davranış qaydaları. Ürəyin möhkəmləndirilməsi.

Nəbz və qan təzyiqi. Onların ölçülməsi. Donorlar — xeyirxah insanlar.

Duyğu orqanları və onların insanın həyatında rolu. Duyğu orqanlarının mühafizəsi və gigiyenası. Sinir sistemi orqanlarının funksiyası və onların qorunması. İfrazat orqanlarının funksiyası. Sağlamlığa ciddi təhlükə törədən amillər — siqaret çəkmə və spirtli içki içmə.

Dişlərin quruluşu və funksiyası. Dişlərə qulluq və onlara həkim nəzarəti. İnsan əməyi. Fiziki, mexanikləşdirilmiş və zehni əmək. Əmək və istirahətin təşkilinin sağlamlıq üçün əhəmiyyəti.

## Təbiətin möcüzəsi — İnsan (*11 saat*)
## (Dünyanı necə dərk edirik?)

İnsanı başqa canlılardan fərqləndirən əsas cəhətlər. İnsan həyatının dövrləri: uşaqlıq, yeniyetməlik, gənclik, yetkinlik və qocalıq. İnsanın inkişafı. İnsan ətraf aləmi necə dərk edir? Ətraf aləmin dərk edilməsində duyğu orqanlarının və təcrübənin rolu. Dərketmə bacarığının inkişaf etdirilməsi. Emosiyalar və hisslər. Onların fərqləri. İnsanlar öz hisslərini necə büruzə verirlər? Hisslər idarə olunmalıdır. İnsan həyatında yaddaşın rolu. Yaddaşın inkişaf etdirilməsi və qorunması. Süni yaddaşlar. Düşünmək qabiliyyəti və insanın inkişafında onun rolu. Təxəyyül və yaradıcılıq. Təxəyyülün inkişaf etdirilməsi. Ünsiyyət. İnsanlararası münasibətlərdə ünsiyyət qaydalarına əməl etmənin rolu. İnsana hörmət və başucalığı gətirən keyfiyyətlər: sevgi, şəfqət, mərhəmət, qayğı və xeyirxahlıq. Şəxsiyyət. Əsl şəxsiyyətləri fərqləndirən xüsusiyyətlər. Şəxsiyyətin formalaşmasında iradənin rolu. Örnək şəxsiyyətlərimiz.

## Doğma diyar (*11 saat*)
## (Coğrafi yerimiz, tariximiz, mədəniyyətimiz)

Yer kürəsində Azərbaycanın coğrafi yeri. Xəritə və qlobusa baxmadan Vətənimizin coğrafi yerinin təsviri. Sərhəd qonşularımız olan ölkələr. Onlarla əlaqələrimiz. İşğalçı qonşu — Ermənistan. Dəniz qonşularımız.

Tarix. Ailəmizin, məktəbimizin, yaşadığımız yerin və xalqımızın tarixi. Tarixi mənbələr və tarixi abidələr. Arxeoloqlar və tarixin öyrənilməsində onların rolu. Evimizdəki tarixi mənbələr. Tarixin qeydə alınması və hesablanması. Təqvim. Əsr və minillik. "Bizim eradan əvvəl" və "bizim era" anlayışları. Azərbaycan tarixi.

Azıx mağarası. Vətənimiz dünyanın ən qədim insan məskənlərindən biridir. Xalqımızın keçdiyi tarixi yol. Tarixi qəhrəmanlarımız — Cavanşir, Babək, Cavad xan və başqaları.

İslam — sülh, barışıq və bərabərlik dini. Sonuncu səmavi din. Sonuncu peyğəmbər və müqəddəs Quran. İslamın digər dinlərdən fərqli cəhətləri. Dini bayramlarımız: Ramazan və Qurban bayramları. Başqalarının dini dünyagörüşlərinə hörmət.

Adətlərimiz və qanunlarımız. Yaşadığımız yerin adətləri. Adətlə qanun arasındakı fərqlər. Cəmiyyətin əsas yazılı qanunu — Konstitusiya. Konstitusiya günü. Qanunların qəbulu və icrası.

Yaşadığımız yerin bələdiyyəsi və onun formalaşması. Bələdiyyəmizin gördüyü işlər.

## Enerji (*8 saat*)
## (Hərəkət, işıq, səs, elektrik)

İşıq. Təbii və süni işıq mənbələri. İşığın həyat üçün əhəmiyyəti. İşıq və varlıqların rəngi. Kölgənin əmələ gəlməsi. İşığı əks etdirən, udan və şəffaf varlıqlar.

Səsin əmələ gəlməsi və yayılması. Səs mənbələri. Gur səs və onun insan sağlamlığına mənfi təsiri.

Enerji və enerji mənbələri. Enerjinin növləri. Ölkəmizin enerji qaynaqları. Elektriklənən cisimlər. Elektrik yükləri. Elektrik cihazları və elektrik dövrəsi. Enerci ehtiyatlarına qənaətin vacibliyi.

Hərəkət. Hərəkətli və hərəkətsiz varlıqlar. Varlığın hərəkəti üçün enerci sərf olunmalıdır. Elektrik enerjisinin sağlamlıq və həyat üçün təhlükəsi. Elektrik cihazlarından təhlükəsiz istifadə qaydaları.

## İqtisadiyyat (*7 saat*)
## (İstehsal, istehlak, büdcə, vergi, sığorta)

İnsanın tələbatları. Tələbatların ödənilməsində iqtisadiyyatın rolu. İstehsalın təşkili üçün tələb olunan şərtlər: xammal, kapital və əmək.

Büdcə. Ailə büdcəsi. Onun gəlirləri və xərcləri. Dövlət büdcəsi və onun formalaşdırılması. Büdcə xərcləri. Dövlət büdcəsi və təhsil.

İstehlak. Keyfiyyətli və keyfiyyətsiz mallar. Mağazadan mal alarkən nələrə diqqət yetirmək lazımdır? Nəyə görə reklamlara ehtiyatla yanaşmalıyıq? İstehlakçı hüquqlarımız. İstehlakçı hüquqlarımız pozulduqda kimlərə müraciət etməliyik?

Vergi. Verginin növləri. Dövlət büdcəsinin formalaşmasında verginin rolu. Vergilərin düzgün və vaxtlı-vaxtında ödənilməsinin əhəmiyyəti.

Sığorta. Sığortanın əhəmiyyəti və növləri.

## Yay tapşırıqları (*1 saat*)

Yay tətilini necə keçirməli? Yay tapşırıqları.

**Şagirdlərin bilik, bacarıq və vərdişlərinə verilən tələblər**

***Şagird aşağıdakıları bilməlidir:***

*– insan həyatının dövrlərini və onların xarakterik cəhətlərini;*
*– duyğu orqanlarının insan həyatında rolunu və gigiyenasını;*
*– insanın dərketmə, yaddaş və düşüncə qabiliyyətlərinin əhəmiyyətini;*
*– hisslərin və emosiyaların müxtəlifliyini;*
*– təxəyyülün yaradıcı fəaliyyətdə rolunu;*
*– örnək şəxsiyyəti fərqləndirən cəhətləri;*
*– ünsiyyətə mənfi və müsbət təsir göstərən hərəkət və davranışları;*
*– tarix, tarixi mənbə, arxeoloq, bizim era, bizim eradan əvvəl anlayışlarının məna sını;*
*– Azərbaycanın dünyanın ən qədim insan məskənlərindən olduğunu;*
*– Azərbaycan təbiətinin xarakterik cəhətlərini;*
*– xalqımızın məşhur tarixi qəhrəmanlarını;*
*– sərhəd qonşularımızı və onlarla əlaqələrimizi;*
*– işğalçı Ermənistanın torpaqlarımızın bir hissəsini işğal etdiyini və bu işğalın acı nə ticələrini;*
*– adət və qanun anlayışlarının fərqini;*
*– yaşadığı yerin adətlərini;*
*– ölkəmizdə qanunların qəbulu və icrası mexanizmini;*
*– ölkəmizin enerci mənbələrini;*
*– dövlət büdcəsinin necə formalaşdığını və nələrə xərcləndiyini;*
*– İslam dininin sonuncu din, Həzrəti Məhəmmədin sonuncu peyğəmbər olduğunu;*
*– dini bayramların xarakterik cəhətlərini;*
*– istehsalın yaradılması üçün lazım olan şərtləri;*
*– mağazadan mal alarkən nələrə diqqət yetirməli olduğunu;*
*– istehlakçı hüquqlarını;*
*– reklamlara ehtiyatla yanaşmanın vacibliyini;*
*– verginin əhəmiyyətini və növlərini;*
*– sığortanın əhəmiyyətini və növlərini;*
*– işığın həyat üçün əhəmiyyətini;*
*– rənglərin və kölgənin necə əmələ gəlməsinin səbəbini;*
*– səsin necə əmələ gəlməsini və yayılmasını;*
*– gur səsin insan orqanizminə zərərini;*
*– dəri və onun funksiyalarını;*
*– skeletin quruluşu və funksiyasını;*
*– əzələlərin funksiyasını və möhkəmləndirilməsi qaydalarını;*
*– tənəffüs orqanlarının funksiyası və gigiyena qaydalarını;*
*– tənəffüslə yoluxan xəstəliklərin əlamətlərini və nəticələrini;*
*– həzm orqanlarının funksiyasını;*
*– düzgün qidalanmanın sağlamlıqla əlaqəsini;*
*– qan və qan dövranı orqanlarının funksiyasını;*
*– siqaret çəkməyin və spirtli içkilərin insan sağlamlığına zərərini;*
*– dişlərin funksiyasını və onlara qulluq qaydalarını;*
*– Günəş şüalarının düz xətt boyunca yayıldığını;*
*– Yer kürəsində işıq və temperatur qurşaqlarının olduğunu;*
*– Yerin təbii zonalarını və onların təbiətinin xarakterik xüsusiyyətlərini.*

*Şagird aşağıdakıları bacarmalıdır:*

— *yaddaşını və təxəyyülünü inkişaf etdirməyi;*
— *hiss və emosiyalarını idarə etməyi;*
— *Azərbaycanın böyük tarixi şəxsiyyətləri barədə məruzə hazırlayıb təqdim etməyi;*
— *yaşadığı ərazidə ətraf mühiti çirkləndirən mənbələri müəyyənləşdirməyi və bu haqda kiçik məruzələr hazırlamağı;*
— *yaşadığı ərazinin zibildən təmizlənməsi üçün təkliflər irəli sürməyi;*
— *yaşadığı bölgədə fəaliyyət göstərən dövlət orqanlarının və bələdiyyənin fəaliyyətini qiymətləndirməyi;*
— *yaşadığı ərazidə yayılmış dərman bitkilərini və zəhərli bitkiləri ayırd etməyi;*
— *dövlətin daha da möhkəmlənməsi və inkişafı üçün özünün və həmyaşıdlarının nə edə biləcəyi ilə bağlı fikirlərini bildirməyi;*
— *təqvimdən istifadə etməyi;*
— *pulu olmadıqda bəzi tələbatlarını təxirə salmağı;*
— *ailə büdcəsi tərtib etməyi;*
— *eyni keyfiyyətli mallardan daha ucuzunu və eyni qiymətli mallardan daha keyfiyyətlisini seçməyi;*
— *elektrik enerjisinə, qaza və suya qənaət etməyi;*
— *bəzi xurafatları dindən fərqləndirməyi;*
— *istehlakçı hüquqlarını müdafiə etməyi;*
— *işini və istirahətini düzgün planlaşdırmağı;*
— *zəruri tələbatlarını istəklərindən ayırd etməyi;*
— *tənəffüs yolu ilə yoluxan xəstəliklərdən qorunmağı;*
— *nəbzi yoxlamağı və qan təzyiqini ölçməyi;*
— *şaxtadan və Günəş şüalarından qorunmağı;*
— *kiçik qanaxmalar zamanı tələb olunan davranış qaydalarını;*
— *səs mənbələrini ayırd etməyi və gur səsdən qorunmağı;*
— *sağlamlığı ilə bağlı məsuliyyəti öz üzərinə götürməyi;*
— *sümüyün tərkibindəki maddələri təcrübə yolu ilə nümayiş etdirməyi;*
— *işığı keçirən, udan və əks etdirən maddələri ayırd etməyi;*
— *Günəş şüalarının Yeri qışda az, yayda çox qızdırmasını onun müxtəlif bucaqlar altında düşməsi ilə əlaqələndirməyi;*
— *hərəkəti enerji sərfi ilə əlaqələndirməyi;*
— *elektriki keçirən və keçirməyən bəzi maddələri fərqləndirməyi;*
— *sadə elektrik dövrəsi qurmağı;*
— *yaşadığı bölgənin təbiətinin Yerin hansı təbii zonasına uyğun gəldiyini müəyyən etməyi;*
— *qlobusdan və xəritədən istifadə etmədən Azərbaycanın coğrafi yerini təsvir etməyi.*




1. ***Qaralov Z.***
2. ***Əlizadə Ə.***
3. ***Kərimov Y.***
4. ***Hüseynov***
5. ***Hüseynov***
6. Həyat baca
7. Qida və siz
İnstitutu. B
8. Təhsil mü
("SESAM"
9. Fövqəladə
10. İnsan hüqu
11. Məktəbdə
12. Kiçikyaşlı
vəsait. Nor

1. Hayat bilgis
2. Sosyal bilgi
3. Fenn ve tek
4. Tüm dersle
5. Vatandaşlıq
6. Sosyal bilgi
7. Din kültürü

1. ***Pleşakov A.***
2. ***Pleşakov A.***
3. ***Pleşakov A.***
4. ***Pleşakov A.***
2004.
5. ***Cunusova***
6. ***Cunusova***
7. ***Qalen-Pon***
8. ***Qalen-Pon***
9. "Mir vokru
10. Obuçenie m
klassov. Ba

## Ədəbiyyat

### Azərbaycan dilində


1. *Qaralov Z.* Tərbiyə (I–III cildlər). Bakı, 2003.
2. *Əlizadə Ə.* Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 2004.
3. *Kərimov Y.* Əşya dərsləri. ETPEİ-nin elmi əsərləri. I buraxılış, 1965.
4. *Hüseynov Ə.* Təbiətşünaslıq (3-cü sinif üçün dərslik). Bakı, 2004.
5. *Hüseynov Ə.* Təbiətşünaslıq (4-cü sinif üçün dərslik). Bakı, 2004.
6. Həyat bacarıqları dərsliyi (I və II hissələr). Save the Children. Gəncə, 2006.
7. Qida və sizin sağlamlığınız. Məktəblilər üçün tədris proqramı. Açıq Cəmiyyət İnstitutu. Bakı, 1999.
8. Təhsil müəssisələrində riskin idarə olunması üzrə fəaliyyətin təşkili ("SESAM" plan). Bakı, 2001.
9. Fövqəladə Hadisələrin Təsnifatı (məlumat kitabı). Bakı, 2001.
10. İnsan hüquqlarının tədrisi. Metodik vəsait. Norveç Qaçqınlar Şurası, 2003.
11. Məktəbdə vətəndaş təhsili. Metodik vəsait. Norveç Qaçqınlar Şurası, 2002.
12. Kiçikyaşlı məktəblilərə insan hüquqlarının öyrədilməsi. Müəllimlər üçün vəsait. Norveç Qaçqınlar Şurası, 2001.


### Türk dilində


1. Hayat bilgisi dersi (1., 2., 3. sınıflar) öğretim proqramı. Ankara, 2005.
2. Sosyal bilgiler dersi (5., 6., 7., 8. sınıflar) öğretim proqramı. Ankara, 2005.
3. Fenn ve teknoloci dersi (4., 5. sınıflar) öğretim proqramı. Ankara, 2005.
4. Tüm dersler (1. sınıflar için). İstanbul, 2001.
5. Vatandaşlıq bilgileri (3. sınıf). İstanbul, 1991.
6. Sosyal bilgiler (4. sınıf). Ankara, 1990.
7. Din kültürü və ahlak bilgisi (4. sınıf). Ankara, 2002.


### Rus dilində


1. *Pleşakov A.* "Mir vokruq nas" (I klass). Moskva, 2004.
2. *Pleşakov A.* "Mir vokruq nas" (II klass). 1, 2 kniqa. Moskva, 2004.
3. *Pleşakov A.* "Mir vokruq nas" (III klass) 1, 2 kniqa. Moskva, 2004.
4. *Pleşakov A., Kröçkova E.* "Mir vokruq nas" (IV klass). 1, 2 kniqa. Moskva, 2004.
5. *Cunusova K. i dr.* "Poznanie mira" (I klass). Alma-Ata, 2002.
6. *Cunusova K. i dr.* "Poznanie mira" (II klass). Alma-Ata, 2002.
7. *Qalen-Ponçuk i dr.* "Poznanie mira" (II klass). Kişingu, 2002.
8. *Qalen-Ponçuk i dr.* "Poznanie mira" (IV klass). Kişingu, 2002.
9. "Mir vokruq nas" uçebnaə proqramma. Moskva, 2003.
10. Obuçenie mladşix şkolğnikov pravam çeloveka. Posobie dlə uçiteley naçalğnıx klassov. Baku, 2005.

*Nizami Eldaroğlu,*

## KƏNDDƏ YAŞAMAĞIN NƏ MƏNASI VAR



Çox təmiz havası, sərin Narzanı,
Su qarın doyurmaz, boşsa qazanı.
Köçdü oğulları, öldü ozanı,
Kənddə yaşamağın nə mənası var.

İşləyib səhərdən axşama qədər.
Verirsən ömrünü bu yerdə hədər
Yaşamaq çox çətin, adamı üzər.
Kənddə yaşamağın nə mənası var.

Köçübdü, yarısı boş qalıb kəndim.
Baxıb evlərinə darıxır insan.
Dadı qalmayıbdı şəkərin, qəndin
Kənddə yaşamağın nə mənası var.

Cavanı köç etdi, qaldı qocası,
Bəsləyən olmadı, kəsdi yoncası,
Yox bir ağsaqqalın xeyir-duası,
Kənddə yaşamağın nə mənası var.

## ŞƏHİDİ VAR İSƏ TORPAQ VƏTƏNDİR

Uca dağlarının zirvəsi qarlı,
Geniş çöllərinin bağları barlı,
Dərədi, təpədi, düzəndi torpaq,
Şəhidi var isə, demək, vətəndi torpaq.

Torpaq bizə ana, biz övladları,
Damarda qanımız buz bulaqları,
Yaylaqdı, obadı, məkandı torpaq.
Şəhidi var isə, demək, vətəndi torpaq.

Torpaq babalardan bizə əmanət,
Etmədik heç zaman ona xəyanət,
Qızıl qanımıza bələndi torpaq,
Şəhidi var isə, demək, vətəndi torpaq.

Qoynunda bəsləyir hər övladını,
Yerinə yetirir arzularını,
Düşmənə məzardı, kəfəndi torpaq,
Şəhidi var isə, demək, vətəndi torpaq.

Becərsən, borcunu verəndi torpaq,
Qorusan qədrini biləndi torpaq,
Anadı, Vətəndi, Vətəndi torpaq,
Şəhidi var isə, demək, vətəndi torpaq.

*Rəna Mirzəyeva*

## ƏLİFBANIZ MÜBARƏK!



Gəlmişik bu bayrama
Əlimizdə gül-çiçək.
Hamı söyləyir bizə
-Əlifbanız mübarək!

-Əziz müəllim siz bizə
Əlifba öyrətdiniz.
Çox sağ olun, var olun,
Sizə minnətdarıq biz.

O müqəddəs adınız
Qəlblərdə yaşayacaq.
Bizə nurlu yol açan
Bir vəsiqə olacaq.

Hamıdan çox sevinir,
Əziz müəlliməmiz.
Ona təşəkkür edib,
Deyirik hər birimiz:

Gözlərimizə nur siz,
Yolumuza işıq siz…
Biz yaşaya bilmərik,
Bu nursuz, bu günəşsiz.

## BAYRAMINIZ MÜBARƏK!

Qəlbinizdə arzular
Açılsın çiçək-çiçək,
Ey mehriban qadınlar,
Bayramınız mübarək!

Yaz günəşi nur saçır,
Gülümsər üzünüzə.
Qəm, kədər uzaq qaçır,
Dolmayıb gözünüzə.

Hər evdən eşidilsin
Səmimi qadın səsi.
Hər evə yaraşıqdır
İsti qadın nəfəsi.

Ey mehriban qadınlar,
Hamının gərəyisiz,
Dünya sizsiz dağılar,
Dünyanın dirəyisiz!

*Firuzə Bəyməmmədqızı*

## MƏKTƏBLİYƏM BU GÜNDƏN

Qəlbim fərəhlə vurur,

Millətimə sadiqəm

Məktəbliyəm bu gündən.
Müstəqil dövlətimin
Xoşbəxt övladıyam mən.

Ötüşər aylar, illər,
Böyüyüb boy ataram.
İndi xəyal sandığım
Hər arzuma çataram.

Sevirəm vətənimi.
Dostlar, hələ qabaqda
Çox şey gözləyir məni.

Ötüşər aylar, illər,
Hər arzuma çataram
Sevincimi ellərin
Sevincinə qataram.

*Firuzə Bəyməmmədqızı*

## TAPMACALAR

Quyruq bir şələ,
Özü hiyləgər.
Gecələr qaçıb,
Hinlərə girər.
(Tülkü)

Atam bir qutu alıb,
Tıq-tıq edir həmişə,
Evimizə gələndən,
Heç kim gecikmir işə.
(Saat)

Birdən yanımda,
Bir çiçək bitdi,
Əyildim dərəm
Tez uçub getdi.
(Kəpənək)

Çox zərif çiçəyəm mən,
Sevir məni uşaqlar.
Başımda qara xallı
Qırmızı örpəyim var.
(Lalə)

Yaraşıqlı çöhrəmə,
Mən yeddi rəng vururam.
Yağışdan sonra göydən,
Asılaraq, dururam.
(Göy qurşağı)

O gələn zaman,
Gülər bağça-bağ
Bizə bahardan,
Gətirər soraq.
(Qaranşuq)

Yayda qan-tər tökərək,
Zəhmət donunu geyir.
Yığdığı azuqəni,
Qışda rahatça yeyir.
(Qarışqa)

## TAPMACALAR

Tuk, tuk, tuk, tuk, tuk, tuk, tuk…
Qulaq asın, uşaqlar,
Bir gəlir meşədən.
Görəsən ağacları, kimdir beləcə dələn?
*(Ağacdələn)*

Mən vururam onu yerə,
O isə tez qalxır göyə.
*(Top)*

Səməya qalxanda o,
Hamı unudar qəmi.
Zərli saçaqlarıyla,
İsindirər aləmi.

*(Günəş)*

Üzü gipgirdə,
Rəngi sapsarı.
Daim boylanır,
Günəşə sarı.

*(Günəbaxan)*

## OYUN

Bu söz «un»dur,
Bir «Y» yazdım.
«Un» oldu «yun»
Sonra «oyun».
«Oyun» döndü,
Oldu «qoyun»
Heç görmüsən
Belə oyun?

*Musa Qəmbərli*

## MƏN NƏÇİ OLACAĞAM

Şagirdəm dərslərimdən
Əla oxuyuram mən.
Başqa sənət seçmirəm
Darda qalıbdır Vətən.

Pilot olub qalxacam
Yurdumun səmasına.
Mərmilər yağdıracam
Düşmənin yuvasına.

Daşnak aşıb həddini,
Qıracağam harda var.
Səngərini, səddini
Edəcəyəm tarımar.

Bir dağdır ürəyimdə
Neçə kəndi, şəhəri,
Şuşanı, Kəlbəcəri
Söküb viran etdilər.
Beşikdə körpələri
Güllələbaran etdilər.

Mən atəşlə getməsəm,
Söz-söhbətlə kar aşmaz.
Yurdu xilas etməsəm,
Oğul adı yaraşmaz.

Şimşək kimi çıxaraq,
Yandıracağam tamam.
Oddan qalib çaxaraq,
Qayıdacam bir zaman.

Qalxacaq Qarabağdan
Yenə tar-qaval səsi.
Yayılacaq hər dağdan
Elin zəfər nəğməsi.

## MƏN NƏÇİ OLACAĞAM

Nəçi olmaq haqqında
Düşünürəm həmişə.
Seçmişəm ürəyimə
Çox yatan gözəl peşə.

Xasiyyətcə mehriban,
Şən, həlim olacağam.
Arzumdur uşaqlıqdan
Müəllim olacağam.

Tanıdacam şagirdə
Yurdun hər guşəsini.
Sevdirəcəyəm bir də
Türkün tarixçəsini.

Öyrədərəm onlara
Xalqına məhəbbəti,
Düşsə çətinə, dara
Dözümü mətanəti.

Ermənilər hər zaman
Pənah gətirib bizə.
Ələ düşəndə imkan
Qəsd edib ölkəmizə.

Güclülərə söykənib
Bizə böhtan atıblar.
Xəyanətə güvənib
Bizi qırıb-çatıblar.

Mən qəlblərə yenidən
Birlik gətirəcəyəm.
Vətəni xilas edən
İgid yetirəcəyəm.

*Fəridə Mürsəlova*

## ÇİÇƏK

Çiçək qozlardan
Yığdı bir ətək.
Sona payladı
Dostlara tək-tək.
Ayşən də aldı,
Gülşən də aldı,
Elşən də aldı,
Eltən də aldı.
Çiçəkdə yenə
İki qoz qaldı.
Gəlin çaşmadan
Siz tapın görək
Neçə dənə qoz
Yığmışdı Çiçək

## TƏK-CÜT

Nənəsinə heyrətlə
Sual verdi kiçik qız:
-Niyə əlim, ayağım,
Gözüm, qulağım cütdür
Təkdir burun və ağız?
Nənə dedi: Ay qızım,
Ay mənim, dan ulduzum,
Əllər işləmək üçün,
Ayaqlar gəzmək üçün,
Qulaq yaxşı eşidib,
Göz sözü seçmək üçün
Sənə verilmiş, quzum.
Ağız birdir, az danış!
Burnunu hər deşiklə,
Gəl eyləmə sən tanış!